RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 54 (9799) 12 mart 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan və Şimali Makedoniya arasında siyasi dialoq dinamik xarakter alır

◆ Şimali Makedoniya Prezidentinin Azərbaycana rəsmi səfəri



- Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. Qordana Silyanovska-Davkovanın martın 11-də Bakıda rəsmi qarşılanma mərasimi olub.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ilə təkbətək görüşü olub.
- Hər iki ölkənin Prezidenti mətbuata bəyanatlarla çıxış edib.
- Dövlət başçısı İlham Əliyevin Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.
- Qordana Silyanovska-Davkova həmin gün Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, Bakıda Zəfər parkını ziyarət edib və ADA Universitetində tələbələrlə görüşüb.

→ 2-3

## Konstitusiya və Suverenlik İli

# Yeni strateji hədəflər qarşısında



Azərbaycan Respublikası Konstitusiyasının 30 illik tarixdə böyük uğur qazanmasını şərtləndirən ən mühüm amil onun müəyyən etdiyi çərçivələrdə ölkəmizin qanunvericilik bazasının yenilənməsi, Konstitusiyada irəli sürülmüş bütün müddəaların effektiv icra mexanizmlərinin formalaşdırılmasından irəli gəlir. Əsas Qanunumuz dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu ildönümünün bu gün ərazi bütövlüyü, suverenliyi təmin olunmuş dövlətimizdə qeyd edilməsi ən böyük tarixi nailiyyətdir.

2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması xalqımızın həyatında yeni və xoş başlanğıcların müjdəsidir. Bu gün Azərbaycan Respublikası özünün milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Xalqımızın milli iradəsi, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, vətəndaşlarımızın bu inkişaf siyasətinə dəstəyi sayəsində Azərbaycan daha böyük hədəflərə çatacaq, tərəqqinin yeni mərhələlərinə yüksələcək.

→ 8

# Dövlətçiliyin və təhlükəsizliyin etibarlı keşiyində

44 günlük savaşdan və antiterror tədbirlərindən sonra Daxili Qoşunların fəaliyyətində yeni şərəfli missiya başlayıb. Belə ki, hazırda işğaldan azad edilmiş ərazilərdə ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasında, mühüm əhəmiyyətli obyektlərin mühafizəsində, Böyük qayıdış proqramının uğurla reallaşmasında, Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsində Daxili İşlər Nazirliyinin strukturlarından biri kimi Daxili Qoşunlar şərəfli xidmət həyata keçirir.

Azərbaycan Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yarandığı gündən çətin və şərəfli yol keçib. Torpaqlarımızın azad olunmasında qəhrəmanlıq göstərən, qarşısında dayanan bütün vəzifələri layiqincə yerinə yetirən Daxili Qoşunlar hər zaman dövlətə və xalqa şərəflə xidmət edəcək.

→ 7

# Fransanın bütün addımları fiasko ilə nəticələnib

Fransanın neokolonial siyasətinə qarşı Azərbaycanın liderliyi ilə başlanan mübarizə Parisdə olduqca ağrılı şəkildə qəbul olunur. Buna qarşı çıxmaq məqsədilə Fransanın atdığı bütün addımları fiaskoya uğrayıb. Azərbaycan isə Fransanın müstəmləkə ərazilərində törətdiyi cinayətlərin müvafiq hüquqi qiymətini almasında, koloniya zülmü altında yaşayanların öz azadlığına qovuşması istiqamətində fəaliyyətini davam etdirməkdə qətiyyətlidir. Azərbaycan XİN-in Fransaya cavab olaraq verdiyi bəyanatlar, ölkəmizin öz xarici siyasətində müstəqil və sərbəst bir mövqe tutduğunu və heç bir xarici müdaxiləyə yer verməyəcəyini bir daha nümayiş etdirir.

→ 11




*Ermənisilli şəxslər Vardanyanın məhkəməsində ifadə veriblər:*

# "Ruben elə bilirdi ki, Qarabağdakılara yaxşılıq edib, amma onların evini yıxıb"

Şahid deyib ki, Ruben Vardanyan Qarabağda qondarma rejimdə vəzifəyə təyin olunduqdan sonra muzdlu döyüşçülərdən ibarət dəstələr toplamağa başlayıb. Daha sonra isə həmin şəxslər Xocalı rayonunda yerləşən düşərgədə hərbi təlimlərə cəlb olunub. "Əsgərlikdən yeni gəlmiş şəxslərin hərbi xidmətdə olan ixtisaslarını öyrənib və onlardan istifadəyə yararlı olan şəxsləri dəstələrə cəlb edib. Əsasən radiotexniki sahədə hərbi təcrübəsi olan əsgərlərin öz könüllü muzdlu dəstələrinə qoşulmasını həyata keçirib. O, bu məqsədlə Xocalı rayonunun Badara kəndi yaxınlığında dağlıq və meşəlik ərazidə çay kənarında əvvəllər "İdman Turizmi Federasiyası"nın nəzdində olmuş düşərgədə hərbi təlim məntəqəsi yaratdıraraq əsasən əsgərlikdən yeni gəlmiş gənclər, tələbələr və yuxarı sinif şagirdlərinə hərbi təlimlər keçilməsini təşkil edib. Mən Vardanyanı başa düşmürəm, əgər xalq üçün yaxşılıq edirsənsə, niyə silah alırsan, mina basdırırsan, adamlara pul verirsən, düşərgə açırsan? Əgər silah yaxşı şeydirsə, al apar evinə, övladların döyüşsün. Vardanyan elə bilirdi ki, Qarabağdakılara yaxşılıq edib, amma onların evini yıxıb", - deyə şahid vurğulayıb.




Məhkəmə iclasında şahidlərin Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) ibtidai istintaq zamanı verdikləri ifadələri elan olunub. Onlar ibtidai istintaqda verdikləri ifadələrini təsdiqləyiblər.

→ 9

# USAID-in qalan əli-qolu da kəsilir

USAID-in fəaliyyəti ilə bağlı ABŞ-nin yeni administrasiyasının kifayət qədər tənqidi yanaşması var. Son bir aya nəzər yetirsək görərik ki, təşkilatın fəaliyyətinin yenidən qurulması ilə bağlı Donald Tramp administasiyası ardıcıl addımlar atır. Artıq Donald Tramp administrasiyası Beynəlxalq İnkişaf Agentliyinin proqramlarının 83 faizini rəsmən dayandırıb. Bu barədə ABŞ Dövlət katibi Marko Rubio özünün sosial media hesabında yazıb. Altıhəftəlik araşdırmadan sonra biz USAID proqramlarının 83 faizini dayandırdıq. Ləğv edilən 5200 müqavilə çərçivəsində on milyardlarla dollar Birləşmiş Ştatların maraqlarına uyğun olmayan şəkildə və bəzi hallarda hətta onun zərərinə xərclənib.

→ 11



◆ Şimali Makedoniya Prezidentinin Azərbaycana rəsmi səfəri

# Azərbaycan və Şimali Makedoniya arasında siyasi dialoq dinamik xarakter alır

## Bakıda rəsmi qarşılanma mərasimi olub







**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkovanın martın 11-də Bakıda rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Şimali Makedoniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyev Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Şimali Makedoniya Prezidentinə raport verdi. Şimali Makedoniya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Azərbaycan Prezidenti İlham Əliyevin Şimali Makedoniya Prezidenti ilə təkbətək görüşü



Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ilə təkbətək görüşü olub.

## Azərbaycan və Şimali Makedoniya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər



Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova mətbuata bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

*Bax səh. 3*

◆ Şimali Makedoniya Prezidentinin Azərbaycana rəsmi səfəri

# Azərbaycan və Şimali Makedoniya arasında siyasi dialoq dinamik xarakter alır

## Azərbaycan və Şimali Makedoniya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər





### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli xanım Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Xanım Prezident, Sizi bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Bu, Sizin Azərbaycana ikinci səfərinizdir. Mən çox şadam ki, Siz COP29 konfransında da fəal iştirak etmisiniz və konfransın uğurla keçirilməsinə öz töhfənizi vermisiniz.

Noyabr ayında görüş əsnasında mən Sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm və şadam ki, mənim dəvətimi qəbul edib bu gün rəsmi səfərdəsiniz. Biz ikitərəfli münasibətlərimizin inkişafı üçün fəal iş aparırıq. Şadam ki, ölkələrimiz arasında siyasi dialoq dinamik xarakter alır. Bizim xanım Prezidentlə ikinci görüşümüz qısa müddət ərzində bunun əyani sübutudur. Siyasi əlaqələrimizin inkişafı üçün əlavə tədbirlər görülməlidir, müvafiq dövlət qurumları təbii olaraq sıx təmasda olmalıdırlar. Eyni zamanda iqtisadi sahədə, sərmayə qoyuluşu sahəsində imkanlar araşdırılmalıdır. Əfsuslar olsun ki, bu günə qədər ticari-iqtisadi sahədə o qədər böyük nəticələr əldə edilməyib. Ancaq ümid edirəm ki, Sizin rəsmi səfərinizdən və nümayəndə heyətlərinin təmaslarından sonra biz bu boşluğu da dolduracağıq.

Son ayların müsbət əlaməti də ondan ibarətdir ki, iki ölkə energetika sahəsində əməkdaşlığa başlamışdır. Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılmışdır və bu, keçən ilin sonlarında baş verdi, bu il artıq müntəzəm olaraq Azərbaycan sizin bazarınızı təbii qazla təmin edəcəkdir. Gələcəkdə biz lazım olan həcmdə qaz təchizatını artıra bilərik. Çünki biz bu gün yeni qaz yataqlarının istismara verilməsi istiqamətində fəal iş aparırıq. Bildirməliyəm ki, hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bizim müştərilərimizin coğrafi yerləşməsi də Avrasiya məkanını əhatə edir. On iki ölkədən 10 ölkə Avropa ölkəsidir. Keçən il Azərbaycan xarici bazarları 25 milyard kubmetr qaz ilə təchiz etmişdir. Təbii ki, bizim istehsalımız bundan daha çoxdur. Çünki biz yerli tələbatı da ödəyirik. Ancaq əhatə dairəsi, qaz təchizatımızın coğrafiyasının genişləndirilməsi də gündəlikdə duran məsələdir. Avropa Azərbaycan qazına ehtiyac duyur. Təxminən üç il bundan əvvəl Bakıda imzalanmış Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq Bəyannaməsi bunun əyani təzahürüdür. Bu gün Azərbaycan qazı bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir və Avropadakı tərəfdaşlarımızın xahişlərinə biz hər zaman böyük diqqətlə yanaşmışıq. Yəni, energetika sahəsində ikitərəfli formatda əməkdaşlıq bizim üçün çox önəmlidir və mən ümid edirəm ki, bu praktiki əməkdaşlıq digər sahələrdə də əməkdaşlığa gətirib çıxaracaq.

Mən xatırlayıram ki, keçən səfəriniz çərçivəsində Siz Azərbaycanın mədəni həyatı ilə də tanış olmusunuz və bilirəm, sabahkı proqramınızda da buna oxşar tədbirlər var. Biz bunu çox müsbət qarşılayırıq, bunu alqışlayırıq. Xalqlarımızın humanitar sahədə əməkdaşlığına da böyük ehtiyac var. Şadam ki, Siz, eyni zamanda XII Qlobal Bakı Forumunda iştirak edəcəksiniz. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil olunan bu forum dünya miqyasında layiqli yerini tuta bilib. Əlbəttə ki, Sizin dəyərli fikirləriniz, tövsiyələriniz hamı üçün maraqlı olacaq. Siz bizim tələbələrimizlə də görüşəcəksiniz. Buna görə də Sizə təşəkkürümü bildirirəm.

Sizin siyasi və dövlət xadimi kimi çox böyük təcrübəniz var. Siz beynəlxalq təşkilatlarda yüksək vəzifələrdə çalışmısınız, eyni zamanda ölkənizdə müxtəlif mərhələlərdən keçərək ən yüksək vəzifəyə layiq görülmüsünüz. Ona görə Sizin dəyərli fikirləriniz hamımız üçün çox maraqlı ola bilər.

Xanım Prezident, Sizi bir daha səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz. Əminəm ki, səfəriniz uğurlu olacaqdır.

❖ ❖ ❖

Sonra Şimali Makedoniyanın Prezidenti bəyanatla çıxış etdi.

### Prezident Qordana Silyanovska-Davkovanın bəyanatı

- Sağ olun.

Əvvəlcə, hörmətli Prezident Əliyev, hörmətli mətbuat nümayəndələri, qısa müddətdən sonra Bakıya səfər etmək fürsətinə görə minnətdaram. Mədəniyyət diplomatiyasının gücünə dərindən inanan bir şəxs kimi cənab Prezidentə söylədim ki, mən həqiqətən buraya yenidən gəlməyimi arzulayırdım. Bununla belə, mən məlumatım olmadığı bəzi məsələləri də artıq müzakirə etdim.

Ölkəniz müsəlman Şərqində ilk cümhuriyyət qurmuşdur, eləcə də ilk opera, ilk filarmoniya məhz burada yaradılmışdır. Bu ölkə öz zəngin mədəniyyəti ilə seçilir. Ötən dəfə söylədiyim kimi, ilk dəfə ziyarət edə bilmədiyim muzeylərə bu dəfə gedəcəyəm. Bu fürsətə görə Sizə təşəkkürümü bildirirəm.

Prezident artıq söylədi ki, əgər belə qısa müddət ərzində bir insanla yenidən görüşürsənsə, deməli, aydındır ki, bunun yaxşı əsasları var. Fikrimcə, bu bir faktdır ki, Azərbaycan beynəlxalq münasibətlərdə çox fəaldır. Sonuncu görüş zamanı burada iqlim konfransı təşkil edilmişdi. İndi isə növbəti dəfə tədbir keçiriləcək və orada dünyanı narahat edən əsas çağırışlar müzakirə olunacaq. Bu da yaxşı fürsətdir, çünki bu il biz ölkələrimiz arasında diplomatik münasibətlərimizin otuzuncu ildönümünü qeyd edirik. Düşünürəm ki, həmin tarixin bu görüşlə üst-üstə düşməsi yaxşı haldır.

Cənab Prezident Azərbaycanla strateji tərəfdaşlıqda Avropa İttifaqının marağı haqqında artıq danışdı. Azərbaycan nəinki beynəlxalq geosiyasi səhnədə mühüm yerləşməsi ilə seçilir, o cümlədən bizim kimi kiçik ölkələrin ehtiyac duyduğu təbii qaz, bərpaolunan enerji baxımından çox maraqlı tərəfdaşa çevrilir. Mən cənab Prezidentə söylədiyim məsələləri bir daha vurğulayıram ki, biz irəliyə doğru addımın atılmasını gözləyirik və əməkdaşlığa dair bəyannaməyə və ya razılaşmaya imza atacağıq. Bu, o demək deyil ki, biz yalnız qaz təchizatında Azərbaycandan yardım alacağıq, o cümlədən iqtisadi əməkdaşlıq üçün də imkanlar yaranacaq.

Mən qarşımda xarici işlər nazirini görürəm, biz dərhal diplomatik və xidməti pasport sahibləri üçün viza tələbinin tətbiqi kimi təəccüblü bir vəziyyətə son qoyacağıq. Zənnimcə, bu, nə Şimali Makedoniyanı, nə də Azərbaycanı qane edən vəziyyət deyil və bu addımın atılması iki xalq arasında yaxınlaşmaya xidmət edəcəkdir. Ümid edirəm ki, biz Azərbaycanın mədəniyyətini də tanımağa davam edəcəyik. Bundan əlavə, elm sahəsində də universitetlərimiz arasında əməkdaşlığın qurulmasına nail ola bilərik.

Azərbaycan hətta təyyarədən belə çox gözəl görünür, ölkəniz ilə əyani tanışlıqda isə o, insanı valeh edir. Bu səbəbdən turizm sahəsi də əməkdaşlıq edə biləcəyimiz sahələrdəndir.

Artıq qeyd etdiyimiz kimi, bugünədək iqtisadiyyat sahəsində əhəmiyyətli addımlar atılmamışdır. Coğrafi mövqeyimizə görə biz Balkanlarda, Avropanın mərkəzində, bir sıra marşrutların kəsişməsində yerləşirik. Bu, Avropaya və dünyaya açıq olan hər bir ölkə üçün olduqca vacibdir.

Sonuncu dəfə ölkənizdə olarkən bu fikri söyləmişdim və bu gün də təkrar bəyan etmək istəyirəm ki, biz bir-birimizdən bir çox şey öyrənə bilərik və bu səfər dərin dostluğun təməli olacaqdır. Mən təkcə Dövlət Neft Şirkəti ilə müqaviləni nəzərdə tutmuram. Hesab edirəm ki, gələcəkdə əldə olunan bütün razılaşmalar bizi daha da yaxınlaşdıracaq.

Cənab Prezidentə söylədiyim sonuncu fikir ondan ibarət idi ki, XXI əsrdə yenidən dünya nizamı ilə bağlı fərziyyələrin irəli sürülməsi insanı sarsıdır. Ukrayna da daxil olmaqla, bu geniş region dünyada cərəyan edən hadisələrin özəyini təşkil edir və müxtəlif tərəflər bu regionda təsir gücünə malik olmaq istəyir. Zənnimcə, Avropa yenidən qapılarını açır və sizin nailiyyətləriniz sayəsində biz gələcək əməkdaşlığımızı davam etdirə bilərik.

Səmimi qonaqpərvərliyə və fikir mübadiləsinin aparılması fürsətinə görə Sizə təşəkkür edirəm. Ümid edirəm ki, qarşıdakı illərdə biz daha güclü əməkdaşlığa nail ola biləcəyik. Bu məqamda mən Strateji Əməkdaşlığa dair Sazişi qeyd etmək istəyirəm. Belə bir saziş region ölkələri ilə imzalanıb və mən müvafiq sazişin Azərbaycanla da imzalanması üçün heç bir maneə görmürəm.

Diqqətinizə görə sağ olun.

## Azərbaycan Prezidenti İlham Əliyevin Şimali Makedoniya Prezidenti ilə lanç əsnasında geniş tərkibdə görüşü olub

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.



◆ Şimali Makedoniya Prezidentinin Azərbaycana rəsmi səfəri

# Şimali Makedoniya Prezidenti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini anıb



Ölkəmizdə rəsmi səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova martın 11-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

# Şimali Makedoniya Prezidenti Bakıda Zəfər parkını ziyarət edib






**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova martın 11-də Bakıda Zəfər parkını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Şimali Makedoniya Prezidenti Zəfər abidəsinin önünə əklil qoydu.

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi. Bildirildi ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, parkın açılışı 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə olub.

# Şimali Makedoniya Prezidenti ADA Universitetində tələbələrlə görüşüb

**Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova martın 11-də ADA Universitetində tələbələrlə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Qordana Silyanovska-Davkova çıxışında iki ölkə arasındakı dostluq əlaqələrinin gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. O, Azərbaycan və Şimali Makedoniya arasında geniş əməkdaşlıq potensialının olduğunu qeyd edərək, xüsusilə təhsil, iqtisadiyyat və mədəni sahələrdə əlaqələrin inkişafına diqqət çəkib.

Daha sonra Prezident regiondakı geosiyasi vəziyyət, Şimali Makedoniyanın beynəlxalq əməkdaşlıq məsələləri ilə bağlı fikirlərini bölüşüb. O, ölkəsinin Avropa ilə əlaqələrinin möhkəmləndirilməsinə dair atılan addımlardan danışıb və Azərbaycanın beynəlxalq arenada artan rolunu yüksək qiymətləndirib.

Görüş interaktiv şəkildə davam edib və Prezident Qordana Silyanovska-Davkova tələbələrin suallarını cavablandırıb.

Gənclərlə açıq dialoq aparan dövlət başçısı onların gələcək planları, təhsil imkanları və ikitərəfli münasibətlərin perspektivləri ilə maraqlanıb.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

# Azərbaycan Şimali Makedoniya üçün cəlbedici ölkədir

**Qədim tarixə malik olan makedoniyalılar müxtəlif imperiyaların tərkibində yaşasalar da, milli düşüncələrini itirməyərək, 1990-cı illərdə dünyada baş verən geosiyasi dəyişiklərdən istifadə edərək müstəqilliklərini qazandılar. Yuqoslaviyanın dağılması ilə müstəqillik əldə edən Şimali Makedoniya ilə Azərbaycanın yeni tarixində bənzər məqamlar çoxdur. Hər iki dövlət imperialist siyasətin qurbanı olmuş və SSRİ-nin dağılmasından sonra müstəqillik qazanaraq inkişaf mərhələsinə qədəm qoymuşlar.**




Bu gün Azərbaycanın Balkan yarımadası dövlətləri ilə əməkdaşlıq əlaqələrinin genişlənməsi xarici siyasətin prioritet istiqamətlərindən biridir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Qərbi Avropa dövlətləri ilə sərhəddə yerləşən Balkan ölkələri Şərqlə ticarət, nəqliyyat və tranzit əlaqələrin qurulmasında mühüm rol oynayır.

Rusiya ilə Ukrayna arasında davam edən müharibə Avropanın enerji təhlükəsizliyinə təhdid yaradıb. Ukraynada hərbi əməliyyatlar başlayandan bəri Avropanın enerji bazarında təbii qazın qiyməti artıb. Belə ki, ötən ilin dekabrında Avropa birjalarında təbii qazın qiyməti 30 faiz artaraq 1000 kubmetr üçün 560 dollardan 700 dollara yüksəlib. Bu vəziyyət Balkan dövlətlərini də düşündürür və onları enerji təhlükəsizliyinin təmin olunması üçün yollar axtarmağa vadar edir.

Azərbaycan 2021-ci ilin iyulunda Avropa İttifaqı (Aİ) ilə imzaladığı müqaviləyə əsasən, 2027-ci ilədək Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya təbii qaz ixracının həcmini 30 milyard kubmetrə çatdıracaq. Bu gün Yunanıstanın təbii qaza olan tələbatının 18 faizini Azərbaycan ödəyir. Cari ildə Yunanıstana 1,2 milyard kubmetr təbii qazın ixrac edilməsi nəzərdə tutulub. Energetika Nazirliyinin açıqlamasına əsasən, 2028-ci ildə "Ümid" və "Abşeron" yataqlarından böyük həcmdə təbii qazın hasil edilərək dünya bazarına çıxarılması gözlənilir. Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatı 2,6 trilyon kubmetrdir ki, bu da uzun müddətdə qaz ixracının artırılmasına imkan verir. Bundan başqa, 2027-ci ilin sonunadək Azərbaycan "yaşıl enerji" layihələri çərçivəsində 1862 MVt külək və günəş elektrik enerjisi istehsal etməyi planlaşdırıb ki, bu da 1 milyard kubmetr "mavi yanacağa" qənaət etməyə imkan verəcək.

Bu gün Avropanın 4 ölkəsində - Macarıstan, Slovakiya, Çexiya, Avstriyada ciddi enerji problemi gözlənilir. Təsadüfi deyil ki, bu dövlətlərin başçıları Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını ifadə edirlər. Azərbaycan neft və təbii qaz ilə zəngin ölkə olduğu üçün Qərb dövlətlərinin bazarlarına çıxmaq niyyətindədir. Bu baxımdan 2023-cü ildə Prezident İlham Əliyevin Bosniya və Herseqovinaya, həmin ilin dekabrında Serbiyaya rəsmi səfərləri, cari ilin yanvarında Davos İqtisadi Forumunda Xorvatiyanın Baş naziri ilə görüşü qarşılıqlı əməkdaşlığın inkişafı üçün böyük əsaslar yaradıb.

2022-ci ildə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" Rumıniya ilə Azərbaycan arasında bərpaolunan mənbələrdən elektrik enerjisinin nəqli üçün Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsini nəzərdə tutur. Bu müqaviləyə əsasən, "Qara dəniz yaşıl kabel" layihəsi 1000 meqavat gücündə 1195 kilometr (1,1 min kilometr sualtı və 95 kilometr yerüstü) uzunluğunda sualtı elektrik kabelinin tikintisini hədəfləyir. Həmçinin bu anlaşma Qara dəniz hövzəsində milli və regional enerji təhlükəsizliyinin güclənməsi, təchizat mənbələrinin şaxələndirilməsi, Xəzərdə bərpaolunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsasını qoyacaq. Bütün bunlar Azərbaycanı Balkan yarımadası dövlətləri üçün etibarlı tərəfdaşa çevirib. Azərbaycan Balkanlarda yerləşən Şimali Makedoniya üçün də cəlbedici ölkədir. Oxşar tariximiz və inkişaf prosesləri, eyni zamanda Azərbaycanın karbohidrogen ehtiyatları dövlətlərimiz arasındakı əlaqələrin inkişafı zərurətini meydana çıxarıb.

Yuqoslaviyanın dağılması ilə 1990-cı ildə ilk dəfə olaraq Şimali Makedoniyada çoxpartiyalı sistem üzrə parlament seçkiləri keçirildi və yeni parlament ölkənin prezident və hökumətini seçdi.

Azərbaycan ilə Şimali Makedoniya arasında diplomatik münasibətlər 1995-ci ilin iyununda qurulub. Həmin ildə Azərbaycan Şimali Makedoniyanın müstəqilliyini tanıyıb. 2023-cü ildə Azərbaycanın Serbiyadakı səfiri, eyni zamanda Şimali Makedoniyaya təyin olunub. Azərbaycan Şimali Makedoniya ilə münasibətlərin inkişafına əhəmiyyət verir və iki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir.

Şimali Makedoniya Respublikasının keçmiş prezidenti Qeorqe İvanov 2015, 2016, 2017 və 2018-ci illərdə müxtəlif tədbirlərdə iştirak etmək üçün Azərbaycana işgüzar səfərlər edib. Həmin səfərlər zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən görüşlərdə regional əməkdaşlıq məsələləri müzakirə edilib. Azərbaycan idmançıları Şimali Makedoniyanın paytaxtı Skopye şəhərində beynəlxalq yarışlarda iştirak edərkən yüksək qonaqpərvərliklə qarşılanıblar. Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani 2023-cü ilin aprelində Bakıya işgüzar səfəri zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Qeyd etmək lazımdır ki, 2000-ci ildə Şimali Makedoniya və Azərbaycan parlamentlərarası işçi qrupu yaradıb və bu qrup hazırda uğurla fəaliyyət göstərir.

Cari ilin fevralında Almaniyada keçirilən Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın xarici içlər naziri Ceyhum Bayramov Şimali Makedoniyanın xarici işlər naziri Timko Muçunski arasında görüş olub. Bu görüşdə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin inkişafı perspektivləri müzakirə edilib. Görüş zamanı tərəflər iki ölkə arasında mövcud əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edərək, yüksəksəviyyəli səfərlərin, davamlı siyasi dialoqun və aidiyyəti qurumlararası təmasların intensivləşdirilməsinin yeni tərəfdaşlıq istiqamətlərinin müəyyən edilməsi və əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi baxımından önəmli olduğunu vurğulayıblar.

Nazirlər Azərbaycan və Şimali Makedoniya arasında iqtisadi-ticarət əlaqələrinin enerji, turizm və digər sahələrində inkişaf etdirilməsi üçün imkanların mövcudluğuna toxunublar.

Hazırda Azərbaycanda Şimali Makedoniya investisiyalı 5 kommersiya qurumu qeydiyyatdadır, onlardan 3-nün fəaliyyəti aktivdir. İki dövlət arasında imzalanan "Sərmayələrin təşviqi və qarşılıqlı qorunması" haqqında saziş də hazırda icra olunur.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynaması Avropa İttifaqı dövlətlərinin maraqlarını təmin edir.

Ölkəmizin bir çox qlobal neft və qaz layihələri Şimali Makedoniyanın da maraq dairəsindədir. Həmçinin Cənub Qaz Dəhlizi, Trans Anadolu Qaz kəməri (TANAP), Trans Adriatik Qaz kəməri (TAP) layihələrində Azərbaycanın əməkdaşlıq etdiyi ölkələrin bir çoxunun da Şimali Makedoniya ilə yaxın əlaqələri mövcuddur. Bakı ilə Skopye arasında əməkdaşlıq ölkəmizin Qərbdə xüsusilə daha da aktuallaşan enerji təhlükəsizliyi məsələsində güclənən mövqeyini və rolunu bir daha ifadə etmiş olur.

Bütün bunları nəzərə alaraq əminliklə söyləyə bilərik ki, Şimali Makedoniya Prezidenti Qordana Silyonovska-Davkovanın Azərbaycana rəsmi səfəri yaxın zamanlarda Bakı ilə Skopye arasında ikitərəfli münasibətlərin daha da inkişaf edəcəyini şərtləndirəcək.

# E.R.İbrahimovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Eldar Rza oğlu İbrahimov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2025-ci il*

# Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 11-ci, 13-cü və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838 (Cild I); 2024, № 3, maddə 247; Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 116-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.0.14-cü maddədə "təhlükə potensiallı" sözləri birinci halda "xüsusi riskli" sözləri ilə, ikinci halda "risk" sözü ilə əvəz edilsin;

1.2. 78-ci maddənin adında, 78.1-ci və 78.2-ci maddələrdə "Təhlükə potensiallı" sözləri "Xüsusi riskli" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 81 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci maddənin birinci hissəsinin dördüncü abzasına "uçulması," sözündən sonra "dağılması, zədələnməsi," sözləri əlavə edilsin;

2.2. 2-ci maddənin 1-ci və 3-cü hissələri aşağıdakı redaksiyada verilsin:

"1. Əhali və ətraf mühit üçün təhlükə yaradan (Əlavə 1-də göstərilən) təhlükəli maddələrin əldə olunması, hazırlanması, emalı, daşınması, istifadəsi və ləğvi ilə məşğul olan, həmçinin radioaktiv və ionlaşdırıcı şüa mənbələrinə, partlayış və digər qəza təhlükəli tikililərə, qurğulara və avadanlıqlara malik istehsal, təchizat, nəqliyyat və sosial təyinatlı obyektlər təhlükə potensiallı obyektlər hesab edilir.";

"3. Təhlükə potensiallı obyektlər vahid dövlət reyestrində qeydiyyata alınmalıdır. Təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

**Maddə 3.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 7, maddələr 747, 751, № 8, maddə 933; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanunu) 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 1-ci maddəsinə "dövlət" sözündən əvvəl "vahid" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2025-ci il*

# "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 3-cü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. aşağıdakı normativ hüquqi aktları iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.1. təhlükə potensiallı obyektlərin siyahısını;

2.1.2. təhlükə potensiallı obyektlərin vahid dövlət reyestrinin aparılması qaydasını;

2.2. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 2 fevral tarixli 269 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 84 (Cild I) 2-ci hissəsində "bu Qanunun 2-ci maddəsinin 2-ci və 3-cü hissələrində" sözləri "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsində və 3-cü hissəsinin ikinci cümləsində" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847 (Cild I); 2024, № 8, maddə 938) 1.6.20-ci və 1.6.21-ci yarımbəndlərində "təhlükə potensiallı" sözləri "xüsusi riskli" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 665, № 7, maddə 806, № 8, maddə 938; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli 327 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi"nə aşağıdakı məzmunda 3.0.17-1-ci yarımbənd əlavə edilsin:

"3.0.17-1. üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi çərçivəsində əmlakın satılmasına, icarəyə və ya idarəetməyə verilməsinədək əmlaka qulluqla əlaqədar tədbirləri və üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsini təşkil etmək, habelə əmlakın idarə edilməsi ilə bağlı rəy vermək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2025-ci il*

# “Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 61** **Bakı şəhəri, 6 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın 8.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292 (Cild I) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.2.15. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi";";

1.2. 3.2.2-ci yarımbənddə "Nazirliyi yanında" sözləri "Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2087 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə"nin 5.2-ci bəndinin ikinci cümləsində "Nazirliyi yanında" sözləri "Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 fevral tarixli 1223 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 167 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5-ci hissədən "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin işçilərinin say həddi 48 ştat vahidi," sözləri çıxarılsın;

4.2. 8-ci hissə ləğv edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturu"nun 4-cü hissəsi ləğv edilsin.

5. "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 90 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 958 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 13-cü hissəsinin "Göstərdiyi xidmətlər" sütununa aşağıdakı məzmunda 19-cu bənd əlavə edilsin:

"19. mülki aviasiya sahəsində beynəlxalq müqavilələrə uyğun olaraq sənədlərin verilməsi".

7. "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197) aşağıdakı dəyişikliklər edilsin:

7.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə 1 - "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı" üzrə:

7.1.1. 28-ci hissə ləğv edilsin;

7.1.2. aşağıdakı məzmunda 29.10-2-ci bənd əlavə edilsin:

"29.10-2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyinin İdarə Heyətinin sədri;";

7.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə 3 - "Mobil xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı" üzrə:

7.2.1. 27-ci hissə ləğv edilsin;

7.2.2. aşağıdakı məzmunda 29.2-1-ci bənd əlavə edilsin:

"29.2-1. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyinin İdarə Heyətinin sədri;".

8. "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1047 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) aşağıdakı dəyişikliklər edilsin:

8.1. həmin Fərmanla təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın 3.1-ci bəndində "yanında" sözü "tabeliyində" sözü ilə əvəz edilsin;

8.2. həmin Fərmanla təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın 4.2.4-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.2.4. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi";".

9. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 23 yanvar tarixli 289 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"na aşağıdakı məzmunda 17-3-cü hissə əlavə edilsin:

"17-3. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2025-ci il*

# “Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin tələbləri tətbiq edilməyən və ya məhdud tətbiq edilə bilən hallar, fəaliyyət sahələri və məhsullar”ın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 63** **Bakı şəhəri, 10 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.4.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin tələbləri tətbiq edilməyən və ya məhdud tətbiq edilə bilən hallar, fəaliyyət sahələri və məhsullar" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# ”Sazişlərin rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olması və ya ola bilməsinə dair meyarlar”ın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 64** **Bakı şəhəri, 10 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə"Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 yanvar tarixli 2451 nömrəli Fərmanının 2.4.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Sazişlərin rəqabəti məhdudlaşdıran nəticələrə səbəb olması və ya ola bilməsinə dair meyarlar" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilə görüşüb





Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstana rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Mixeil Kavelaşvili ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan Respublikası Milli Məclisinin Sədrini səmimiyyətlə salamlayan Gürcüstan Prezidenti bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə dost ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri haqqında fikir mübadiləsi aparılıb, möhkəm, tarixi əsaslara malik olan münasibətlərin dinamik inkişafından razılıq ifadə olunub.

Göstərilən yüksək səviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstan Prezidenti Mixeil Kavelaşviliyə çatdırıb.

Gürcüstan Prezidenti səmimi salamlarına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirərək, onun da salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib. Ölkələr arasında münasibətlərin inkişafında parlamentlərin xüsusi rolu qeyd olunaraq, iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin ruhuna uyğun olaraq genişlənməsindən məmnunluq ifadə edilib. Spiker Sahibə Qafarova dünən iki ölkənin parlamentləri arasında imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətini qeyd edərək, bu sənədin əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Söhbət zamanı beynəlxalq və regional formatda uğurlu əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib. Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ölkəsinə göstərilən dəstəyə görə Azərbaycana öz minnətdarlığını bildirib. Görüşdə, həmçinin ölkələrimizin üçtərəfli formatda da uğurlu əməkdaşlıq əlaqələrinin olduğu diqqətə çatdırılaraq, Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlıq formatının həm ölkələrimizə, həm də regiona qazandırdığı faydalar ifadə edilib.

Söhbət zamanı, həmçinin regionda vəziyyət barədə də fikir mübadiləsi aparılıb. Tərəflər regionda sülh və sabitliyin təmin olunmasının əhəmiyyətini vurğulayıblar.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan-Gürcüstan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir

Milli Məclisin Sədri Sahibə Qafarova martın 11-də Tbilisidə Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Azərbaycan Milli Məclisinin Sədrini səmimiyyətlə salamlayan Baş nazir İrakli Kobaxidze, dost və qonşu ölkələrimiz arasında təmasların, qarşılıqlı səfərlərin mütəmadi hal almasından məmnunluğunu bildirib. Baş nazir son bir il ərzində Azərbaycana üç səfər etdiyini xatırladıb və bu səfərlərlə bağlı müsbət təəssüratlarını bölüşüb.

O, Milli Məclis Sədrinin bu səfərinin də ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da genişlənəcəyinə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə Gürcüstan-Azərbaycan əlaqələrinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi qeyd edilərək, bu münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslandığı və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, ölkələrimiz arasında yüksək səviyyəli münasibətlər xalqlarımızın əsrlər boyu davam edən dostluq əlaqələrinə söykənir. Xalqlarımız həmişə mehriban qonşuluq, qardaşlıq şəraitində yaşayıblar və bu ənənələr bu gün də davam edir.

Göstərilən yüksək səviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirən spiker Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını və ən xoş arzularını Gürcüstanın Baş nazirinə çatdırıb.

Gürcüstanın Baş naziri səmimi fikirlərinə və salamlarına görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirərək, onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib. O, ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu inkişafının bir çox ölkələr üçün nümunə olduğunu söyləyib.

Söhbət zamanı qeyd olunub ki, ölkələrimiz arasında nümunəvi siyasi əlaqələr bütün digər sahələrdə, o cümlədən iqtisadi sferada uğurlu münasibətlərin təmin olunmasını şərtləndirib. Azərbaycan-Gürcüstan dostluğu və strateji tərəfdaşlığı böyük enerji və nəqliyyat layihələrinin həyata keçirilməsinə də imkan yaradıb ki, bu gün bu layihələr nəinki Cənubi Qafqazda, o cümlədən daha geniş regionda mühüm amilə çevrilib. Həmçinin mədəni-humanitar sahədə də həyata keçirilən əməkdaşlığın əhəmiyyəti qeyd edilib.

Spiker Sahibə Qafarova ölkələrimizin qanunverici orqanları arasında mövcud olan geniş əməkdaşlıq münasibətləri barədə Baş nazirə məlumat verərək deyib ki, bu, onun Milli Məclisin Sədri kimi bu ölkəyə ikinci rəsmi səfəridir. Eyni zamanda Gürcüstan parlamentinin sədri də Azərbaycana iki səfər edib. Bununla yanaşı, dostluq qruplarının üzvləri tərəfindən də qarşılıqlı səfərlər həyata keçirilir.

Həmçinin parlamentlərimiz ikitərəfli formatla yanaşı, üçtərəfli formatda da əməkdaşlıq edirlər. O, beynəlxalq təşkilatlarda da əməkdaşlığın daha da dərinləşdirilməsinin vacibliyini diqqətə çatdırıb. Söhbət zamanı parlamentlərimiz arasında imzalanan əməkdaşlıq haqqında memorandumun önəmi bir daha vurğulanıb və sənəd yeni yol xəritəsi kimi qitmətləndirilib.

Görüşdə regionda mövcud olan vəziyyət barədə də fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, regionun gələcək inkişafı üçün daimi sülh və sabitliyin təmin olunması vacibdir. Tərəflər həmçinin ikili standartların, ölkələrə qarşı təzyiq cəhdlərinin, ədalətsiz və qərəzli yanaşmaların yolverilməzliyini ifadə ediblər.

*"Azərbaycan"*

# Baş nazirin müavini Samir Şərifov İspaniyanın ticarət üzrə dövlət katibi ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifov martın 11-də İspaniya Krallığının İqtisadiyyat, Ticarət və Biznes Nazirliyinin ticarət üzrə dövlət katibi Mariya Amparo Lopes Senovilya ilə görüşüb.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında Strateji İqtisadi Dialoqun birinci iclasının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin Azərbaycan-İspaniya biznes forumunun və Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə İspaniyanın İqtisadiyyat, Ticarət və Biznes Nazirliyi arasında "Strateji İqtisadi Əməkdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanmasının iqtisadi əlaqələrin gücləndirilməsinə təkan verəcəyinə ümidvarlıq ifadə olunub.

S.Şərifov ötən ilin noyabrında COP29 çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İspaniya Krallığı Hökumətinin Sədri Pedro Sançez arasında keçirilmiş görüşün ikitərəfli əlaqələrin genişləndirilməsi və yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi baxımından önəmini vurğulayıb.

# Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycanın xarici işlər nazirini qəbul edib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qazaxıstana rəsmi səfəri çərçivəsində martın 11-də Prezident Kasım-Jomart Tokayev tərəfindən qəbul edilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə nazir Ceyhun Bayramov ötən ilin dekabrında "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar göstərilən operativ və hərtərəfli dəstəyə görə Qazaxıstanın dövlət başçısına minnətdarlığını ifadə edib.

Xalqlarımız arasında tarixi qardaşlıq, birgə adət-ənənə, mədəniyyət və dil ortaqlıqları, eləcə də dövlət başçılarımız arasında qarşılıqlı hörmət və etimada əsaslanan açıq, səmimi münasibətlər fonunda Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlıq əlaqələrinin nümunəvi xarakter daşıdığı bildirilib. Ölkələrimiz arasında siyasi-iqtisadi, ticarət-investisiya, sənaye-texnologiya, nəqliyyat-kommunikasiya, mədəniyyət-humanitar, elm-təhsil və digər sahələr üzrə zəngin əməkdaşlığın yeni hərəkətverici elementlərlə daha da intensivlik qazanmasının əhəmiyyəti vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı dəstək, həmrəylik və birgə təşəbbüslərə əsaslanan əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib.

Ötən ilin noyabrında Azərbaycanın uğurla ev sahibliyi etdiyi COP29-da Qazaxıstan dövlət başçısının iştirakına görə təşəkkür ifadə olunub, rəsmi Astananın ölkəmiz tərəfindən irəli sürülmüş təşəbbüslərə qoşulması yüksək qiymətləndirilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, eləcə də postmünaqişə dövründə regional vəziyyət və son inkişaflar ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın və Qazaxıstanın Xarici İşlər nazirlikləri arasında 2025-2026-cı illər üzrə fəaliyyət planı imzalanıb

Martın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qazaxıstana rəsmi səfəri çərçivəsində bu ölkənin Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazirlər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib. Geniştərkibli görüş zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətləri, ikitərəfli və çoxtərəfli əməkdaşlığın perspektivləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Tərəflər Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluqlarını bildirib, ölkələrimiz arasında ali və yüksəksəviyyəli təmas və səfərlərin əməkdaşlığın inkişafına xidmət etdiyi vurğulanıb. Ötən il Azərbaycan Prezidentinin Qazaxıstana iki, Qazaxıstan Prezidentinin isə ölkəmizə üç səfərinin ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğu bildirilib.

İki ölkə arasında müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat, kommunikasiyalar, humanitar və s. istiqamətlər üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov qardaş ölkələr, o cümlədən Mərkəzi Asiya ölkələri və Qazaxıstanla əlaqələrin bütün sahələrdə gücləndirilməsinin xarici siyasətimizin əsas prioritetlərindən olduğunu qeyd edib.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Əməkdaşlıq və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti qeyd olunub, habelə qarşılıqlı maraq doğura biləcək yeni tərəfdaşlıq istiqamətlərinin müəyyən edilməsi barədə fikir mübadiləsi aparılıb.

Xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində müxtəlif sahələr üzrə təşəbbüslərin irəli sürülməsinin, ali və yüksək səviyyədə toplantıların keçirilməsinin, əhəmiyyətli qərarların qəbulunun, habelə təşkilatın beynəlxalq arenada nüfuzunun gücləndirilməsi və institusionallaşması istiqamətində əməkdaşlığımızın təqdirəlayiq olduğu bildirilib.

Beynəlxalq platformalardan bəhs edərkən, ötən ilin noyabrında Azərbaycanın uğurla ev sahibliyi etdiyi COP29-da Qazaxıstanın ən yüksək səviyyədə təmsil olunmasının, tədbirin işində yaxından iştirakının və ölkəmiz tərəfindən irəli sürülmüş təşəbbüslərə qoşulmasının yüksək qiymətləndirildiyi vurğulanıb.

Nəqliyyat-kommunikasiya istiqamətlərinə gəlincə, Orta Dəhlizin ayrılmaz komponenti olan Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu çərçivəsində əməkdaşlığın genişləndirilməsinin, habelə "Rəqəmsal İpək Yolu" layihəsinin əsas hissəsi olan Bakı ilə Aktau arasında inşası planlaşdırılan "Xəzər dənizinin dibi ilə fiber-optik kabel magistralı" layihəsinin Azərbaycan-Qazaxıstan əməkdaşlığının daha dinamik xarakter almasına xidmət edəcəyinə əminlik ifadə olunub.

Qarşı tərəf, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, minatəmizləmə fəaliyyəti, habelə Azərbaycan-Ermənistan normallaşma prosesinin hazırkı durumu barədə məlumatlandırılıb.

İşğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşa edilməsi minnətdarlıq hissi ilə vurğulanıb.

Qazaxıstan tərəfinin sülh prosesinə göstərdiyi davamlı dəstək yüksək qiymətləndirilib, Azərbaycan ilə Ermənistan arasında sülh sazişi layihəsi üzrə ikitərəfli danışıqlar prosesi çərçivəsində qazanılan nailiyyətə baxmayaraq, Ermənistan konstitusiyası və bir sıra qanunvericilik aktlarında ölkəmiz əleyhinə ərazi iddialarının davam etdirilməsinin, Minsk qrupunun saxlanması ilə bağlı Ermənistan tərəfinin mövqeyinin fundamental problem olaraq qaldığı diqqətə çatdırılıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda nazirlər Xarici İşlər nazirlikləri arasında 2025-2026-cı illər üzrə fəaliyyət planını imzalayıblar.

Daha sonra nazirlər görüşün yekunlarına dair mətbuat konfransında bəyanatlarla çıxış ediblər.

# Azərbaycanın AQEM-ə sədrliyindən irəli gələn məsələlər və əməkdaşlığın genişləndirilməsi səyləri müzakirə olunub

Martın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qazaxıstana rəsmi səfəri çərçivəsində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay və AQEM-ə üzv dövlətlərin səfirləri ilə görüş keçirib.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanın AQEM-ə sədrliyindən irəli gələn məsələlər və sədrliyin prioritetləri, AQEM çərçivəsində müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin AQEM sədrliyinin əsas prioritetlərindən bəhs edib, bu istiqamətdə xüsusilə AQEM-ə üzv ölkələrin yerləşdikləri mühüm coğrafi mövqeni nəzərə alaraq, nəqliyyat və kommunikasiyalar sahələri üzrə əməkdaşlığın inkişaf etdirilməsinin geniş perspektivlərinin olduğunu bildirib. Sədrliyimizin, eyni zamanda AQEM-in institusionallaşması, fəaliyyət imkanlarının genişləndirilməsinə kökləndiyini bildirən nazir Ceyhun Bayramov bu xüsusda AQEM-in yeni qərargahının Müşavirənin işinin daha da təkmilləşdirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Söhbət zamanı regionumuzda və dünyamızda baş verən proseslərin AQEM-in bölgədə inklüziv platforma kimi rolu və çəkisini artırdığı diqqətə çatdırılıb, bu istiqamətdə sədrliyimiz müddətində göstərilən təşəbbüs və səylərin bütün üzv dövlətlər tərəfindən dəstəklənməsinin, AQEM çərçivəsində fəal iştirakçılığın vacibliyi vurğulanıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## 12 Mart Azərbaycan Respublikasının Daxili Qoşunları Günüdür

# Dövlətçiliyin və təhlükəsizliyin etibarlı keşiyində

12 Mart Azərbaycan Respublikasının Daxili Qoşunları Günüdür. Qeyd edək ki, 1992-ci ilin 12 mart tarixində müstəqil respublikamızın Daxili Qoşunlarının bölmələri ilk dəfə olaraq erməni işğalçılarına qarşı döyüşlərə başlayıblar. Xalqımızın Ulu Öndəri Heydər Əliyevin 1995-ci il martın 9-da imzaladığı fərmanla bu tarix Azərbaycan Respublikasının Daxili Qoşunları Günü elan edilib.

### Peşəkarlıq və döyüş hazırlığı hər zaman yüksək səviyyədədir

Müstəqillik illərində Daxili Qoşunların Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müstəqil struktur hissəsi kimi yaranması və formalaşması ölkəmizin çox çətin, qarışıq bir dövrünə təsadüf etsə də, onun şəxsi heyəti Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıq nümunələri göstərmişdir. İlk dəfə 1992-ci il martın 12-də erməni işğalçılarına qarşı hərbi əməliyyatlara başlayan Daxili Qoşunların hərbi hissələri ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına döyüşüblər. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların hərbi qulluqçularından 682 nəfər şəhid olub, 1179 nəfər yaralanıb, 4 nəfər itkin düşüb. 9 hərbçi Azərbaycanın Milli Qəhrəmanı (8-i ölümündən sonra) fəxri adına layiq görülüb. Daxili Qoşunların Azərbaycan xalqına, dövlətinə və dövlətçiliyinə sədaqətlə xidmət etməsi, fədakarlığı Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin diqqətindən kənarda qalmayıb və bir çox hərbi qulluqçu ali dövlət orden və medalları ilə təltif olunub.

Yarandığı gündən dövlətin təhlükəsizliyinin qorunması naminə əzmkarlıq göstərən Daxili Qoşunların inkişaf və yüksəliş yolunun təməli isə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin respublikamıza rəhbərliyə başlamasından sonra qoyulub. Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində Daxili Qoşunlar müasir maddi-texniki bazaya, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilib. Daxili Qoşunların xidməti fəaliyyəti ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasına, silahlı cinayətkarların zərərsizləşdirilməsinə, mühüm dövlət obyektlərinin mühafizəsinə yönəlib, onun təyinatından irəli gələn vəzifələrin icrası ilə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilib, xarici ölkələrin müvafiq qurumları ilə hərbi əməkdaşlıq əlaqələri qurulub, geniş quruculuq işləri aparılıb, Daxili Qoşunların tərkibində Hərbi İnstitut, təlim mərkəzləri, helikopter eskadrilyası yaradılıb.

Ötən dövrdə Prezident İlham Əliyevin xüsusi diqqəti və nəzarəti altında respublikamızın Silahlı Qüvvələrində həyata keçirilən modernləşmə DİN Daxili Qoşunlarını da əhatə edib. Bunun sayəsində Azərbaycanın Daxili Qoşunları qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşmə kimi peşəkarlığını və hərbi hazırlığını daha da artırıb. Bütün hərbi hissə və bölmələr döyüş hazırlığına və maddi-texniki bazasına görə dünyanın qabaqcıl ölkələrinin müvafiq qurumları ilə müqayisə edilə bilən səviyyəyə yüksəlib.




Respublikamızda həyata keçirilən dövlət əhəmiyyətli tədbirlərdə, habelə beynəlxalq yarışlarda ictimai asayişin mühafizəsi və təhlükəsizliyin qorunmasının təmin olunmasında Daxili Qoşunların şəxsi heyəti də fəal iştirak edib. Belə ki, "Avroviziya-2012" Mahnı Müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları zamanında ictimai asayişin mühafizəsində və təhlükəsizliyin təmin olunmasında Daxili Qoşunlar peşəkar xidmət həyata keçirib.

### Vətən müharibəsi və antiterror tədbirləri Daxili Qoşunların yeni qəhrəmanlıq səhifələri oldu

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində isə ilk saatlardan döyüşə atılan Daxili Qoşunların hərbi qulluqçuları Ali Baş Komandanın müsəlləh əsgərləri kimi torpaqlarımızın azad edilməsinə, erməni işğalçıları üzərində şanlı Zəfərin qazanılmasına mühüm töhfələr verdilər. Ən ağır döyüşlərdə, ən çətin əməliyyatlarda, o cümlədən Şuşanın azad edilməsində iştirak edən Daxili Qoşunların hərbçiləri öz peşəkarlıqları və vətənpərvərlikləri ilə Vətən müharibəsinin möhtəşəm qəhrəmanlıq nümunələrini yaratdılar. Cəbhənin bütün istiqamətlərində düşmənə qarşı igidliklə vuruşaraq, torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetirdilər, yüksək vətənpərvərlik, peşəkarlıq və müasir döyüşaparma qabiliyyəti nümayiş etdirərək, "dəmir yumruq"la işğalçının başını əzdilər.

44 gün davam edən Vətən savaşında Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhidlik məqamına ucaldı, 346 nəfər hərbi qulluqçu yaralandı. Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə respublikamızın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiklərinə görə Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusu - polkovnik Zəfər Yusibov, polkovnik Füzuli İmrəliyev, polkovnik-leytenant Nicad Bədəlov və mayor Şixamir Qaflanova (ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

19-20 sentyabr 2023-cü ildə Qarabağda Ermənistan ordusunun bölmələrinə və separatçılara qarşı keçirilən antiterror tədbirlərində də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbçiləri böyük qəhrəmanlıqlar göstərdilər. Ərazilərimizdəki erməni separatizminə son qoyulması ilə başa çatan antiterror tədbirlərində Daxili Qoşunların şəxsi heyətindən 12 nəfər şəhid oldu, 24 nəfər yaralandı.

Həm 44 günlük müharibədə, həm antiterror tədbirlərində qazanılan zəfərlər Daxili Qoşunların döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təcəssümü oldu. Qoşunların zabitlərinin, gizirlərinin və əsgərlərinin yaratdıqları qəhrəmanlıq salnamələri hər zaman bu qurumun fəaliyyətinin istinad mənbələri olacaq.

44 günlük savaşdan və antiterror tədbirlərindən sonra Daxili Qoşunların fəaliyyətində yeni şərəfli missiya başlayıb. Belə ki, hazırda işğaldan azad edilmiş ərazilərdə ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasında, mühüm əhəmiyyətli obyektlərin mühafizəsində, Böyük qayıdış proqramının uğurla reallaşmasında, Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsində Daxili İşlər Nazirliyinin strukturlarından biri kimi Daxili Qoşunlar şərəfli xidmət həyata keçirir.

Azərbaycan Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yarandığı gündən çətin və şərəfli yol keçib. Torpaqlarımızın azad olunmasında qəhrəmanlıq göstərən, qarşısında dayanan bütün vəzifələri layiqincə yerinə yetirən Daxili Qoşunlar hər zaman dövlətə və xalqa şərəflə xidmət edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***








# "Yaşıl enerji" ixracı ölkəmizə nə vəd edir

## Ekoloji təmiz enerjiyə keçidin sürətlənməsini, etibarlı tərəfdaş imicimizin möhkəmlənməsini və nəhayət, valyuta ehtiyatlarımızın artırılmasını

Azərbaycan özünün "yaşıl enerji" hədəflərinə doğru inamla addımlayır. Prezident İlham Əliyevin "yaşıl enerji" zonası elan etdiyi işğaldan azad olunmuş ərazilərimizdə və Naxçıvan MR-də uğurlu layihələr həyata keçirilməkdədir. Bununla yanaşı, paytaxtımız, ölkəmizin bir sıra digər bölgələri də günəş, külək, su-elektrik stansiyaları layihələrinin gerçəkləşdiyi məkanlardır.

Ölkəmiz "yaşıl enerji"nin ixracatçısına çevrilməyi də qarşıya məqsəd qoyub. Bununla bağlı dövlət başçısı belə deyib: "Biz həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, bizə Avropaya "yaşıl enerji"ni ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır".

Beləliklə, "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"lə bağlı məsələlər daim diqqət mərkəzindədir. İmzalandığı tarixdən - 2022-ci il dekabrın 17-dən bəri sazişin icrası məqsədilə Nazirlər/Rəhbər Komitənin 10 iclası keçirilib.

Sonuncu iclas bu günlərdə Macarıstanın paytaxtı Budapeşt şəhərində baş tutub. Tədbirdə Azərbaycanın bərpaolunan enerji potensialının inkişafı, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə irəliləyişlər və perspektivlər nəzərdən keçirilib. "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti"nin (GECO) fəaliyyəti, Bolqarıstanın layihəyə cəlbi, CESI (İtaliya şirkətidir, enerji, texnologiya və innovasiya üzrə dünyada aparıcı məsləhətçi şirkətlərdən biridir) tərəfindən həyata keçirilən texniki-iqtisadi əsaslandırmanın (TİƏ) cari vəziyyəti, layihənin maliyyələşdirilməsi üzrə Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib.

Tədbirdə iştirak edən energetika naziri Pərviz Şahbazov bildirib ki, Xəzər dənizinin Azərbaycan seqmentində müəyyən edilmiş 4 sahədə külək enerjisi üzrə bir sıra beynəlxalq şirkətlərlə müvafiq müqavilə sənədləri üzərində işlər aparılır və bu razılaşmalar "yaşıl hidrogen"in inkişafı ilə bağlı planları da dəstəkləyəcək. Layihənin istehsal və ötürmə komponentləri, eləcə də biznes modelləri, Xəzər dənizinin potensial "yaşıl enerji" həcmlərinin regionda paylanması ilə bağlı tədqiqatlara dair tövsiyələri diqqətə çatdırılıb. GECO və CESI ilə sıx koordinasiya şəraitində işçi qrupunda iki iş axınının yaradılması təklif edilib. Belə ki, birinci axın layihənin iş modellərinə fokuslanaraq potensial investorlar və alıcılarla əlaqə qurulması üçün hazırlıq işlərini apara bilər. İkinci axın isə texniki detalları, ENTSO-E və digər müvafiq qurumların tələblərinə uyğunluğu nəzərdən keçirər. Həmçinin diqqətə çatdırılıb ki, layihənin fiber-optik komponentinin TİƏ ilə bağlı iş həcminə daxil edilməsi üçün də qəti addımlar atılmalıdır.

Müzakirələrdən sonra dörd ölkənin nazirləri tərəfindən iclasın yekunlarına dair protokol



və Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın Aİ-nin enerji məsələləri üzrə komissarına birgə məktubu imzalanıb. Məktub "Xəzər-Qara Dəniz Yaşıl Enerji Dəhlizi" layihəsinə Ortaq Maraqlar Layihəsi (PMI) statusunun verilməsinə müvafiq dəstəyi təmin etmək məqsədi daşıyır.

Aİ-nin layihənin On İllik Şəbəkə İnkişafı Planına (TYNDP) daxil edilməsi üçün 2025-ci il aprelin 1-dən mayın 9-a qədər müvafiq müraciətin ötürücü sistem operatoru kimi "Transelectrica" tərəfindən, ümumi prosesə nəzarətin isə GECO ilə birgə həyata keçirilməsi razılaşdırılıb. Həmçinin Bolqarıstanın hökumətlərarası sazişə qoşulma prosedurunun başlanması barədə razılığa gəlinib. Birgə müəssisəyə Bolqarıstanın layihəyə qoşulması və fiber-optik kabel (FOC) komponentlə əlaqədar məsələlərin TİƏ-nin iş həcmində nəzərə alınması üçün müvafiq səlahiyyətlər verilib. Energetika Nazirliyi ilə CESI şirkəti arasındakı müqavilə üzrə əsas səlahiyyət və öhdəliklərin GECO-ya ötürülməsi məqsədilə müvafiq sənəd imzalanıb.

Qeyd edək ki, Azərbaycanın cəlb olunduğu layihə Xəzər dənizini, Qara dənizi və Avropanı birləşdirən genişmiqyaslı "yaşıl enerji" istehsalı və ixracını nəzərdə tutan təşəbbüsdür. Bunun bir hissəsi Rumıniya ilə Gürcüstan arasında uzanan "Black Sea Cable" layihəsi adlanır. Lakin Azərbaycanın üzərində çalışdığı layihə daha genişdir və "yaşıl enerji"nin Azərbaycandan Avropaya qədər ötürülməsini əhatə edir. Ötən dövrdə bu sahədə də əhəmiyyətli irəliləyişlər əldə olunub.

Məlum olduğu kimi, ümumiyyətlə, bazarda "yaşıl enerji"yə olan tələbat Avropada da sürətlə artır. Odur ki, CESI şirkəti hazırda Avropada "yaşıl enerji"yə olan tələbatı, istehsalın bölgüsünü, Xəzər dənizinin dibindən keçən kəmərin tutumunu, tutumun ölkələr arasında bölgüsünü və enerjinin axın istiqamətlərini öyrənir.

Bundan əlavə, COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistanın dövlət başçıları tərəfindən imzalanmış "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" Mərkəzi Asiya ölkələrində istehsal olunan enerjinin ölkəmizə və buradan da Avropaya ixrac imkanlarını gerçəkləşdirəcək.

Bir neçə gün əvvəl Belçikanın Brüssel şəhərində Slovakiyanın üzləşdiyi qaz təchizatı problemi ilə bağlı Avropa Komissiyası və Slovakiya arasında yaradılmış İşçi qrupunun ilk iclasında da "yaşıl enerji" dəhlizləri barədə geniş söhbət gedib. Azərbaycan orada energetika nazirinin müavini Orxan Zeynalovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Avropa Komissiyası və Slovakiya Azərbaycanın enerji sahəsində etibarlı tərəfdaş kimi strateji əhəmiyyətini bir daha vurğulayıblar. Həm təbii qazın tədarükü, həm də "yaşıl enerji" sahəsində əməkdaşlığın inkişafı üçün qarşılıqlı fəaliyyət və dəstəyə hazırlıq ifadə edilib.

İclasda bərpaolunan enerjidən istifadənin inkişafı və ixrac planları haqqında məlumat verilib, "Xəzər-Qara dəniz-Avropa", "Azərbaycan-Mərkəzi Asiya-Avropa", "Azərbaycan-Türkiyə-Avropa" və "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan" "yaşıl enerji" interkonnektor layihələrinin reallaşdırılması istiqamətində görülən işlər diqqətə çatdırılıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Konstitusiya və Suverenlik İli 2025

**30 il əvvəl xalqımız Azərbaycan Respublikası Konstitusiyasının timsalında dünyanın ən demokratik, tarixi reallıqlara uyğun, insana dəyəri bütün prinsiplərin mərkəzində saxlayan konstitusiyalarından birini qəbul etmişdir. Əsas Qanunumuz müstəqilliyimizin ilk illərindəki tarixi proseslərə uyğun şəkildə yüksək həssaslıqla hazırlandığından və zaman-zaman təkmilləşdirildiyindən özünün müasirliyi, hüquqi əsaslılığı, ən mühümü isə sosialyönümlülük prinsipləri ilə seçilir.**



# Yeni strateji hədəflər qarşısında

Prezident İlham Əliyevin 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" haqqında sərəncamında deyilir: "Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır".

Müasir inkişaf standartlarına uyğun sivil cəmiyyət, demokratik dövlət quruculuğu müvafiq hüquqi baza tələb edir. Bu hüquqi bazanın əsasını isə Konstitusiya təşkil edir. Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra diqqət yetirdiyi ən mühüm məsələlərdən biri müstəqil dövlətin Konstitusiyasını yaratmaq idi. Qarşıda duran vəzifə son dərəcə məsuliyyətli olduğu üçün Əsas Qanun layihəsini hazırlamaq məqsədilə yaradılmış Dövlət Komissiyasına rəhbərliyi Heydər Əliyev öz üzərinə götürmüşdür.

### Konstitusiya təcrübəsi tarixindən

Azərbaycan Respublikasında dövlətçiliyin inkişaf mərhələlərinə uyğun olaraq müxtəlif tarixi dövrlərdə bir çox konstitusiya qəbul edilmişdir. Azərbaycanın 1921-ci, 1925-ci, 1937-ci, 1978-ci il konstitusiyalarında hakim partiyanın ideoloji xətti açıq duyulur, oxşar ideyanın varisliyi saxlanılırdı. Onlarda totalitar sistemə məxsus olan xüsusiyyətlər öz əksini daha çox tapırdı.

İlk üç - 1921-ci, 1925-ci, 1937-ci il konstitusiyalarında hakimiyyətin təşkili prinsipləri dəyişməz qalırdı. Keçid dövründə hakimiyyətin proletariata məxsusluğu təsbit edilir və bu, proletariat diktaturası kimi icra olunurdu. Sovetlər isə yerli özünüidarə, həm də dövlət hakimiyyəti orqanı sayılırdı. Təbii ki, proletar diktaturası ideyası ona görə nəzəriyyə şəklinə salınmışdı ki, birpartiyalı totalitar sistem ört-basdır edilsin. Bolşevik dövlətinin mövcudluğu dövründə, əslində, bir hakimiyyət forması var idi, bu da bütün ölkədə mərkəziyyət prinsipi ilə qurulmuş yeganə partiyanın hakimiyyəti idi.

1978-ci il Konstitusiyasında isə əsas müddəalardan birincisi dövlətin ümumxalq dövlətinə çevrilməsi idi. Bu da, əslində, gözdən pərdə asmaq üçün irəli sürülmüş bir tezis idi. Çünki əməldə dövlət idarəçiliyi əvvəlki kimi partiya funksionerlərinin əlində idi. Bir sözlə, sovet dövründə qəbul edilən konstitusiyaların hamısı ideoloji xarakter daşıyırdı. Bu sənədlər dövlət hakimiyyətinin hüquqi prinsiplərini müəyyən etmək əvəzinə Sov.İKP-nin hakimiyyətinin müxtəlif nəzəriyyələrlə izah edilməsi ilə seçilirdi.

1978-ci il Konstitusiyasında bizim üçün bir cəhət - Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili olması haqqında müddəanın təsbit olunması xüsusi vurğulanmalıdır. Həmin müddəa o zaman uzaqgörən siyasətçi Heydər Əliyevin təşəbbüsü nəticəsində Konstitusiyaya salınmışdı. Bunun dövlət quruculuğu, yeni nəslin vətənpərvərlik tərbiyəsi, ana dilinin geniş şəkildə işlədilməsi baxımından böyük əhəmiyyəti var idi. Hələ 1977-ci ildə yeni sovet Konstitusiyası qəbul edilərkən Ulu Öndər Azərbaycanın yazılacaq növbəti Əsas Qanununun xalqımızın milli xüsusiyyətlərini və maraqlarını dolğun əks etdirməsi üçün tədbirlər barədə düşünürdü. Lakin o zaman Moskvada böyük narazılıqlar yarandı. Bəhanə o idi ki, başqa respublikaların konstitusiyalarında və layihələrində belə müddəa yoxdur. O zaman Heydər Əliyev Moskvadakı partiya funksionerləri ilə ciddi danışıqlara başladı və belə bir fikri əsaslandırdı ki, Azərbaycanın Konstitusiyasında bu maddə hökmən olmalıdır. Əks təqdirdə respublikada narazılıqlar başlaya bilər.

Azərbaycanın 1978-ci il Konstitusiya layihəsi Moskvada bir neçə dəfə müzakirə edildi, müxtəlif və ziddiyyətli fikirlər söyləniidi. Bütün bunlara baxmayaraq, müdrik rəhbərimizin iradəsi ilə layihədəki maddə 1978-ci ilin aprelində qəbul edilən Konstitusiyanın 73-cü maddəsində öz təsdiqini tapdı. Bu, böyük qələbə, xalqın mənəvi sərvəti olan ana dilinin qorunması tarixində xüsusi əhəmiyyətə malik idi.

1978-ci il Konstitusiyası 1995-ci ilə qədər qüvvədə oldu və keçid dövrü ərzində ona çoxsaylı dəyişikliklər edilsə də, sənəd həyatdakı gerçəklikləri, müstəqilliklə bağlı yaranan ciddi problemləri, bir sözlə, dövlətin yeni xarakterini əks etdirmirdi.

Dövlətin əsas vəzifəsi cəmiyyətdəki sosial, iqtisadi, siyasi münasibətlərin qanunlara ciddi əməl etmək əsasında tənzimlənməsi, tənəzzülün qarşısını almaq, tərəqqini təmin etməkdir. Keçmiş respublika rəhbərlərinin dövründə sözdə millətin tərəqqisindən, müstəqil dövlətin möhkəmləndirilməsindən, xalqın xoşbəxt sabahından, iqtisadiyyatımızın inkişafından danışırdılar, əməldə isə dövlət dağılır, zəifləyir, cəbhədə vəziyyət pisləşirdi. Prosesin əsl konstitusion səbəblərini anlamayan müxalifət rejimin ağır böhranını mifik düşmən axtarışında görürdü.

1993-cü ilin iyun böhranı, Gəncədə qardaş qanının tökülməsi və faciəli hadisələrin baş verməsi yenicə formalaşan Milli Ordunun da parçalanmasına, mövcud hərbi qanunların əksinə olaraq totalitar qrupların görünməsinə səbəb oldu. Öz dar düşüncələri daxilində dövləti möhkəmləndirmək iddiasında və arzusunda olan həmin dövrün üzdəniraq siyasətçiləri özləri də anlamadan qanunları inkar edərək hakimiyyəti dağıdırdılar. Azərbaycanı xilas etmək, vətəndaş müharibəsini dayandırmaq, müstəqilliyi qorumaq üçün möhkəm iradə, cəsarət və zəngin quruculuq təcrübəsi lazım idi. Vəziyyətin son dərəcə ağırlığını görən Azərbaycanın tanınmış ziyalıları böhran başlayan kimi Naxçıvana gedib Ümummilli Lider Heydər Əliyevi təkidlə Bakıya dəvət etməyə çağırdılar. Həmin dövrdə Heydər Əliyevin hakimiyyətə gəlişi böyük bir hərəkata çevrilmişdi. Və nəhayət, xalqın təkidli tələbləri ilə böyük dövlət xadimi Azərbaycanın xilası naminə buna razılıq verdi.

Qısa vaxtda vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, cəbhədə atəşkəş elan olundu. Siyasi sabitlik yaranan kimi dövlətimizin başçısı yeni milli Konstitusiyanın qəbul edilməsini qarşıya məqsəd qoydu. Bu, tarixi məsuliyyət və şərəfli bir iş idi.

1995-ci il noyabrın 12-də xalq, cəmiyyətin bütün təbəqələri yeni Konstitusiyanın qəbulu ilə bağlı ümumxalq səsverməsini böyük bayram kimi keçirdi. Hamı sənədin əhəmiyyətini anlayır, dövlətçilik tariximizdə yeni və şanlı səhifənin açıldığını dərk edirdi. Bu Konstitusiya dövlətçilik ənənələrinin, xalqımızın keçdiyi tarixi inkişaf yolunun məntiqli nəticəsi idi. Hələ 1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən özünün demokratik dəyərlərə, insan hüquq və azadlıqlarına sadiqliyini bəyan etmişdi. Azərbaycanın ilk demokratik Konstitusiyası xalqımızın müstəqil, azad dövlət qurmaq və dünya birliyində layiqli yer tutmaq istəyini, sülhə, tərəqqiyə, bəşəriyyətin sivil inkişafına öz töhfəsini bəxş etmək əzmini və iradəsini nümayiş etdirdi.

### Dünyanın ən mükəmməl əsas qanunlarından biri

Konstitusiyanın əsas fəsli insan hüquqlarına həsr edilmişdir. Bu hüquq və azadlıqlar hamılıqla qəbul olunmuş və sənədlərdə təsbit edilmiş beynəlxalq standartlara cavab verir, bir sıra hallarda isə geniş şəkildə öz ifadəsini tapır. Sovetlər Birliyi zamanında insan hüquqları ciddi formada məhdudlaşdırılmışdı. 1995-ci il Konstitusiyasında isə hüquq problemlərinin bünövrəsi kimi insanların, fərdlərin hüquqları əsas götürüldü. Onun mükəmməlliyini, ilk növbədə insan hüquqlarının əhatəliliyini göstərdi. Azərbaycan Konstitusiyasında insan hüquq və azadlıqları çox geniş şəkildə təsbit edilib, sosial, iqtisadi və siyasi hüquqlara bərabər dərəcədə yer ayrılıb.

Əsas Qanunumuz sosial dövlət prinsipinə əsaslanır. Ona görə də Azərbaycan Konstitusiyası vətəndaşların rifahına yönəlib və onların sosial təminat hüquqlarını açıq şəkildə tanıyır. Demokratik idarəçilik modeli də burada mükəmməl şəkildə öz ifadəsini tapıb. Dövlət idarəçiliyinin demokratik prinsiplərə əsaslanması, vətəndaşların seçki hüquqlarının qorunması sənəddə ön planda saxlanılır.

Konstitusiyanın ikinci fəslinin 12-ci maddəsində dövlətin ali məqsədinin insan hüquq və azadlıqlarının qorunması, onlara riayət edilməsi və həyata keçirilməsindən ibarət olduğu vurğulanır. Hər bir insanın ləyaqətinin toxunulmaz sayıldığı və dövlətin bu ləyaqətin qorunmasına cavabdehliyi qeyd edilir. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir. Üçüncü fəslin 25-ci maddəsində hamının qanun və məhkəmə qarşısında bərabərliyi əksini tapıb. Kişi ilə qadının eyni hüquqlarının və azadlıqlarının olduğu göstərilib. Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Faktiki olaraq Əsas Qanunda müəyyən edilmiş bütün hüquq və azadlıqlar bu və ya digər formada həm Konstitusiya, həm də başqa qanun və qanunvericilik aktları ilə təmin olunur. Konstitusiya hüquqlarının təminatı isə sistemli və kompleks xarakter daşıyır.

İnsan hüquqları bəşəriyyətin inkişafının ən fundamental dəyərlərindən biridir. Demokratiya, inkişaf və insan hüquq və azadlıqlarının təmin edilməsi bir-biri ilə bağlı olan, bir-birini tamamlayan amillərdir.

1995-ci il Konstitusiyası Azərbaycan vətəndaşının təqsirsizlik prizumpsiyasını bəyan edir. Bu o deməkdir ki, heç kəs günahı məhkəmə tərəfindən sübuta yetirilmədən təqsirkar sayıla bilməz. Konstitusiyada verilən mühüm hüquqlardan biri də insanların müdafiə olunmaq hüququdur. Sovet ədliyyə sistemində bu, çox məhdud şəkildə tətbiq olunurdu. Amma bugünkü Konstitusiyamız hər kəsin barəsində cinayət işi qaldırıldığı andan müdafiəçinin köməyindən istifadə hüququnu təsdiqləyir.

Sovet hüquq sisteminin ən aşağılayıcı prinsiplərindən biri də yaxın qohumlardan bir-birinin əleyhinə ifadə alınıb dəlil kimi istifadə edilməsi idi. Lakin demokratik Konstitusiyamızda özünə, uşaqlarına, həyat yoldaşına, valideynlərinə, qardaş və bacılarına qarşı insanların ifadə verməyə məcbur edilməsi yolverilməz elan olunur.

Əsas Qanunumuzda vahid şəkildə təsbit olunmuş hüquqlar sırasında xüsusi mülkiyyət və azad sahibkarlıq ayrıca yer tutur. Mülkiyyət toxunulmazlığı prinsipi cəmiyyətin normal fəaliyyətini tənzimləyən ən köklü qaydalardan biridir.

Konstitusiyanın təsbit edildiyi plüralizm və siyasi fəaliyyət azadlıqları birbaşa demokratik respublikanın ideya prinsiplərinin davamı, digər tərəfdən isə bu sahədə dünya standartlarına nail olmaq deməkdir. Bu hüquqlar insanlara imkan verir ki, yaşadığı cəmiyyətdə, onun inkişafında öz yerini müəyyən etsin.

Azərbaycan Respublikası Konstitusiyasının üstün cəhətlərindən biri də fəaliyyətdə çeviklik imkanı yaratmasıdır. Zamanın axarı hər an dəyişir və özü ilə birgə insanların baxışlarını, gözləntilərini, strukturları, texnologiyaları da dəyişir. Ona görə dövlətlərin strateji inkişaf yolunda hər hansı maneələrin yaranmaması üçün Əsas Qanunun tarixin dəyişən reallıqlarına, dövrün çağırışlarına uyğunlaşdırılması, təkmilləşdirilməsi zəruridir. Bu baxımdan Azərbaycan Respublikasının Konstitusiyası inkişafa əngəl törətməyən, əksinə, tərəqqiyə təkan verən mütərəqqi bir ali sənəddir. Referendumlar vasitəsilə Konstitusiyanın dövrün tələblərinə uyğun yenilənməsi mümkündür.

### Dövrün çağırışlarına uyğun formalaşan Əsas Qanun

Xatırladaq ki, Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci ildə qəbul edildikdən sonra üç dəfə - 2002-ci, 2009-cu və 2016-cı illərdə ümumxalq səsvermələr, referendumlarla ana qanunumuza müvafiq əlavə və dəyişikliklər edilmişdir. Bu dəyişikliklər əsasən insan hüquqlarının qorunması, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması və hüquq sisteminin modernləşdirilməsi məqsədilə aparılmışdır.

2002-ci il referendumunda Konstitusiyaya edilən dəyişikliklər nəticəsində insan hüquqlarının qorunması daha da gücləndirilmiş, vətəndaşların seçki hüquqları ilə bağlı bəzi düzəlişlər edilmiş və hüquq sisteminin çevikliyi artırılmışdır. 2009-cu il referendumunda isə ölkə Prezidentinin seçilmə müddəti ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması, insan hüquqlarının daha geniş təmin olunması istiqamətində dəyişikliklər edilmişdir. 2016-cı il referendumunda yeni idarəetmə institutları yaradılmış və dövlət hakimiyyətinin daha səmərəli idarə olunması üçün islahatlar həyata keçirilmişdir. İdarəetmə sistemində vitse-prezidentlik institutunun yaradılması bunun tarixi örnəklərindəndir. 9 il əvvəl Əsas Qanunumuzda edilən ən mühüm dəyişikliklərdən biri də insan hüquqları ilə bağlı müddəaların daha da gücləndirilməsi, bu sahədə əlavə təminatların verilməsidir.

Azərbaycan Respublikası Konstitusiyasında şəxsi hüquq və azadlıqlar, siyasi hüquqlar, iqtisadi, sosial və mədəni hüquqlar, əmək hüququ, təhsil alma hüququ, sosial təminat hüququ, din və vicdan azadlığı ilə bağlı məsələlərə də geniş yer verilmiş, bütün bunlarla bağlı müddəalar aydın və əsaslandırılmış şəkildə təsbit edilmişdir.

### Sosial hüquqların təminatçısı

Beynəlxalq sənədlərə uyğun tərtib olunaraq, onların tələblərinə tam cavab verən Azərbaycan Respublikası Konstitusiyası insan hüquq və azadlıqlarının qorunmasını həyata keçirən əsas normativ aktlardandır. Bu hüquqların təmin olunması demokratik dövlət prinsiplərinə uyğun olaraq reallaşdırılır və vətəndaşların rifahını qorumaq üçün çərçivə yaradır. Digər ölkələrin konstitusiyaları ilə müqayisədə Azərbaycan Konstitusiyası sosial və iqtisadi hüquqlar sahəsində daha geniş tənzimləmələrə malikdir.

Əsas Qanunda məsələn, bir çox Avropa ölkəsi ilə müqayisədə Azərbaycan Konstitusiyası pulsuz təhsil və sosial təminat hüququnu açıq şəkildə vurğulayır. Xüsusi qeyd olunur ki, dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət olunur. Maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə zəmanət verir, eyni zamanda dövlət minimum təhsil standartlarını müəyyən edir. Bu, bəzi Qərb ölkələrində daha məhdud şəkildə təmin olunmaqdadır.

### Arzuladığımız ali niyyət

Azərbaycan Respublikası Konstitusiyasının 30 illik tarixdə böyük uğur qazanmasını şərtləndirən ən mühüm amil onun müəyyən etdiyi çərçivələrdə ölkəmizin qanunvericilik bazasının yenilənməsi, Konstitusiyada irəli sürülmüş bütün müddəaların effektiv icra mexanizmlərinin formalaşdırılmasından irəli gəlir. Əsas Qanunumuz dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu ildönümünün bu gün ərazi bütövlüyü, suverenliyi təmin olunmuş dövlətimizdə qeyd edilməsi ən böyük tarixi nailiyyətdir.

2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması xalqımızın həyatında yeni və xoş başlanğıcların müjdəsidir. Bu gün Azərbaycan Respublikası özünün milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Xalqımızın milli iradəsi, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, vətəndaşlarımızın bu inkişaf siyasətinə dəstəyi sayəsində Azərbaycan daha böyük hədəflərə çatacaq, tərəqqinin yeni mərhələlərinə yüksələcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Baş prokuror İCMP-nin Baş direktoru ilə görüşüb



Martın 11-də Baş prokuror Kamran Əliyev İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (İCMP) Baş direktoru Katrin Bomberger ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror rəhbərlik etdiyi qurumla İCMP arasında 2023-cü ildən etibarən müsbət əməkdaşlıq əlaqələrinin formalaşdığını qeyd edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələri ilə prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar barədə məlumat verib.

Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində itkin düşmüş 3983 azərbaycanlının işgəncələrə məruz qalaraq öldürülüb kütləvi məzarlıqlarda basdırıldığını, bu günə kimi onların taleyinə aydınlıq gətirilmədiyi vurğulanaraq Ermənistan tərəfindən müfəssəl məlumatların təqdim edilmədiyi qeyd olunub.

Qəbula görə təşəkkürünü ifadə edən Katrin Bomberger Azərbaycanda itkin düşmüş şəxslər üzrə məlumat bazasının yaradılması, hüquqi bazanın genişləndirilməsi, yerli mütəxəssislərin peşəkarlığının artırılması və müasir laboratoriyaların tikilməsi işlərinə Komissiyanın töhfə verə biləcəyini bildirərək, son illər ölkəmiz tərəfindən bu istiqamətdə görülən işləri yüksək qiymətləndirib.

Səmərəli diskussiya formatında keçirilmiş görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş prokuror paytaxtın Suraxanı rayonunda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Martın 11-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Suraxanı rayon prokurorluğunun inzibati binasında Suraxanı rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib. Qəbulda iştirak edən 17 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbula işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Azərbaycanla Macarıstan arasında bir sıra sahələrdə əlaqələr inkişaf edir



Nyu-Yorkda səfərdə olan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova BMT-də Qadınların Statusu Komissiyasının 69-cu sessiyası çərçivəsində Macarıstanın Ailə Məsələləri üzrə Dövlət Katibi Zofia Kontsla görüşüb.

AZƏRTAC-ın məlumatına görə, görüşdə iki ölkə arasında bütün sahələrdə, o cümlədən sosial sahədə əməkdaşlığın inkişafı vurğulanıb. Bahar Muradova Azərbaycanın öz köklərinə bağlı olduğunu, milli kimlik və ailə məsələlərinə önəm verdiyini bildirib. Komitə sədri Azərbaycanın 5 il əvvəl torpaqlarını işğaldan azad edərək suverenliyini bərpa etdiyini vurğulayaraq, yeni mütəvidə başlayan inkişafın məhz milli dəyərlərlə müasirliyin sintezi istiqamətində aparıldığını əlavə edib. Bahar Muradova Macarıstanın Azərbaycanla birlikdə həm də Türk Dövlətləri Təşkilatında birgə təmsil olunduğunu deyərək, hər iki ölkənin ailə dəyərlərinə üstünlük verdiyini əlavə edib. O bildirib ki, Azərbaycanla Macarıstan arasında sosial, iqtisadi, siyasi, mədəni sahədə əlaqələr inkişaf edir və bu, həm də iki ölkə Prezidenti arasında yüksək dostluq münasibətlərindən irəli gəlir.

Zofiya Konts cəmiyyətlərin özəyini təşkil edən ailə dəyərlərinin qorunmasının və bütün platformalarda təbliğ olunmasının əhəmiyyətini qeyd edib. O, Azərbaycanın bu sahədəki təcrübələrindən yararlana biləcəklərini, bu istiqamətdə birgə işləyərək layihələr həyata keçirə biləcəklərini vurğulayıb. O təmsil etdiyi qurumun əsas fəaliyyət istiqamətinin işsizliyin aradan qaldırılması və ailələrə dəstək xidmətlərinin göstərilməsi olduğunu qeyd edib, digər fəaliyyət sahələri barədə məlumat verib, dəstək proqramları çərçivəsində reallaşdırılan layihələrdən danışıb.

Tərəflər ailə məsələləri sahəsində əməkdaşlığı inkişaf etdirmək və təcrübə mübadiləsi, birgə layihələrin icrasına dair müzakirələr aparıblar.

# "Ekspo 2025"də Azərbaycan milli pavilyonunun açılışı olacaq




Aprelin 13-də Yaponiyanın Osaka şəhərində "Həyatımız üçün gələcək cəmiyyəti formalaşdıraq" (Designing the Future Society for Our Lives) mövzusunda "Osaka, Kansai Ekspo 2025" dünya sərgisi açılacaq. 2000-ci ildən Ekspo sərgilərində uğurla iştirak edən Azərbaycan bu il də milli pavilyonla təmsil olunur.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə yaradılan milli pavilyon "Ekspo 2025"in "Həyatları əlaqələndirmək" (Connecting Lives) bölməsində yerləşməklə "Dayanıqlı inkişafa doğru yeddi körpü" (Seven bridges for sustainability) mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından qaynaqlanıb. Burada Azərbaycanın zəngin mədəni irsi, texnoloji inkişaf və davamlı inkişafa bağlılığı, eyni zamanda, dialoqa açıqlığı nümayiş olunur. Çünki dialoq və əlaqələr vasitəsilə aydın, harmoniya dolu və dayanıqlı gələcəyə nail olmaq mümkündür.

Üç mərtəbədən ibarət pavilyonun fasadının dizaynı Azərbaycan ənənələrini, incəsənətini və sənətkarlığını təcəssüm etdirən şəbəkə motivlərindən yaranıb. Ziyarətçilər pavilyondakı səyahətlərinə nəhəng yeddi gözəlin hər birinin təcəssüm etdirdiyi müxtəlif istiqamətlərlə - mədəni müxtəliflik, mədəni irs, ənənəvi incəsənət, memarlıq inciləri, davamlı inkişaf, təbii sərvətlər, idman və turizm sahələri ilə tanışlıqla başlayırlar.

Pavilyonda Azərbaycan və Yaponiyanı tərənnüm edən üç ağac da yer alacaq. Bunlar "Azərbaycan ağacı", "Yapon ağacı", Azərbaycan və yapon ağaclarının sintezi olan "Dostluq ağacı"dır.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycanın "Ekspo 2025" üzrə baş komissarı, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, "Ekspo 2025"in baş katibi Hiroyuki İşige və "Ekspo 2025"in baş komissarı Koji Haneda ölkəmizin dünya sərgisində iştirakı ilə bağlı müqavilə imzalayıblar. Yaponiya ilə əlaqələrə və dünya Ekspo sərgilərində iştiraka əhəmiyyət verən Azərbaycan "Osaka, Kansai Ekspo 2025"də iştirakçı müqaviləsini imzalayan ilk ölkə olub.

155 hektardan çox ərazini əhatə edən "Ekspo 2025"də ümumilikdə 165 ölkə və 7 beynəlxalq təşkilat təmsil olunacaq. "Ekspo 2025" Birləşmiş Millətlər Təşkilatı tərəfindən müəyyən edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün mühüm platforma kimi də dəyərləndirilir. Dünya sərgisinin davam etdiyi 184 gün ərzində Ekspoya 28 milyon ziyarətçinin gəlişi gözlənilir. "Ekspo 2025"in maskotu isə sudan əmələ gələn qeyri-adi varlıqdır. O, həm də davamlı həyatın ritmini əks etdirir.

Milyonlarla insan oktyabrın 13-dək sərginin keçirildiyi məkanda eksponatlarla tanışlıqla yanaşı, birgə səylərlə gələcək cəmiyyətimizi qurmaq imkanlarını da araşdırmış olacaq. Bura həm də bilik və qabaqcıl texnologiyaların qlobal problemlərin həlli üzrə birləşərək yeni ideyaların yaradılması və mübadiləsi məkanına çevriləcək.

# *Erməniəsilli şəxslər Vardanyanın məhkəməsində ifadə veriblər:*
# "Ruben elə bilirdi ki, Qarabağdakılara yaxşılıq edib, amma onların evini yıxıb"

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası martın 11-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

İclasın əvvəlində hakim Zeynal Ağayev bu məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə hüquq və vəzifələrini izah edib.

Ardınca təqsirləndirilən şəxs Ruben Vardanyan əvvəlki məhkəmə proseslərində verdiyi vəsatətlərin bir qisminin təmin olunmadığını qeyd edərək, işə baxan hakimlər kollegiyasına etirazını bildirib.

Dövlət ittihamını müdafiə edən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək deyib ki, eyni məzmunlu vəsatətə əvvəlki məhkəmə proseslərində baxılaraq müvafiq qərarlar qəbul olunub. Həmçinin Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində hakimə etirazın konkret halları müəyyən edildiyi və həmin etirazın əsaslandırılmasının zəruri olduğu vurğulanıb. Buna baxmayaraq, R.Vardanyanın öz etirazını qanunvericiliyin müəyyən etdiyi hallara uyğun deyil, vəsatətlərinin təmin olunmaması ilə əsaslandırması cinayət-prosessual qanunvericiliyə əsasən, etiraz üçün əsas ola bilməz. Bu səbəbdən prokuror etirazın baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib.

Məhkəmə iclasında iştirak edən zərərçəkmiş şəxslər ittiham tərəfinin mövqeyi ilə razılaşdıqlarını bildiriblər.

İclasa sədrlik edən Zeynal Ağayev təqsirləndirilən şəxsin eyni xüsusat üzrə artıq dördüncü dəfədir hakimlər kollegiyasına etiraz etdiyini, göstərdiyi halların hər birinə əvvəllər ətraflı baxılaraq qərar verildiyini, hazırkı prosesdə hər hansı yeni dəlil təqdim olunmadığı və əsaslandırılmadığı üçün etirazı təmin etməyib.

Sonra dövlət ittihamçısı Təranə Məmmədova təqsirləndirilən şəxsə Azərbaycanın Respublikasının əvvəllər işğal altında olmuş suveren ərazilərinin minalanması, oraya müxtəlif yerlərdən, o cümlədən Ermənistandan silahların daşınması prosesi, əldə olunması, bunun üçün nəzərdə tutulan maliyyə vəsaitlərinin hansı qaydada formalaşdırılması, həmin prosesdə Ermənistan dövləti, onun rəhbərliyi və yüksəkvəzifəli şəxslərinin iştirakı, dəstəyi, razılıq və icazələri, eləcə də könüllü və muzdluların Azərbaycanın suveren ərazilərində qalan Ermənistan ordusu ilə və Ermənistanla əlaqələri barədə suallar verib.

Təqsirləndirilən şəxs sualları cavablandırmaqdan imtina edib.

Daha sonra iş üzrə şahidlər dindirilib. Məhkəmə iclasına sədrlik edən Zeynal Ağayev dindirmədən əvvəl şahidlərə qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən yalnız həqiqəti danışmaq vəzifəsini izah edib.

Şahid qismində ifadə verən, Qarabağda yaşayan erməniəsilli şəxs Hayrapetyan Kamo Eduardoviç 44 günlük müharibədən bir müddət sonra Ruben Vardanyanın Xankəndiyə gəldiyini bildirib.

O, R.Vardanyanın sponsorluq edərək Azərbaycana qarşı vuruşmaq üçün yaşı 45-50-dək olan insanlardan ibarət dəstələr yaratdığını, onları maliyyələşdirdiyini bildirərək deyib: "Çox sayda cavan insan gedib o qruplaşmalara yazılmışdı. Mənim üçün maraqlı o idi ki, dünyada tanınmış biznesmen, oliqarx Ruben Vardanyan, - mən demirəm ki, o, mənim düşmənimdir, yox, - nəyə görə öz biznesini qoyub Qarabağa gəlmişdi?".



Şahid bildirib ki, Ruben Vardanyan Xankəndiyə gəldikdən sonra 44 günlük müharibədə Azərbaycanın qaytardığı ərazilərin sərhədlərində onun maliyyəsi ilə minalanma işləri aparılıb. O qeyd edib ki, həmin minalar Laçın yolu ilə Ermənistandan Qarabağa gətirilib. "Xankəndidə yaşayan ermənilər də Qarabağ ərazisində minalanma işlərinin Ruben Vardanyan gələndən sonra geniş vüsət aldığını biliblər. Məktəblərdə, binaların ətrafında, meşələrdə və boş ərazilərin yaxınlığında həmin minalarla bağlı məlumat xarakterli plakatlar yerləşdirilib. Halbuki 44 günlük müharibəyə qədər minalarla bağlı heç bir plakat olmayıb", - deyə şahid əlavə edib.

O deyib ki, Ruben Vardanyanın maliyyələşdirməsi nəticəsində Xankəndi ətrafında 2, Əsgəranda isə 1 ədəd olmaqla, ümumilikdə 3 hərbi anbar yaradılıb. Həmin anbarların yerləşdiyi yerə gedən yolu silahlı şəxslər mühafizə edirdilər. Həmin anbarlarda Ermənistan ordusu, Qarabağdan seçilmiş hərbçilər fəaliyyət göstərirlər. Anbarlara Ruben tərəfindən Qarabağa gətirilmiş xeyli sayda silah və döyüş sursatı, habelə pilotsuz kvadrakopterlər və digər pilotsuz uçuş aparatları toplanıb. Bu barədə Xankəndidə çox adamın məlumatı olub və Ruben Vardanyan tərəfindən bütün erməni sakinlərin silahlanaraq azərbaycanlılara qarşı vuruşması təbliğ edilib. Ruben Vardanyanın bu silahlı dəstələri yaratmaqda məqsədi Azərbaycana qarşı mübarizə aparmaq olub.

Şahidin sözlərinə görə, Ruben Vardanyan Qarabağa gələnədək erməni sakinlər arasında Azərbaycana inteqrasiya məsələsi ciddi formada yayılıb, insanlar Azərbaycanla əlaqələr qurmağa çalışıblar. Bir çoxları Azərbaycanın tərkibində yaşamaq və vətəndaşlıq almaq barədə ciddi fikirləşirdi.

2022-2023-cü illərdə Ruben Vardanyanın Xankəndi şəhərində gələrək burada Azərbaycana qarşı təbliğata başladığını söyləyən şahid deyib: "Ruben Vardanyanın gəlişindən sonra erməni sakinlərdə Azərbaycana qarşı düşmənçilik meylləri gücləndi. Ruben Vardanyan erməni sakinlərin azərbaycanlılara nifrət etməsinə çalışırdı".

Sonra digər erməniəsilli şahid Qriqoryan Muşeq Qurgenoviç ifadə verib.

Şahid deyib ki, Ruben Vardanyan Qarabağda qondarma rejimdə vəzifəyə təyin olunduqdan sonra muzdlu döyüşçülərdən ibarət dəstələr toplamağa başlayıb. Daha sonra isə həmin şəxslər Xocalı rayonunda yerləşən düşərgədə hərbi təlimlərə cəlb olunub. "Əsgərlikdən yeni gəlmiş şəxslərin hərbi xidmətdə olan ixtisaslarını öyrənib və onlardan istifadəyə yararlı olan şəxsləri dəstələrə cəlb edib. Əsasən radiotexniki sahədə hərbi təcrübəsi olan əsgərlərin öz könüllü muzdlu dəstələrinə qoşulmasını həyata keçirib. O, bu məqsədlə Xocalı rayonunun Badara kəndi yaxınlığında dağlıq və meşəlik ərazidə çay kənarında əvvəllər "İdman Turizmi Federasiyası"nın nəzdində olmuş düşərgədə hərbi təlim məntəqəsi yaratdıraraq əsasən əsgərlikdən yeni gəlmiş gənclər, tələbələr və yuxarı sinif şagirdlərinə hərbi təlimlər keçilməsini təşkil edib. Mən Vardanyanı başa düşmürəm, əgər xalq üçün yaxşılıq edirsənsə, niyə silah alırsan, mina basdırırsan, adamlara pul verirsən, düşərgə açırsan? Əgər silah yaxşı şeydirsə, al apar evinə, övladların döyüşsün. Vardanyan elə bilirdi ki, Qarabağdakılara yaxşılıq edib, amma onların evini yıxıb", - deyə şahid vurğulayıb.

Məhkəmə iclasında şahidlərin Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) ibtidai istintaq zamanı verdikləri ifadələri elan olunub. Onlar ibtidai istintaqda verdikləri ifadələrini təsdiqləyiblər.

Sonra zərərçəkmişlər ifadə veriblər. Zərərçəkmiş Səyyad Ələkbərli Ruben Vardanyanı media vasitəsilə tanıdığını, özünün Ermənistandan gətirilərək Azərbaycanın suveren ərazilərində basdırılmış minaya düşərək xəsarətlər aldığını bildirib. O, hadisənin 2023-cü ilin avqust ayında Xocalıda kənd təsərrüfatı işləri görərkən baş verdiyini deyib.

Zərərçəkmişlər Cəlal Quliyev, Rəvan Ağazadə, Nəriman Abışlı, Elbrus Əzimli, Elməddin Ağayev, Faiq Əzizov, Səxavət İsmayıl, İsmayıl Hüseynov və İbrahim Həmidli Kəlbəcərdə hərbi xidmət zamanı yaralandıqlarını bildiriblər.

Zərərçəkmişlərin hər biri təqsirləndirilən şəxs Ruben Vardanyana ən ağır cəzanın verilməsini məhkəmədən xahiş ediblər.

Məhkəmənin növbəti iclası martın 18-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# "Ana təbiət" dünya ictimaiyyətini köməyə çağırır





**Hava və su da daxil olmaqla təbii sərvətlərdən yüz illərdən bəri kortəbii istifadə olunması nəticəsində ətraf mühit korlanmağa doğru dəyişikliyə məruz qalmış, elmi-texniki tərəqqi dövründə isə bu cür dəyişiklik daha da kəskinləşmişdir.**

Energetika, sənaye, kənd təsərrüfatı, nəqliyyat sahələrində yeni texnologiyalarn tətbiqi və istehsalının genişlənməsi, landşaftların antropogen dəyişməsi, beynəlxalq təsərrüfat əlaqələrinin mürəkkəbləşməsi və genişlənməsi ekoloji mühitin və ətraf mühitin tarazlığının pozulmasına səbəb olmuşdur.

Ekoloji mühitin pozulması, meşələrin, çəmənlərin, kənd təsərrüfatına yararlı torpaqların azalması, Kür, Araz və digər çayların, Xəzərin, torpağın, havanın çirklənməsi, zooloji və bioloji müxtəlifliyin pozulması və s. məhz iqlim dəyişmələrinin izləridir. İzlər təkcə bunlar deyil ki?! İqlim dəyişmələri həm regional, həm də qlobal səviyyədə insanların qida təhlükəsizliyini və suya çıxışını məhdudlaşdırır, aclıq, yoxsulluq və digər ağır sosial-iqtisadi nəticələrə, miqrasiyanın güclənməsinə səbəb olur, yoluxucu və xroniki xəstəlikləri artırır. Elmi araşdırmalar göstərir ki, kənd təsərrüfatı, su resursları, sahilyanı zonalar, meşə, turizm və səhiyyə sektoru iqlim dəyişikliyinə çox həssasdır. Və bu sadalananlar ekologiya sahəsində beynəlxalq səviyyədə təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyaları bu yöndə keçirilən tədbirlərin ən alisidir. Azərbaycanda da illərdir ətraf mühitin tarazlığını qorumaq istiqamətində analoji tədbirlər keçirilir. Onlardan biri də COP29-un keçirildiyi günlərdə fəaliyyətə başlayan MAMA (Mother Nature) "Ana təbiət" beynəlxalq incəsənət sərgisidir. MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsinin ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin sədri Leyla Əliyevadır. Layihə debütünü 2024-cü il noyabrın 15-də etmişdi.





Ətraf mühitin mühafizəsi mövzusunda Heydər Əliyev Mərkəzində açılan "Öz töhfəni ver!" sərgisi Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya və IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyevanın birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzi və İsveçrə Qadın və Gücləndirmə Assosiasiyası (Association of Swiss Women & Empowerment) tərəfindən təşkil olunmuşdu.

Bir müddət əvvəl MAMA "Ana təbiət" iqlim dəyişmələri ilə mübarizə üzrə mesajlarını dünyaya vermək üçün "səyahət"ə başlayıb və ilk "dayanacaq" Bəhreyn Krallığı olub. Bəhreynin məşhur İncəsənət Mərkəzində MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin təqdimatı keçirilib. Leyla və Arzu Əliyevaların iştirakı, Heydər Əliyev Mərkəzi, IDEA İctimai Birliyi, Bəhreynin RAK İncəsənət Fondu və Bəhreyn Mədəniyyət və Qədim Əsərlər İdarəsinin birgə təşkil etdiyi bu sərginin məqsədi ictimaiyyətin diqqətini ətraf mühitin qorunmasının vacibliyinə bir daha yönəltməkdir.

Leyla Əliyeva tədbirdə planetimizdə iqlim dəyişikliyi nəticəsində meydana gələn problemlərdən danışaraq MAMA "Ana təbiət" incəsənət layihəsi vasitəsilə mövcud problemlərin həllinə kreativ üslubda yanaşıldığını diqqətə çatdırıb. Bildirib ki, qlobal istiləşmə dövründə dayanıqlıq çağırışı heç vaxt bu qədər zəruri olmamışdı. O, gələcək nəsillər naminə planetimizi qorumaq istiqamətində səylərin birləşdirilməsinin vacibliyini vurğulayıb.

MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi Bəhreyn İncəsənət Mərkəzində martın 25-dək davam edəcək. Bu müddətdə ziyarətçilər üzləşdiyimiz ətraf mühit problemləri ilə bağlı müxtəlif və vacib hekayələri özündə əks etdirən rəssamlıq, heykəltaraşlıq, instalyasiya və multimedia nümunələri ilə tanış ola biləcəklər.

Qeyd edək ki, Leyla Əliyeva Bəhreynə səfəri çərçivəsində Bəhreyn Krallığının Vəliəhdi və Baş naziri Salman bin Həməd Al Xəlifə ilə də görüşüb. Görüş zamanı ölkələrimiz və xalqlarımız arasında yüksəksəviyyəli münasibətlərdən danışılıb, ikitərəfli əməkdaşlığın bundan sonra da müxtəlif sahələr üzrə genişləndirilməsinin əhəmiyyəti qeyd olunub. Bəhreyn Krallığının Vəliəhdi Azərbaycanın hər zaman qlobal problemlərin həllinə dəstək olduğunu, bu çərçivədə ölkəmizin COP29-a yüksək səviyyədə evsahibliyi etdiyini bildirib, ətraf mühitin qorunması sahəsində təşəbbüslərin davamı olaraq, MAMA "Ana təbiət" sərgisinin Bəhreyndə təşkilinə görə təşəkkürünü çatdırıb. IDEA rəhbərinin ətraf mühitin qorunması istiqamətində Azərbaycanda və digər ölkələrdəki təşəbbüslərini yüksək qiymətləndirib.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Abşeron şəraitində dekorativ kompozisiyaların tərtibatı öyrənilib

**Keçmiş illərin bir çox dekorativ kompozisiyası yeni tikililər, müasir şəhər və evlərin formaları üçün uyğun deyil, buna görə də küçələri və parkları bəzəmək üçün landşaft dizaynı üslubunda yeni kompozisiyalar yaradılmalıdır.**

Bu barədə AZƏRTAC-a Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutundan bildirilib. Qeyd olunub ki, Abşeronda park, bağ, bulvar, küçə, meydanlar abadlaşdırılarkən Azərbaycanın müxtəlif bölgələrindən və xarici ölkələrdən introduksiya olunan dekorativ ağac, kol və ot bitkilərindən müxtəlif formalarda kompozisiyaların tərtibatı Bakı şəhərini daha da gözəlləşdirir. Abşeronun dəyişkən iqlim şəraitində park və bağlarda bitki müxtəlifliyinin öyrənilməsi landşaft dizaynının inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə institutun Landşaft memarlığı laboratoriyasında elmi-tədqiqat işləri aparılıb. Park və bağlarda kompozisiyaların tərtibatı, bitkilərin kompozisiyalarda bioekoloji və dekorativ xüsusiyyətlərinə görə qruplaşdırılması qaydaları, müxtəlif əkinlərdə bitkilərin istifadə perspektivləri öyrənilib, şəhərin landşaft dizaynında istifadə üçün ağac, kol və ot bitkiləri tövsiyə edilib.

Tədqiqat nəticəsində məlum olub ki, Abşeronun park və bağlarında müxtəlif kompozisiya formaları müntəzəm üslubda - həndəsi formalı (düzbucaq, kvadrat, dairə, romb və s.) və landşaft və ya mənzərəli üslubda - orijinal formalı (güllük, labirint, buta və s.) tərtib edilib. Həndəsi formalı kompozisiyanın mərkəzində həmişəyaşıl ağac və kollar, kənarlarında ot bitkiləri, orijinal kompozisiyalarda isə landşaft üslubunda düzülmüş dekorativ kol və birillik, ikiillik, çoxillik ot bitkilərindən istifadə olunur. Abşeronun park və bağlarında yaradılan müxtəlif kompozisiyalarda bitkilərin bioloji və dekorativ xüsusiyyətlərinə, rənginə, formasına, hündürlüyünə, kölgəyə davamlılığı və işıq sevərliyinə görə bir-biri ilə uyğunlaşmasına, yeni formalara böyük rol verilir. İynəyarpaqlı bitkilərin budanması onların formalarının müxtəlifliyinə və dəqiqliyinə görə park və bağlara xüsusi gözəllik verir. Kompozisiyalarda "davamlı çiçəkləməyə" nail olmaq üçün birillik və çoxillik dekorativ ot bitkilərindən istifadə edilir və bitkilər elə seçilir ki, çiçəkləyən növlər tədricən başqa növlərlə əvəz olunur.

Klassik sxemə görə kompozisiyalar ön, orta və arxa planda yerləşən müxtəlif hündürlükdə olan bitkilərdən yaradılıb. Kompozisiyanın mərkəzində hündürboylu bitkilər, kənarlarında isə nisbətən alçaqboylu bitkilər yerləşir. Hündürlüyə görə seçilmiş bitkilər bir-birini örtməməlidir. Bitkilərin dekorativ keyfiyyətləri - yarpaqların, qabıqların və çiçəklərin ölçüsü, rəngi, quruluşu və hündürlüyü bitki həyatının inkişaf mərhələlərində fərqli olur və ona görə də çoxsaylı kompozisiya variantını yaratmağa imkan verir. Yazda, sərin havalarda kompozisiyaların tərtibatında parlaq rəngli çiçəklərdən, yayda isə ağ, mavi, bənövşəyi çiçəklərdən istifadə olunur. Açıq çalarlardan çiçəklik yüksək qan təzyiqi olan insanlara müalicəvi təsir göstərir. Yayda fasiləsiz çiçək açan birillik çiçəklərdən fərqli olaraq, çoxillik çiçəklərin öz inkişaf dövrü və çiçəkləmə vaxtı var. Kompozisiyalarda birillik və çoxillik dekorativ bitkilərdən istifadə olunur. Birillik bitkilərdən yaradılmış kompozisiyalar hər il yenilənir. Çoxmövsümlü kompozisiyalarda çoxillik bitkilər böyük rol oynayır. Onlar yenilənmir, buna görə də bitkilər rəng və formasına görə bir-birinə uyğun olmalıdır. Bu kompozisiyalarda birillik bitkilərin sahələri yenilənir. Abşeron şəraitində müxtəlif kompozisiyaların yaradılması əhalinin həyat şəraitini yaxşılaşdırır. Ancaq isti və quraq iqlimi, güclü küləkləri, zəif və şoran torpaqları olan Abşeronda yaşıllaşdırma işlərinin aparılması müəyyən çətinliklərlə bağlıdır. Hazırda Abşeronun yaşıllaşdırılmasında istifadə olunan dekorativ bitkilər yeni növ və sortlarla, istifadə üsulları, müxtəlif kompozisiyaların yeni formaları və s. ilə zənginləşməlidir. Müasir yaşıllaşdırma üçün bitkilərin seçimi elə aparılmalıdır ki, dekorativliklə yanaşı, müalicəvi təsirə malik olsun.

Elm xadimləri

# Alim-şəxsiyyət vəhdəti

**İnsanı ucaldan ilk növbədə onun ziyalılığı, elmi dünyagörüşü, həyata baxışıdır. Bu şəxsi keyfiyyətlərin sırasında ziyalılığın məsuliyyəti daha böyükdür. Görkəmli alim, hüquq elmləri doktoru, professor Habil Qurbanov sözün həqiqi mənasında əsl ziyalıdır. Sadəliyindən təvazökarlığına, həyat tərzinə, insanlara münasibətinə, məsələlərə dərin fəhmlə yanaşmasına, onları anlamaq bacarığına, ictimai-siyasi mövqeyinə və fəallığına qədər... Bunun üçün daha bir ifadəyə ehtiyac yoxdur. Bu, onun əbədi taleyidir. O, artıq 70 ildir ki, davranışları, əməlləri ilə cəmiyyət üçün faydalı nəticələr yaratmağa çalışır. Ziyalı adının böyüklüyünü dərk edərək onun dəyərlərinə sadiqlik göstərir.**



Professor Habil Qurbanov həm də baş ədliyyə müşaviri, sadiq dost və gözəl ailə başçısıdır. Onu tanıyanlar üçün çox yaxşı insan və etibarlı silahdaş, yol yoldaşıdır.

"İnsan öz zəmanəsinin övladıdır" deyib müdriklər. Burada zəmanə deyərkən ümumilikdə hər bir kəsin doğulub böyüdüyü, tərbiyələndiyi vaxtın yaratdığı şərait nəzərdə tutulur. Həqiqətən, insanın şəxsiyyət kimi formalaşmasında, dünyagörüşü çevrəsinin genişliyində böyüdüyü mühit xüsusi əhəmiyyət kəsb edir.

O, düz yetmiş il öncə yurdumuzun gözəl guşəsi olan Ağdam şəhərində, bahar bayramı ərəfəsində, təkcə ağdamlıların deyil, bütün qarabağlıların tanıdığı və hörmət bəslədiyi ziyalı ailəsində dünyaya gəlib.

El məsəli var - insanın adı çox vaxt onun taleyini və xarakterini müəyyənləşdirir. Habil Qurbanovun adı da onun xarakterik xüsusiyyətlərini və şəxsi keyfiyyətlərini müəyyən etdi, həyat yoluna işıq saçan ulduza çevrildi. Bu adın mənası çoxlarına məlumdur.

Bu ad bəşər övladının ilk adlarından, Adəm və Həvvanın iki oğlundan birinin ismidir. Müqəddəs kitablarda, o cümlədən "İncil" və "Quran"da bu ad dəfələrlə qeyd olunub. Bütün inanclarda o, zəka, istedad, zəhmət, fədakarlıq, səbr və insanlara olan təmənnasız sevgi ilə əlaqələndirilir.

Xoşbəxtlikdən bütün bu keyfiyyətlərin ən gözəl təzahürləri Habil Surxay oğluna xasdır. Nə yaşadığı illər, nə onun ictimai statusu və mövqeyi, nə yüksək titulları, nə də rəhbərlik etdiyi məsul dövlət postları bu insanın adının ilahi qüvvəsindən doğan mənəvi keyfiyyətlər çələnginə təsir etdi. Habil Qurbanovun şəxsiyyəti məhz mənəvi-əxlaqi dəyərlərdən qidalandığı üçün o, həyat yolunda dəfələrlə qarşılaşdığı çətinlikləri ləyaqətlə dəf etdi. Belə ki, hər dəfə taleyin şıltaqlıqları ilə üzləşərkən həyatın zərbələrindən sarsılmadı, gücünü, möhkəmliyini saxladı, bir də uca Tanrının ədalətinə güvəndi, bütün bunlara fəlsəfi mövqedən yanaşdı.

Habil müəllim Dövlət Pedaqoji İnstitutunu coğrafiya müəllimi ixtisası üzrə fərqlənmə diplomu ilə bitirsə də, tale onun yolunu tamam başqa sahəyə yönəltdi. İllər sonra o, SSRİ Daxili İşlər Nazirliyinin (DİN) Volqoqrad Ali İstintaq Məktəbini bitirərək peşəkar hüquqşünas oldu. Onun şəxsində peşəkar mütəxəssis kimi gözəl keyfiyyətlər öz əksini tapmışdı. Daxili işlər orqanlarında işlədiyi müddətdə vəzifə pillələrində sürətlə ucaldı. Uzun illər Daxili İşlər Nazirliyi sistemində çalışdıqdan sonra xidməti fəaliyyətini prokurorluq orqanlarında davam etdirdi və elə orada da onun həm mütəxəssis, həm də rəhbər işçi kimi yüksək peşəkarlığı daha dolğun şəkildə üzə çıxdı.

Habil müəllimin yubileyi ərəfəsində elə düşünürdük ki, əziz dostumuz haqqında yazmaq asan olacaq. Lakin əlimizə qələm alanda anladıq ki, bu ziyalı insanın keçdiyi həyat yolunu qısa bir yazıda əks etdirmək mümkün deyil. Eyni zamanda onun şəxsi keyfiyyətlərinin genişliyi, bütün bunların bir məqalədə mümkün qədər əks etdirilməsi də asan bildiyimiz işi çətin etdi. Yazıya başlayanda anladıq ki, Habil müəllimin həyat və fəaliyyətini tam əhatə etmək üçün bəlkə də kitablar yazılmalıdır.

## Fədakar, alicənab insan, sədaqətli dost

Habil müəllim təkcə şad günlərdə deyil, həm də çətin anlarda, ağırlıq evin astanasında dayananda bizimlə çiyin-çiyinə duran fədakar, alicənab və sədaqətli dostdur. Ata-babalarımız əbəs yerə deməyiblər ki, "dost ağır gündə tanınır".

Uzun dostluq illərində biz Habil müəllimi müxtəlif həyat şəraitində və taleyin sərt döngələrində tanıdıq. Odur ki, ötüb-keçən həmin illərdən sonra biz tam cəsarətlə, qürurla deyə bilərik: "Bu dünyada yarım əsrdən çox yaşadığımıza baxmayaraq, belə fədakar, sadiq, təmənnasız, diqqətli və həssas insana nadir hallarda rast gəlinir".

Həyat göstərir ki, hər bir insanın çoxlu tanışı, həmkarı ola bilər. Lakin onlardan ancaq bir neçəsi həqiqi dost kimi üzə çıxır. Bu mənada Habilin adını qürurla çəkə bilərik. Onun dostluğu, sədaqəti bizə nümunədir. Gərək Habil Qurbanov olmalısan ki, öz dostlarının hərəkətlərində gələcəkdə onların yüksəlişinə mənfi təsir göstərə biləcək nəticələri qabaqcadan görə biləsən. Uzun illər ərzində Habil müəllim dostlarını ziyanlı təsirlərdən, pis niyyətlərdən, riyakar münasibətlərdən hifz edərək qoruyub. Və elə bu gün də belə qalır.

Şübhəsiz ki, professor Habil Qurbanovun şəxsiyyətinin genetik əsası olan bu nəcib insani keyfiyyətlər onun həm elmi fəaliyyətinə, həm də karyerasına müsbət təsir göstərmişdir.

## Prokurorluq orqanlarında peşəkar xidmət

1990-cı ildə Azərbaycan SSR-in prokuroru mərhum İlyas İsmayılov Habil Qurbanovu prokurorluq orqanlarına işə dəvət etdi. Onun apardığı kadr siyasətində namizədin iki şəxsi keyfiyyətinə - mənəviyyatına və peşəkarlığına üstünlük verilirdi. İlyas İsmaylov gənc, istedadlı alim olan Habil Qurbanov haqqında çox müsbət məlumatlar aldıqdan sonra onunla görüşür və SSRİ Daxili İşlər Nazirliyinə (yubilyar Habil müəllim o illərdə ittifaqın Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan Bakı Xüsusi Orta Milis Məktəbinin rəis müavini vəzifəsində çalışırdı) H.Qurbanovun Azərbaycan SSR Prokurorluğuna köçürülməsi ilə bağlı sorğu göndərir. O vaxta qədər Habil Qurbanov SSRİ Daxili İşlər Nazirliyi Akademiyasının adyunkturasında namizədlik dissertasiyası müdafiə etmiş, vəzifə pillələrinə uğurla yüksəlmiş, cinayət hüququnun və kriminologiyanın aktual problemlərinə dair mötəbər hüquqi nəşrlərdə mütəmadi olaraq məqalələr dərc etdirirdi.

Beləliklə, Habil Qurbanov Bakı Şəhər Prokurorluğunun Ümumi nəzarət şöbəsinin prokuroru vəzifəsinə təyin olunur. Qısa müddət ərzində peşəkarlığı, yüksək şəxsi keyfiyyətləri ilə həmkarları arasında hörmət və rəğbət qazanır.

Sonrakı illərdə Habil müəllim praktiki işlə elmi yaradıcılığı uğurla uyğunlaşdıra bildi. Onun əsas nailiyyəti isə 1997-ci ildə Moskva şəhərində Rusiya Federasiyası Baş Prokurorluğunun Elmi-Tədqiqat İnstitutunda uğurla müdafiə etdiyi Azərbaycan Respublikasının yeni cinayət qanunvericiliyinin ümumi hissəsinin qurulmasının konseptual problemlərinə həsr olunmuş doktorluq dissertasiyası oldu. Doktorluq dissertasiyasında yer alan bir çox nəticə və müddəa 1999-cu ildə müstəqil Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsi qəbul edilərkən qanunvericilik tərəfindən nəzərə alındı.

Habil Qurbanov prokurorluq orqanlarında işlədiyi illər ərzində karyera pillələrində kifayət qədər uğurla irəlilədi: bir il sonra o, böyük prokuror, üç il sonra Bakının Qaradağ rayonu prokurorunun müavini, daha sonra həmin rayonun prokuroru, 1995-ci ildə Dəvəçi (indiki Şabran) rayonunun prokuroru, 1997-ci ildə isə Azərbaycan Respublikası Baş Prokurorluğunun Cəzaların İcrasına Nəzarət İdarəsinin rəisi vəzifəsinə təyin edildi.

Burada bir həqiqət xüsusi vurğulanmalıdır ki, hər hansı bir vəzifə insanın həm də özünüifadə və özünütəsdiq vasitəsidir. Onda insanın xarakteri üzə çıxır. Cılız xarakterli insanlar vəzifənin verdiyi səlahiyyətlərin, üstünlüklərin əsirinə çevrilib özünü də, tutduğu məqamı da hörmətdən salırlar. Vəzifənin fövqünə ucalacaq qədər güclü xarakterə malik insanlar isə sahib olduğu səlahiyyətləri başqalarının faydasına yönəldir, insanların yüksək rəğbətini qazanırlar. Belə bir xarakter ziyalılığın dəyişməz məziyyətlərindəndir. Sadəliyi, dürüstlüyü, sözünə bütövlüyü, ünsiyyət mədəniyyəti, proseslərə rasional yanaşma tərzi, təşkilatçılıq bacarıqları ilə seçilən Habil Qurbanov vəzifə kürsüsünə insanlara layiqli xidmət vasitəsi kimi yanaşdığını bütün yüksək məqamlarda sübuta yetirib. O, vəzifənin dəyişdirmədiyi adam idi.

## Çoxluq hər zaman ona rəğbət bəsləyib

Habil Qurbanovun mövcud problemləri çəkinmədən dilə gətirmək, diqqəti onların həlli yollarına yönəltmək qabiliyyəti də çox güclüdür. Eyni zamanda üzərinə yönələn haqlı-haqsız tənqidləri anlayışla qarşılamaq, məsələlərə təmkinlə, səbrlə reaksiya vermək, ziddiyyətləri diskussiya məcrasına yönəltmək də onun xarakterik xüsusiyyətlərindəndir. Ona görə tutduğu vəzifələrdən asılı olmayaraq, Habil müəllimə çoxluq hər zaman rəğbət bəsləyib. Onun dostlarının sayı bədxahlarının sayından qat-qat üstün olub. O, insani münasibətləri qorumağı bacaran, haqq-salamı heç zaman itirməyən alimdır.

Habil Qurbanov 2001-ci ildə Respublika Prokurorluğunda aparılan islahatlarla bağlı vəzifəsindən istefa verdi və həmin vaxtdan özünü bütünlüklə ictimai və elmi-pedaqoji fəaliyyətə həsr etdi. 2001-2003-cü illərdə Moskva Açıq Dövlət Universitetinin Bakı filialında Cinayət hüququ və cinayət prosesi kafedrasının müdiri, 2003-2010-cu illərdə "Azərbaycan Universiteti"nin Hüquq fakültəsinin dekanı, 2010-2016-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses şöbəsinin müdiri, 2016-cı ildə AMEA İnsan Hüquqları İnstitutunun Dövlət və Konstitusiya hüququ şöbəsinin baş elmi işçisi, 2017-2024-cü illərdə AMEA Azad Həmkarlar İttifaqının sədri vəzifələrində çalışdı. Habil müəllim hazırda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elmi Təşkilatların Birləşmiş Həmkarlar İttifaqının sədri vəzifəsində işləyir. O, eyni zamanda Azərbaycan Milli Aviasiya Akademiyası nəzdində Dissertasiya Şurasının, Azərbaycanda və xarici ölkələrdə (Rusiya, Serbiya, Qazaxıstan və s.) nəşr olunan bir çox nüfuzlu hüquq jurnalının redaksiya heyətinin üzvüdür. Bu jurnallarda onun cinayət hüququnun nəzəriyyə və təcrübəsinin müxtəlif aspektlərinə həsr olunmuş maraqlı elmi məqalələrinə tez-tez rast gəlinir.

Hüquq elmləri doktoru, professor Habil Qurbanovun elmi əsərləri sırasında yer almış çoxsaylı məqalə və dərsliklə yanaşı, xarici ölkələrdə (ABŞ, Almaniya, Rusiya) nəşr olunmuş fundamental tədqiqat əsərlərini də qeyd etmək lazımdır. Bu baxımdan onun Moskvada böyük tirajla çap olunmuş və postsovet ölkələrinin kriminoloqları və cinayət hüququ sahəsində ixtisaslaşmış mütəxəssisləri arasında böyük əks-səda doğurmuş cinayət hüququnun ümumi hissəsinin strukturunun nəzəri problemlərinə həsr olunan monoqrafiyasını xüsusilə qeyd etməliyik. Habil müəllim üç yüzdən çox elmi əsərin, iyirmiyə yaxın monoqrafiyanın, dərslik və dərs vəsaitinin müəllifidir.

Professor zəngin peşəkarlıq təcrübəsini gənclərlə fəal şəkildə bölüşür. Onun elmi rəhbərliyi altında Azərbaycanda və xaricdə onlarca doktorluq və namizədlik dissertasiyası müdafiə edilib. O, tez-tez elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaları üzrə birinci rəsmi opponent kimi çıxış edir. Avropa Humanitar Elmlər Akademiyasının və Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki, Beynəlxalq Narkomaniyaya Qarşı Mübarizə Cəmiyyətinin və Rusiya Professorlar Cəmiyyətinin üzvüdür.

Habil Qurbanov fəal elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyətinə görə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin fəxri fərmanı, AMEA-nın fəxri diplomu, Pedaqoji Universitetin 100 illik yubiley medalı ilə təltif edilib. O həm də Birinci Qarabağ müharibəsi veteranıdır, "Qarabağ futbol veteranları" klubunun təsisçisi və prezidentidir.

Habil müəllim indi də əzmkar, məhsuldar fəaliyyəti ilə dostlarını, yaxınlarını sevindirir və qürurlandırır. Bu insan on il əvvəl necə idisə, indi də elədir. Onun məşğul olduğu işə can yandırması, sevdiyi axtarış və tədqiqatlarına ruhən qarışması elə budur. Və bu, vətən qarşısında məsuliyyətini dərk edərək işıqlı təfəkkürü, aydın zəkası, iti qələmi ilə hər zaman faydalı olmağa çalışan bir alim - şəxsiyyət üçün ən böyük xoşbəxtlikdir.

***İlham RƏHİMOV,***
*Qara dəniz-Xəzər regionu ölkələri Hüquqşünasları Assosiasiyasının prezidenti,*
*hüquq elmləri doktoru, professor,*

***Xanlar ƏLƏKBƏROV,***
*Hüquqi Tədqiqatlar Mərkəzinin direktoru,*
*hüquq elmləri doktoru, professor*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransanın bütün addımları fiasko ilə nəticələnib

### Paris müstəqil dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmalıdır

"Fransanın Azərbaycana qarşı davamlı qərəzli siyasəti, son illər diqqət çəkən məsələlərdən biridir. Bu ölkənin dənizaşırı ərazilər naziri Manuel Vallsın Azərbaycanı Fransaya qarşı hibrid müharibə aparmaqda və dənizaşırı ərazilərdə müstəqillik tərəfdarlarını dəstəkləməkdə ittiham etməsi çoxsaylı suallar doğurur".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, bu cür açıqlamalar, hər şeydən əvvəl Azərbaycanın suverenliyi və xarici siyasətinə qarşı olan təzyiqləri bir daha ortaya qoyur. Bütün bunlar Azərbaycana qarşı aparılan nifrət kampaniyasının davamlı olduğunu göstərir. Fransanın ermənipərəst mövqeyini açıq şəkildə ortaya qoyduğu birinci hal deyil. Vətən müharibəsinin elə ilk günlərində Fransa Prezidentinin "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik", - deyə, beynəlxalq hüquqa zidd olan bəyanat verməsini yaxşı xatırlayırıq.

K.Bayramov qeyd edib ki, Azərbaycan bugün dünyada müstəmləkəçiliyə qarşı mübarizə aparan əsas dövlətlərdən biridir: "Artıq bir neçə ildir ki, ölkəmiz neokolonializmə qarşı mübarizəni əsas prioritetlərdən biri elan edib. Ölkəmiz daim beynəlxalq müstəvidə atdığı hər bir addımla sübut edib ki, müstəmləkəçiliyin, siyasi, iqtisadi, mənəvi istismarın hər cür təzahürünə qarşıdır və dünyanın harasında baş verməsindən asılı olmayaraq, bu cür neqativ halların aradan qaldırılmasına çalışır. Rəsmi Bakı Qarabağda işğala son qoyduqdan sonra müstəmləkəçilik siyasəti ilə bağlı prinsipial mövqe ortaya qoyub, beynəlxalq tədbirlərə evsahibliyi edib. Məhz Bakıdan başlayan beynəlxalq təşəbbüs, daha dəqiq desək, neokolonializmə qarşı Bakı Təşəbbüs Qrupunun fəaliyyət göstərdiyi müddətdə müstəmləkə altındakı xalqların problemlərini gündəmə gətirir".

Deputat bildirib ki, Fransanın neokolonial siyasətinə qarşı Azərbaycanın liderliyi ilə başlanan mübarizə Parisdə olduqca ağrılı şəkildə qəbul olunur. Buna qarşı çıxmaq məqsədilə Fransanın atdığı bütün addımları fiaskoya uğrayıb. Azərbaycan isə Fransanın müstəmləkə ərazilərində törətdiyi cinayətlərin müvafiq hüquqi qiymətini almasında, koloniya zülmü altında yaşayanların öz azadlığına qovuşması istiqamətində fəaliyyətini davam etdirməkdə qətiyyətlidir. Azərbaycan XİN-in Fransaya cavab olaraq verdiyi bəyanatlar, ölkəmizin öz xarici siyasətində müstəqil və sərbəst bir mövqe tutduğunu və heç bir xarici müdaxiləyə yer verməyəcəyini bir daha nümayiş etdirir. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın dənizaşırı ərazilər naziri Manuel Valsın "BFMTV"yə müsahibəsi zamanı ölkəmiz əleyhinə səsləndirdiyi əsassız iddialara münasibət bildirərək qeyd edib ki, Fransa tərəfinin dənizaşırı ərazilərdəki uğursuz siyasətini, kolonializm keçmişini davam etdirmək səylərini ört-basdır etmək üçün ölkəmizi ittiham edərək təkrar-təkrar səsləndirdiyi əsassız iddialarını qətiyyətlə rədd edirik. Fransanın kolonial siyasətini təbliğ edən və bu ölkənin "3 okean və 5 qitədə" mövcud olduğunu iddia edən Manuel Vallsın Azərbaycana qarşı növbəti dəfə səsləndirdiyi cəfəng iddialar, Fransanın həmin xalqlar arasında dayaqlarını itirməsi ilə barışmadığının növbəti təzahüründən başqa bir şey deyil. "Ölkəsini "nadir güc" kimi qələmə verən nazir Manuel Valls səsləndirdiyi ziddiyyətli fikirlərin Fransanın dənizaşırı ərazilərində baş verən zorakılıq aktları, müstəqillik tələb edən xalqların hərəkatlarının boğulması faktları qarşısında nə qədər zəif arqumentlər olduğunu özü də etiraf edir. Nazir Manuel Vallsın fikirləri, Fransanın öz "strateji maraqları" naminə fikir azadlığını, müstəqillik kimi anlayışları qurban verməyə hazır olduğunu nümayiş etdirməsi, əslində, bu ölkənin ikili standartlarla yanaşmasından xəbər verir. Rəsmi Parisdən ölkəmizə qarşı apardığı əsassız qarayaxma kampaniyasını dayandırmağı tələb edirik", - deyə deputat əlavə edib.

K.Bayramov qeyd edib ki, Fransa beynəlxalq aləmdə müstəqil dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmalıdır. Azərbaycan Fransanın müstəmləkəsi altında saxladığı xalqların hüquqlarını pozmasını, müstəqillik tələb edənləri həbs etməsini, öldürməsini beynəlxalq səviyyədə ifşa etməkdədir. Fransanın müstəmləkəçiliyinə qarşı üsyanlar həmişə olub və indi də davam edir. Təsadüfi deyil ki, Bakı Təşəbbüs Qrupunun tədbirlərinə müstəmləkə altında olan Afrika ölkələrinin təmsilçiləri aktiv surətdə qatılır və Fransanın orada etdiklərini sərt formada tənqid atəşinə tuturlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




## USAID-in qalan əli-qolu da kəsilir

Ötən əsrin ortalarında yaradılmış, uzunmüddətli iqtisadi və sosial inkişafa yönəlmiş nəhəng təsisat olan ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə bağlı çoxsaylı faktlar aşkarlanmaqdadır. Marşal planı çərçivəsində yaradılan bu təşkilat indiyədək kənd təsərrüfatı, ticarət, qlobal səhiyyə, demokratiya, humanitar yardıma dəstək istiqamətlərində, daha doğrusu, bu ad altında dövlətlərin asılılıq altına salınması istiqamətində çoxsaylı proqramlar reallaşdırıb.

USAID-in fəaliyyəti ilə bağlı ABŞ-nin yeni administrasiyasının kifayət qədər tənqidi yanaşması var. Son bir aya nəzər yetirsək görərik ki, təşkilatın fəaliyyətinin yenidən qurulması ilə bağlı Donald Tramp administasiyası ardıcıl addımlar atır. Artıq Donald Tramp administrasiyası Beynəlxalq İnkişaf Agentliyinin proqramlarının 83 faizini rəsmən dayandırıb. Bu barədə ABŞ Dövlət katibi Marko Rubio özünün sosial media hesabında yazıb. "Altıhəftəlik araşdırmadan sonra biz USAID proqramlarının 83 faizini dayandırdıq. Ləğv edilən 5200 müqavilə çərçivəsində on milyardlarla dollar Birləşmiş Ştatların maraqlarına uyğun olmayan şəkildə və bəzi hallarda hətta onun zərərinə xərclənib", - deyə Marko Rubio bildirib. Onun sözlərinə görə, USAID-in qüvvədə qalan 1000-ə yaxın proqramı ABŞ Dövlət Departamentinə təhvil verilib.

Qeyd edək ki, fevralın 26-da ABŞ Prezidenti Donald Tramp administrasiyası USAID və Dövlət Departamentinin xarici yardım müqavilələrinin 92 faizini ləğv etmək niyyətində olduğunu açıqlamışdı. Dövlət başçısının fikrincə, bu, hökumət büdcəsinə təxminən 60 milyard dollar qənaət etməyə imkan verəcək. Fevralın 3-də isə Ağ Ev İlon Maskın və onun rəhbərlik etdiyi Hökumətin Effektivliyi Departamentinin təhriki ilə USAID-in fəaliyyətini dayandırmışdır.

1995-ci ildə yaradılmış Beynəlxalq Əməkdaşlıq Administrasiyasının "varis"i olaraq qəbul edilən və bugünədək öz missiyasından kənar fəaliyyətlə məşğul olan USAID fəaliyyət göstərdiyi 70 il ərzində bir çox zorakı, məcburi dövlət çevrilişləri və silahlı münaqişələr təşkil etməklə "ad qazanıb" və artıq "məşhurlaşıb" da.

2014-cü ildə Ukraynada baş vermiş çevrilişin məhz USAID vasitəsilə maliyyələşdirildiyi də sirr deyil. Agentliyin həmçinin Rusiya və Belarusda hökumət əleyhinə aksiyaların təşkilatçılarına qrantlar ayırdığı bəllidir. Onu da unutmaq lazım deyil ki, USAID-in 100-dən çox ölkədə "missiya"ları olub. Sözün əsl mənasında, bu "kələf" Afrika, Asiya, Latın Amerikası, Yaxın Şərq və Şərqi Avropanı öz əhatəsinə çoxdan almışdı və "təsir dairəsi" də kifayət qədər olmuşdur.

USAID Ermənistana xüsusi münasibəti ilə hər zaman seçilib. Bunu uzun illər təcavüzkar dövlətə ayırdığı maliyyə yardımının məbləğindən də aydın görmək olur. Fəaliyyətinin qadağan olunması ilə bağlı son ana qədər təşkilat İrəvana hər cür dəstək göstərməyə çalışıb. Son olaraq isə 2024-cü il üzrə nəzərdə tutulmuş 250 milyon dollardan 110 milyon dollar Ermənistana çatdırılıb.

Bu səbəbdən USAID-in fəaliyyətinin dayandırılması Ermənistanda acınacaqlı durum yaradıb. Çünki Ermənistan uzun illər beynəlxalq yardımlardan faydalanaraq öz məsuliyyətsiz siyasətini davam etdirib, regionda sülh və sabitliyə təhlükə yaradıb. İndi isə ABŞ Ermənistanın destruktiv fəaliyyətlərini dolayısı ilə də olsa maliyyələşdirməyi dayandırır. Bu isə o deməkdir ki, Ermənistanın uzun illər apardığı məsuliyyətsiz siyasəti ifşa olunur.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Fransa Azərbaycana qarşı subyektiv siyasət yürüdür

### Ermənistana isə revanşizm ritorikası ilə hərbi dəstək göstərir

"Fransanın dənizaşırı ərazilər naziri Manuel Valls "BFMTV"yə müsahibəsi zamanı növbəti dəfə Azərbaycanı Fransaya qarşı guya hibrid müharibə aparmaqda, habelə dənizaşırı ərazilərdə müstəqillik tərəfdarlarını dəstəkləməklə ölkəsinə xarici müdaxilədə günahlandırıb. Fransa koloniyalardakı yarıtmaz siyasətini, xalqın haqlı tələblərini dinləmək əvəzinə xarici müdaxilə tezisini ortaya atıb, diqqəti yayındırmağa çalışır",

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O bildirib ki, sanki günahkar dekolonizasiya tələb edən şəxslər və Bakı Təşəbbüs Qrupudur. Halbuki BTQ Fransa tərəfini əməkdaşlığa dəvət edir. Bakı Təşəbbüs Qrupu təkcə Yeni Kaledoniyada deyil, ondan dəstək istəyən bütün ərazilərdə dekolonizasiya prosesinə yeni nəfəs gətirib. Qlobal bir platforma olaraq koloniyaların beynəlxalq ictimaiyyətə səslərinin çatdırılmasında, onların öz fikirlərini ifadə etmək üçün güclü bir platforma təmin edərək beynəlxalq təşkilatlarda məsələ qaldırır və BMT-nin diqqətini müstəmləkəçilik probleminə yönəltməyə çalışır. Beynəlxalq Dekolonizasiya Cəbhəsi yaradılıb və mübarizə üçün institutlaşma artıq mövcuddur. Beynəlxalq QHT olaraq BTQ bu istiqamətdə fəal şəkildə məşğul olur. "Azərbaycan XXI əsrdə davam edən müstəmləkəçilikdən və onun yeni təzahürlərindən dərin narahatlıq keçirir. Azərbaycan beynəlxalq ictimaiyyəti belə iyrənc neokolonializm praktikasına göz yummamağa, xüsusilə Fransanın nəzarətində olan ərazilərdə məcburi assimilyasiya siyasətinə qarşı çıxmağa çağırıb və neokolonializmə qarşı yeni bir mübarizə başladıb. Bu ilin fevral ayında Fransanın koloniyalarından bir qrup jurnalistin ölkəmizə səfəri baş tutub və səfər çərçivəsində Azərbaycan mediası və beyin mərkəzləri ilə əməkdaşlıqlar müzakirə edilib. Fransa davamlı olaraq öz mətbuatında ölkəmiz əleyhinə dezinformasiyalar yayı. Təbii ki, bu, Fransada və onun ərazilərində ictimai rəyi çaşdırır. Həmin media nümayəndələri ölkəmizdəki isti münasibəti görüb, reallıqlarla tanış olduqda isə bu cəhdlərin Parisin ölkəmizə qarşı qarayaxma kampaniyasından başqa bir şey olmadığını dərk edirlər", - deyə deputat əlavə edib.



Siyasətçi qeyd edib ki, həmin jurnalistlər öz ölkələrinə qayıtdıqdan sonra məqalələr yazaraq və bu barədə məlumatlar verirlər. Fransa Xarici İşlər Nazirliyi Azərbaycanı səyahət üçün təhlükəli ərazi kimi qeyd edib. Bu isə dezinformasiyanın başqa bir növüdür.

P.Vəliyeva vurğulayıb ki, Fransa Cənubi Qafqaz regionunda sülh prosesinə, normallaşmaya müdaxilə edir, Ermənistana revanşizm ritorikası ilə hərbi dəstək göstərir: "Avropa İttifaqını ölkəmiz əleyhinə proseslərə təhrik edir. Bu isə onun ölkəmizə qarşı qərəzli, diplomatiyadan kənar və subyektiv siyasət həyata keçirdiyinin bariz nümunəsidir".

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*

## USAID-in vəsaitləri ölkələrdə siyasi sistemin pozulmasına yönləndirilirdi

ABŞ dövlət katibi Marko Rubio "X" sosial şəbəkəsində Beynəlxalq İnkişaf Agentliyinin (USAID) proqramlarının fəaliyyətinin dayandırması haqqında məlumat yayıb. Ağ ev rəsmisi açıqlamasında qeyd edib ki, "altı həftəlik yoxlamadan sonra biz rəsmi olaraq USAID proqramlarının 83 faizinin fəaliyyətini dayandırdıq. İndi ləğv edilmiş 5,2 min müqavilə çərçivəsində on milyardlarla dollar ABŞ-nin maraqlarına uyğun olmayan şəkildə xərclənib". Rubionun sözlərinə görə, qüvvədə qalan USAID proqramlarının (təxminən 1000 proqram) idarə edilməsi ABŞ Dövlət Departamentinə həvalə edilib.

Qeyd edək ki, USAID formal olaraq müstəqil dövlət agentliyi hesab olunsa da, birbaşa ABŞ Prezidenti, dövlət katibi və Milli Təhlükəsizlik Şurasına tabedir. Onun rəhbəri və müavinləri ABŞ Senatının razılığı ilə ABŞ Prezidenti tərəfindən təyin olunur. 2024-cü maliyyə ilində USAID layihələri üçün 36 milyard dollara yaxın vəsait ayrılıb. Son 9 ildə isə ümumilikdə USAID xətti ilə 335 milyard dollar xərclənib.

Amerikalı sahibkar İlon Mask USAID-i çoxsaylı cinayət əməllərində, həmçinin Çin laboratoriyasını maliyyələşdirməkdə, yəni koronavirusu yaymaqda ittiham etmişdir. Ağ Evin USAID-in dünya üzrə maliyyələşdirdiyi bəzi layihələr haqqında məlumatında bildirilib ki, bura Əfqanıstanda irriqasiya kanallarının yaradılması və gübrənin alınması daxildir və bu sistem narkotik istehsalında daha çox istifadə olunub. Eləcə də "Əl-Qaidə" təşkilatı üçün 10 min porsiya yemək alınması, Kolumbiyada transgender operası, Peruda transgender komiksləri, İrlandiyada LGBT myuzikl, Serbiyada işçi kollektivlərdə və işgüzar dairələrdə bərabərliyin və inklüzivliyin irəliləməsi (1.5 milyon dollar) bura daxildir. Qvatemalada cinsin dəyişdirilməsinə və LGBT fəallığa 2 milyon dollar ayrılıb.

Yüzdən çox ölkədə qeyri-hökumət təşkilatlarına və müxtəlif layihələrə maliyyə vəsaiti ayıran USAID Balkan regionu ölkələrində də "çoxşaxəli fəaliyyət" göstərib. Agentliyin təkcə 2020-2024-cü illərdə region ölkələrində 1,7 milyard dollar xərclədiyi bildirilir. Təşkilat Serbiyada 209 milyon dollar, Bosniya və Herseqovinada 402 milyon dollar, Şimali Makedoniyada 290 milyon dollar, Monteneqroda 77 milyon dollar, Albaniyada 189 milyon dollar və Kosovoda 537 milyon dollar xərcləyib. USAID Serbiyada iş yerlərində müxtəliflik, bərabərlik və inklüzivlik proqramlarının inkişaf etdirilməsi layihələrinə isə 1,5 milyon dollar sərmayə yatırıb. Slovakiyanın Baş naziri Robert Fitso isə bəyan edib ki, hökumət ABŞ-dən USAID-in bu ölkədə qeyri-hökumət təşkilatlarına və media orqanlarına ayırdığı qrantlar barədə məlumat almaq istəyir. Baş nazir həmçinin qeyd etmişdir ki, USAID-in vəsaitləri Slovakiyada siyasi məqsədlər - siyasi sistemi pozmaq və müəyyən siyasi partiyalara üstünlük vermək üçün istifadə edilib.

USAID fəaliyyəti zamanı həm də əsl media ovçusu olduğunu təsdiq etmiş bir təşkilatdır. Faktlar göstərir ki, bu təşkilat dünya üzrə 707 media, 6200 jurnalist və 279 jurnalistika sahəsində çalışan QHT-ni maliyyələşdirib. Mənzərənin real təsdiqi üçün bir faktı qeyd etmək kifayət edər. 2024-cü ildə USAID Ukraynadakı proqramlarına 6 milyard dollardan artıq vəsait xərcləyib. O cümlədən, bu ölkədə medianın 90 faizi USAID tərəfindən maliyyələşdirilib. Onu da qeyd edək ki, indiyə kimi maddi dəstək alan media qurumlarından "The New York Times" (2024-cü ildə 3,1 milyon dollar ayrılıb), "Politico" (8 milyon dollar), "Associated Press" (19 milyon dollar), BBC (2,6 milyon funt), Reuters (9 milyon dollar), Frans-Press (447 min dollar) də var. Fevralın 6-dan ABŞ hökuməti bu təşkilat vasitəsilə "The New York Times", "Politico" və "Associated Press"in maliyyələşdirilməsini dayandırıb.

Azərbaycan rəhbərliyi hələ illər öncə USAID-in fəaliyyətindəki neqativləri ABŞ rəhbərliyinin diqqətinə çatdırmışdı. Hələ 2023-cü ilin oktyabrında Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici Siyasət Məsələləri Şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında USAID-in direktoru Samanta Pauerə cavabında bildirmişdi: "Maskaları çıxarın! Azərbaycanda USAID-in fəaliyyətinə yer yoxdur". Onu da qeyd edək ki, 2024-cü ilin fevralında Azərbaycan hökuməti USAID ilə müqavilə müddətini uzatmadı. Şübhəsiz ki, bu addımı atmaq üçün əsaslı səbəblər var idi. Qatı ermənipərəst mövqeyi ilə seçilən USAID rəhbərliyində Samanta Pauer faktiki olaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı fəaliyyət göstərirdi. Təsadüfi deyil ki, Azərbaycan 2023-cü ilin sentyabr ayında Qarabağda antiterror əməliyyatı keçirdikdən cəmi bir neçə gün sonra, sentyabrın 27-də USAID-in rəhbəri Samanta Pauer ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kim ilə birlikdə Qarabağda "humanitar" vəziyyəti müzakirə etmək üçün Bakıya səfərə gəlmişdilər.

Görüşdə yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirmişdi ki, ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələri və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsi də toplanmış silah və hərbi texnikaya baxıblar. Dövlətimizin başçısı qanunsuz erməni silahlı qüvvələrinin tərksilah olunaraq Azərbaycan ərazisindən çıxarılması prosesinin həyata keçirildiyini, antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəymədiyini, hədəfin ancaq qanunsuz erməni silahlı birləşmələri və hərbi obyektlər olduğunu xüsusi olaraq vurğulamışdır. Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarından bəhs edən Prezident İlham Əliyev Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, onların da hüquqlarının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin olunacağını qeyd etmişdir.

USAID rəhbəri Samanta Pouer səfərdən sonra Azərbaycanın antiterror əməliyyatından sonra "100 min erməninin qaçqın düşməsi" barədə əsassız məlumatlar yaymaqla ermənipərəst mövqe tutduğunu açıq şəkildə nümayiş etdirmişdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Qukasyan erməni nağıllarına daha inanmır

### Bakıda keçirilən məhkəmə həm də əsl gerçəklərin etiraf platformasına çevrilib



Erməniəsilli təqsirləndirilən şəxslərin Bakıda keçirilən məhkəməsi mübaliğəsiz İlahi ədalətin təntənəsidir. Sözügedən məhkəmənin qurulması və saysız hərbi cinayət əməllərində ittiham olunanların mühakimə edilməsi Azərbaycan xalqının halal haqqıdır. Eyni zamanda bu məhkəmə erməni xislətində olan hiyləgərliyin, riyakarlığın hansı səviyyədə olduğunun növbəti nümayiş ünvanı, həm də gerçəklərin etiraf platformasıdır.

Bu məhkəmədə Xocalının Meşəli kəndində qətliamlar törədən, girovlara tükürpədici işgəncələr verən erməni canilərinin başçısı Vaqif Xaçatryanın timsah gözyaşlarını ikrahla seyr etdik, quldur rejimə "rəhbər"lik etmiş Arayik Harutyunyanın özünün "mələk" obrazında təsvirinə dəhşətlə qulaq asdıq, 44 günlük müharibədən sonra Qarabağda peyda olan və ölkəmizə qarşı cinayət əməlləri törədən Ruben Vardanyanın "məsum"ca susmasına, gözlərindən yağan hiyləgərliyə baxdıq...

Martın 10-da isə məhkəmədə vaxtilə quldur rejimin "rəhbər"i olmuş təqsirləndirilən Arkadi Qukasyan dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən verilən suallara cavabları ilə sözün əsl mənasında hər kəsi şoka saldı. O, erməni bicliyinin, hiyləgərliyinin, dondan-dona girmək bacarığının növbəti dəfə "masterklas"ını göstərdi.

### Ağılları başlarına indi gəlib?!

Görün, Qukasyan məhkəmədə nə dedi: "Mənim fikrimcə, qadını, uşağı və ya ahıl insanı öldürən şəxs insan deyil. Söhbət onun milliyyətindən getmir".

Təbii ki, bu, fikir olaraq nöqtə vergülünə qədər doğrudur. Əmma isə orasındadır ki, bu sadəcə fikir olaraq doğrudur. Axı, cəfəng "böyük Ermənistan" ideologiyasının mənfur planlarını, bu, həm də azərbaycanlılara qarşı həyata keçirilən qanlı əməlləri özündə ehtiva edir, gerçəkləşdirənlərdən biri də elə A.Qukasyan olub...

Prokurorun "böyük Ermənistan" ideologiyasına dair sualına cavabında A.Qukasyan bu ideyanı nağıl adlandıraraq qeyd edib: "Çoxdandır "böyük Ermənistan"la bağlı nağıllara inanmıram. "Böyük Ermənistan" ideyası nağıldır. Mən real həyatda yaşayıram, mən heç vaxt buna real yanaşmamışam".

Birincisi, A.Qukasyan "böyük Ermənistan" ideyasına əgər inanmasaydı, Qarabağda qondarma quruma rəhbərlik etməzdi. İkincisi, isə bu cəfəng ideyanın nağıl olması reallığı Azərbaycanın qazandığı Zəfər sayəsində erməni şovinistlərinə də aydın olub. Necə deyərlər, antiterrorr əməliyyatlarından sonra Bakıda istintaq təcridxanasında çay içə-içə ağılları başlarına gələn təqsirləndirilən şəxslər erməni yalanları arxasınca düşüb xalqımıza qarşı cinayət əməlləri törətdikləri günlərin artıq arxada qaldığını görüb məhkəmədə əsl reallıqları etiraf etməyə başlayıblar.

O, Qarabağda məktəbdə rus dilində oxuduğunu, lakin erməni məktəblərinin Azərbaycan və rusdilli məktəblərdən sayca daha çox olduğunu deyib. Qukasyan etiraf edib ki, Qarabağda erməni dili ilə bağlı heç bir problem olmayıb.

O, iş üzrə cinayətkar dəstənin üzvləri kimi adı keçən Zori Balayanla 1993-cü ildə, Vazgen Manukyanla isə 1994-cü ildə tanış olduğunu deyib. Bildirib ki, Robert Köçəryan isə onun rəhbəri olub.

A.Qukasyan dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandırarkən Ermənistanın keçmiş prezidenti Robert Koçaryanla bağlı da danışıb. O, 1988-ci ildə Qarabağda keçirilən qanunsuz mitinqlərdə əsas çıxışçının Arkadi Manveloviç Manuçarov olduğunu bildirərək deyib: "Robert Koçaryanın çıxışları yadımda deyil. Biz rus dilində təhsil aldığımız üçün mənim kimi, onun da ədəbi erməni dili ilə bağlı problemi var idi. Ola bilər ki, o, mitinqin təşkilatçılarından olub, çünki "Krunk" təşkilatının üzvü idi".

Qukasyanın bəhs etdiyi bu həmin "Krunk" təşkilatıdır ki, 1988-ci il fevralın 27-29-da Sumqayıtda SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin erməni millətçiləri ilə birgə Azərbaycana qarşı həyata keçirdiyi təxribatlarda da adı keçir. Belə ki, Sumqayıtda baş verən iğtişaşlarda əsas təşkilatçılardan və icraçılardan olan və bir neçə dəfə məhkum edilmiş Eduard Qriqoryan da ermənilərin "Krunk" cəmiyyətinin üzvü olub. Sumqayıt hadisələrində zərərçəkən ermənilərin əksəriyyəti də həmin terrorçu cəmiyyətə könüllü maddi vəsait köçürməkdən imtina edənlər olub. Şahidlərin ifadələri ilə müəyyən edilib ki, "Krunk" cəmiyyətinə pul köçürən ermənilərin heç birinin evi hücuma məruz qalmayıb.

### Törədilən müharibə cinayətlərinin ifşası

Martın 10-da keçirilən məhkəmə prosesində həmçinin təqsirləndirilən şəxslər Bako Sahakyan, Arayik Harutyunyan, Davit İşxanyan və Davit Babayan dövlət ittihamını müdafiə edən prokurorların suallarına cavab veriblər.

Bako Sahakyan etiraf edib ki, Qarabağda silahlanma haqqında ilk çağırış qanunsuz mitinqlərdə olub. O, kəndlərdə və şəhərlərdə silahlanmanın olduğunu bildirərək qeyd edib: "Silahların bir hissəsi dislokasiya olunmuş sovet hərbi hissələrindən idi. Bundan başqa, Ermənistandan silah tədarükü var idi. Silahlanma ilə bağlı əsas istiqamətlər bunlar idi".

Arayik Harutyunyan dövlət ittihamını müdafiə edən prokurorların suallarına cavabında qanunsuz silahlı birləşmələrin bir hissəsinin adını eşitdiyini qeyd edərək, "Arabo" batalyonundan danışıb: "Sizin saydığınız siyahıdan mən 30 faizinin adını eşitmişdim. "Arabo", "Arami", "böyük Tiqran", "Sasunçi David" haqqında bilirdim. Bilirdim ki, hansısa döyüş əməliyyatlarında iştirak ediblər. Daha çox "Arabo" haqqında bilirəm. Onun komandirlərindən birinin adı Manvel olub. Onunla təmasım 2020-ci ildən sonra başlayıb".

Göründüyü kimi, Bakıda keçirilən sözügedən məhkəmə prosesi zamanı təqsirləndirilən erməniəsilli şəxslər əsl həqiqətləri bir-bir etiraf edirlər. Bu etiraflar həm də Ermənistan, erməni şovinistləri tərəfindən ölkəmizə, xalqımıza qarşı onilliklər boyu törədilən müharibə cinayətlərinin ifşasıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Beynəlxalq səviyyədə cəzasız qalan erməni cinayətkarlığı

Vətən müharibəsindən 4 ildən çox vaxt keçir. 4 il öncə Azərbaycan torpaqlarını zəbt etmiş qəsbkar ölkədən də çox onun havadarlarının yaratdığı maneələri aşaraq böyük Zəfər qazandı. 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində başlayan və 44 gün davam edən Vətən müharibəsi həm də ölkəmiz üçün iki əsrlik gedişatı dəyişdi.

Ermənistan işğal etdiyi Qarabağ və Şərqi Zəngəzuru xarabalığa çevirmişdi. İşğalçı ölkənin silahlı qüvvələri həmin ərazilərimizdən hərbçilərimizi, mülkü insanlarımızı atəşə tuturdular. Havadarları isə sülh danışıqlarına vasitəçilik adı ilə, yalnız işğal müddətini uzatmağa cəhd göstərirdilər. Azərbaycan dövləti və xalqı isə öz ərazilərini düşmənə güzəştə getmək niyyətində deyildi. Prezident İlham Əliyev qətiyyətlə bildirirdi: "Biz Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına imkan verməyəcəyik".

Dövlətimizin başçısı necə demişdisə elə də oldu. Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru işğalçılardan azad etdi. 2023-cü ildə aparılan antiterror əməliyyatı isə işğalçı ölkəyə son zərbəmiz oldu. Azərbaycan Ordusu ölkəmizdən ayağını çəkməmiş bəd xislətli Ermənistan silahlı qüvvələrinin törtöküntülərini və erməni seperatçılarını ərazilərimizdən qovaraq suverenliyimizi bərpa etdi. Bu qələbələr Azərbaycan xalqını ən böyük səadətinə çatdırdı. İşğal tarixlərini könlü qübarlı, gözü yaşlı qeyd edən xalqdan qalib xalqa çevrildik.

Vətən müharibəsindən illər ötsə də, Ermənistan 2020-ci ilin noyabrında imzaladığı üçtərəfli Bəyanata tam şəkildə əməl etmir. Minaladığı ərazilərimzin dəqiq xəritəsini belə vermir. Nəticədə həmin minalar soydaşlarımızın faciəsinə səbəb olur. Və hələ də neçə-neçə azərbaycanlı illərdir ki, Ermənistan silahlı qüvvələri tərəfindən əsir, girov götürülən doğmalarının son taleyindən xəbərsizdir. Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3983 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3977 nəfəri XX əsrin 90-cı illərində, yəni Birinci Qarabağ müharibəsində, 6 nəfəri isə 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində itkin düşüb. İtkin düşmüş 3983 nəfərdən 3209-u hərbçi, 774-ü mülki şəxslərdir.

Bu barədə Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (International Commission on Missing Persons - ICMP) "Azərbaycan Respublikasında itkin düşmüş şəxslərin axtarışı üzrə qiymətləndirmə hesabatı"nın təqdimat mərasimində məlumat verilib. Tədbirdə çıxış edən dövlət komissiyasının katibi Qəzənfər Əhmədov onu da diqqətə çatdırdı ki, itkinlərdən 3698-i kişi, 285-i qadındır. Bu müddət ərzində 1702 nəfər əsir və girovluqdan azad olunmuş şəxs kimi dövlət komissiyasında qeydiyyata alınıb ki, onlardan 419-u hərbçidir: "2020-ci ildə 44 günlük müharibədən və 2023-cü ildə həyata keçirilmiş antiterror tədbirlərindən sonra işğaldan azad edilmiş ərazilərdə itkin vətəndaşlarımıza aid məzar yerlərinin müəyyən olunması, zəruri qazıntı və ekshumasiya işlərinin aparılması Prezident İlham Əliyevin dövlət komissiyasının qarşısına qoyduğu ən ümdə vəzifədir. Bu məqsədlə 2021-ci ilin fevral ayından etibarən həmin ərazilərdə itkin düşmüş şəxslərə aid edilən məzar yerlərinin axtarışı, qazıntısı, ekshumasiya və aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi prosesinə intensiv şəkildə başlanılıb. Son məlumata əsasən, 688 itkin düşmüş şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanıb. Meyit qalıqları 3 istiqamət üzrə müəyyən olunub. İşğaldan azad olunmuş ərazilərdə aparılmış qazıntılar zamanı aşkarlanmış 23 kütləvi məzarlıqdan 187 şəxsə, həmin ərazilərdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri və həyata keçirilmiş digər təxirəsalınmaz tədbirlər nəticəsində 309 şəxsə, Birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş və respublikanın 15 şəhər və rayonunun ərazisində yerləşən 23 qəbiristanlıqda tanınmadan dəfn edilmiş naməlum şəhid məzarlarından 192 nəfərə aid meyit qalıqları ekshumasiya olunub. Həmin vaxtadək aşkarlanmış meyit qalıqlarının məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsi olaraq, Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 165 nəfərin şəxsiyyəti eyniləşdirilərək ictimaiyyətə açıqlanıb, ailələrinə təhvil verilib, qanunvericiliyin tələblərinə və milli-dini ənənələrə uyğun dəfn edilib".

1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və həyata keçirdiyi işğal faktı ilə bağlı ölkəmizin silahlı münaqişəyə cəlb edildiyini və bunun nəticəsində genişmiqyaslı humanitar fəlakətlə üzləşdiyini xatırladan Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini, general-leytenant Şərafət Həsənov açıqladı ki, hərbi əməliyyatlar nəticəsində 19 mindən çox vətəndaşımız öldürülüb və ya itkin düşüb, 65 mindən artıq insan müxtəlif bədən xəsarətləri alıb. 900-dən çox yaşayış məntəqəsi tamamilə dağıdılıb, ərazilərin infrastrukturuna və ekologiyasına 10 milyard dollarlarla ölçülən ziyan vurulub, 10 min hektarlarla ərazi mina və partlamamış hərbi sursatlarla çirkləndirilib.

Münaqişə davam etdiyi müddətdə Ermənistan silahlı birləşmələri tərəfindən etnik təmizləmə və soyqırımı cinayətləri törədildiyini, mülki azərbaycanlı əhalinin kütləvi şəkildə qətlə yetirildiyini, əsir-girov götürüldükdən sonra qeyri-insani şəkildə saxlanılaraq dəhşətli işgəncələrə və məhrumiyyətlərə, humanizm prinsiplərindən kənar rəftara məruz qoyulduğunu qeyd edən rəis müavini bütün bu halların vətəndaşlarımızın itkin düşməsinə və taleyinin bu günə kimi qeyri-müəyyən qalmasına səbəb olduğunu nəzərə çatdırdı: "İtkin düşmüş mülki şəxslərdən 75 nəfəri yetkinlik yaşına çatmamışlar, 116-sı qadın, 315-i isə yaşlı insanlardır. İstintaqla sübut edilib ki, 170 azərbaycanlı əsir Ermənistan silahlı birləşmələri tərəfindən işgəncələrlə öldürülüb. İtkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi yaxın illərdə bizim ən vacib vəzifələrimizdən biridir. Azərbaycan Respublikasının Əsir və itkin düşmüş girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyası tərəfindən qısa müddətdə bu sahədə müəyyən işlər həyata keçirilsə də, bir sıra amillər itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi işinə mane olur. Belə ki, 30 illik işğal dövründə ərazilər mina və partlamamış sursatlarla həddindən artıq çirkləndirilib. Bunun nəticəsidir ki, hərbi əməliyyatlar başa çatdıqdan sonra hazırkı dövrədək həmin ərazilərdə mina partlayışı ilə bağlı 231 hadisə qeydə alınıb, nəticədə 70 nəfər həlak olub, 314 nəfər yaralanıb".

Göründüyü kimi, faktlar olduqca dəhşətlidir. Bunlar erməni vandalizminin, erməni vəhşiliyinin müdhiş nəticələridir. Və o da unudulmamalıdır ki, Ermənistan beynəlxalq səviyyədə məsuliyyətə cəlb edilmədiyi, əməllərinə görə cəzalandırılmadığı üçün bu cinayətləri törədib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Ermənistanın xarici siyasət ideologiyası iflasa uğrayıb

Təxminən yeddi il bundan əvvəl heç nəyi olmayan Paşinyan və ailəsi ötən müddət ərzində Ermənistanda ən varlı insanlara çevriliblər. Postmüharibə dövründə əhalinin gəlirlərinin azalmasına, iş yerlərində ixtisarlara və müəssisələrin bağlanmasına baxmayaraq bu, baş nazirin rifahına təsir etməyib.

Yerli media yazır ki, Qərbin kölgəsində gizlənən Paşinyanın ölkənin ən kasıb baş naziri sayıldığı günlər artıq keçib. 2018-ci ilin yazında o, Ermənistanın yüksək vəzifəli rəsmilərinin etika komitəsinə bir bəyannamə təqdim edib, onun bir il üçün qazancı təqribən 16 min dollar təşkil edib, eyni zamanda bu məbləğin 12 min dolları deputat maaşı hesab olunur.

Bütün bunların fonunda beynəlxalq təşkilatların bu ölkədə korrupsiya faktları ilə bağlı hesabatında bildirilir ki, korrupsiya ilə mübarizə tədbirləri hələ də kağız üzərindən əməli işə keçməyib. Qeyd olunur ki, vergi ödəyiciləri arasında keçirilən rəy sorğusu da bunu təsdiqləyir. Sahibkarlıqla məşğul olmaq istəyənlər külli miqdarda rüşvət ödədiklərindən danışırlar. Onların Paşinyan hökumətinə inamı yoxdur. Ölkədə toplanan verginin korrupsiyaya qurşanmış rəsmilər və məmurlar tərəfindən mənimsənilməsi ilə bağlı çoxsaylı faktlar var. Rəyi soruşulanlar vergi qanunlarının vergi ödəyicisi olan iş adamlarına eyni dərəcədə tətbiq olunmadığını qeyd edirlər. Bildirilir ki, hazırda hakimiyyətdə olan qüvvələrin Ermənistanda son bir neçə onillikdə mövcud olmuş diktaturaya son qoyulduğunu iddia etmələrinə baxmayaraq, ölkədə totalitar rejim hökm sürür və hakimiyyət yalnız özünə yaxın müəyyən çevrələrə dəstək verir.



Baş nazir N.Paşinyanın öz siyasi rəqiblərini təqib etdiyini bildirən media portalları onun həyat yoldaşı Anna Akopyanın qeyri-qanuni kommersiya fəaliyyəti ilə məşğul olmasına dair çoxsaylı məlumatların yayıldığını qeyd edir.

Erməni jurnalist Arman Abovyan "VERELQ" portalında yazıb ki, Ermənistan hakimiyyəti "gizlənmək" qərarına gəlib və "korrupsiyaya bulaşmış rəsmilər"in qanunsuz əldə etdiyi əmlakın "ələ keçirilməsi" ilə bağlı axmaq, gülünc bəyanatlar verməkdən başqa, hələlik heç nə etmir". Onun sözlərinə görə, təmtəraqla "korrupsiyaya qarşı mübarizə" adlandırılan tədbir Ermənistanın indiki hakimiyyətinin həyata keçirdiyi vergi terroru və sosial talanla bağlı insanların sosial narazılığını azaltmaq məqsədi daşıyır.

"Bura təsərrüfat subyektlərinə qarşı müxtəlif cərimələrin geniş tətbiqini də əlavə etsək, vəziyyət daha da ağırlaşır. Bütün bu xaos fonunda Nikol Paşinyan biznes nümayəndələrini dialoqa çağırır. Amma vacib olan bu deyil. Önəmli olan odur ki, Ermənistan əhalisinə rusofobiya aşılamaqdan, Türkiyə-Azərbaycan tandeminə qarşı aşağılayıcı davranışlardan tutmuş, xarici oyunçuların iradəsini itaətkarlıqla yerinə yetirməyə qədər Paşinyan hakimiyyətinin bütün xarici siyasət ideologiyası tamamilə iflasa uğrayıb".

Son günlərdə diqqət mərkəzində olan məsələlərdən biri də Paşinyanın komandasının dövlət büdcəsinə mütəmadi olaraq vurduğu ziyandır. Belə ki, İrəvan şəhərinin meri Tiqran Avinyan Nork rayonunda yeni malikanə alıb. Sövdələşmənin faktiki qiyməti, təbii ki, gizli saxlanılır, lakin malikanə 650 min dollara satılıb. "Oragir.News" nəşri yazıb ki, yeni ev Avinyanın anasının adına rəsmiləşdirilib: "Onu da öyrəndik ki, Avinyan ona bitişik, kommunal əhəmiyyət kəsb edən torpaq sahəsini götürüb və mülkünə əlavə edib. Təxmini hesablamalara görə, bundan sonra malikanənin ümumi dəyəri 800.000 dolları keçir. Yeri gəlmişkən, bu yaxınlarda Norka yeni yol açıldı. O da təsadüfi deyil ki, bu yol merin yeni malikanəsinin yanından keçir".

Belə vəziyyətdə artıq iflic vəziyyətində olan Ermənistan iqtisadiyyatının rəqabətədavamlılıq reytinqi aşağı düşməkdədir. Elə ötən il ərzində ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərə çarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllini tapmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət iqtisadi inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# REGİONLAR

## Qarabağ və Şərqi Zəngəzur işıq sürəti ilə işıqlanır

**Bu gün Qarabağ və Şərqi Zəngəzur bərpa, yenidənqurma və dirçəliş dövrünü yaşayır. Xarabalıqların yerində inşa edilən yaşayış evlərinin, dağıdılmış ərazilərdə qurulan infrastrukturun sayı sürətlə artır, coğrafiyası genişlənir. Doğma yurda köç edən sakinlər üçün yaradılan hər cür şərait onların 30 illik yaralarına məlhəm olur. İşğaldan azad edilmiş ərazilərdə günəşin zərrəsi də bir başqa parlaqlıq verir, al-əlvan işıqlar göz qamaşdırır.**

İşıq demiş, işğaldan azad edildikdən sonra Qarabağa ilk qədəm qoyanlardan biri, bəlkə də birincisi "Azərişıq" ASC oldu. Axı qaranlıq yerləri nurlandıran, zülməti yaran işıq olmasa, Qarabağ və Şərqi Zəngəzurda bərpa, yenidənqurma işləri də aparıla bilməzdi. Ona görə də qələbədən dərhal sonra azad olunan ərazilərdə yeni enerji güc mərkəzlərinin yaradılması, ən müasir texnologiyalardan, məsafədən



dispetçer idarəetmə, elektron tipli rele mühafizəsi və avtomatika sistemlərini tətbiq etməklə 110/35 və 0,4 kV-luq şəbəkələrin qurulması, özünüdaşıyan izolyasiyalı naqillərdən (ÖİN) istifadə etməklə 35 və 0,4 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi üzrə layihələrin hazırlanaraq mərhələli şəkildə həyata keçirilməsi planlaşdırıldı. Lakin nəzərdə tutulanlar yerinə yetirilənədək "Azərişıq" ASC işğaldan azad edilmiş ərazilərdə xüsusi əhəmiyyət kəsb edən strateji obyektlərin elektrik təchizatının təcili təmin olunması üçün "Azərişıq Qarabağda" layihəsinə start verərək təxirəsalınmaz işlər həyata keçirməyə başladı.

Öncə Horadiz yarımstansiyasından qidalanan yeni elektrik xətti çəkildi və onun vasitəsilə Cəbrayıl şəhərində, Hadrut qəsəbəsində yerləşən xüsusi dövlət əhəmiyyətli binalar elektrik enerjisi ilə təmin olundu. Qurumun əməkdaşları cəbhəboyu bölgələrdə düşmənin mülki obyektləri hədəfə alması nəticəsində baş verən qəzaların aradan qaldırılması istiqamətində bərpa işlərini gecə-gündüz operativ şəkildə yerinə yetirməyə başladılar. Qarabağın və Şərqi Zəngəzurun hər bir nöqtəsinin elektrik enerjisi ilə təmin edilməsi üçün "Azərişıq" bütün imkanlardan istifadə etməklə fasiləsiz çalışmağa başladı.

Artıq həmin günləri bizdən 4 il yarımlıq bir zaman kəsiyi ayırır. "Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadə deyir ki, doğma sakinlərinə qovuşan rayon və kəndlərin məhv edilmiş elektrik təsərrüfatı yenilənir, müasir dayaqlar quraşdırılır, elektrik xətləri çəkilir və yeni güc mərkəzləri yaradılır: "Ötən illər ərzində Şuşada Rəqəmsal İdarəetmə Mərkəzi və Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi də daxil olmaqla 35/0,4 kV-luq 7, Daşaltı kəndində isə 35/10 kV-luq yarımstansiya, həmçinin Hadrut qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi, Cəbrayılda isə Rəqəmsal İdarəetmə Mərkəzi istismara verilib".

Xatırladaq ki, 2024-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə iki böyük güc mərkəzinin açılışı olmuşdur. Sentyabrda Kəlbəcərdə 110/35 kV-luq İstisu yarımstansiyası işə salınmış, bir ay sonra Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi açılmışdır. Mərkəz hazırda yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Üstəlik enerjinin əldə olunmasının dəyəri və istismar xərcləri azalır. Ağdam Elektrik Şəbəkəsi və Rəqəmsal İdarəetmə Mərkəzi də istismara hazırdır. Hər üç güc mərkəzi müasir SCADA sistemi ilə təchiz olunub.

Məlumdur ki, Laçında bərpa və yenidənqurma işləri sürətlə aparılır. Artıq bura köç başlayıb. Evinə-eşiyinə sahiblənən sakinlər 30 illik həsrətin acısını unudub işıqlı həyata başlayıblar. Prezident İlham Əliyev ötən il mayın 28-də Laçına növbəti səfəri zamanı aparılan quruculuq işlərindən danışaraq vurğulamışdır: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurlarla eyni səviyyədə olsun".

Prezidentin təbirincə desək, Laçın sakinləri həmin cənnətdə işıqlı günlər keçirmək üçün "Azərişıq" burada da fəaliyyətə başlamışdır. Rayonda müasir yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzi tikilir, 110/35/10 kV-luq Minkənd yarımstansiyasının inşası davam edir, Ağbulaq SES və Minkənd yarımstansiyaları arasında 35 kV-luq ikidövrəli ÖİN xəttinin çəkilişi başa çatmaq üzrədir.

Təbii ki, "Azərişıq" təkcə Laçınla işini bitmiş hesab etmir. Araz Məmmədzadə qurumun işğaldan azad olunmuş digər ərazilərində görülən işlərdən də söz açır: "Xocalıda Xocalı yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi, Əsgəran, Malıbəyli və Sığnaq yaşayış məntəqələrində yarımstansiyaların tikintisi davam edir. Xocavənddə Zoğalbulaq yarımstansiyasının tikintisi və Hadrut Qovşaq yarımstansiyası ilə Zoğalbulaq yarımstansiyası arasında 35 kV-luq ikidövrəli ÖİN xəttinin çəkilişi həyata keçirilir. Ağdam, Füzuli, Cəbrayıl rayonlarında tikintisi davam edən və ya planlaşdırılan yaşayış məntəqələrinin enerji təchizatı üçün müasir transformator yarımstansiyaları inşa edilir, Qubadlıda Rəqəmsal İdarəetmə Mərkəzində tamamlanma işləri aparılır.

Həmçinin Kəlbəcərdə Zallar, Yanşaq, Qamışlı və Çaykənd, Laçında Güləbird, Şəlvə, Ərikli, Kürdhacı, Ağdamda Eyvazxanbəyli, Xocalıda Aşağıquşçu, Yuxarıquşçu, Şuşada Qaybalı, Xocavənddə Hadrut qəsəbəsi, Tuğ və ətraf kəndləri, Füzulidə Dövlətyarlı, Pirəhmədli, Dədəli, Cəbrayılda Horovlu, Şükürbəyli kəndləri və Xudafərin qəsəbəsi, Zəngilan rayonu və Cahangirbəyli kəndi, Qubadlıda Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin xarici elektrik təchizatının təmin olunması məqsədilə 35 kV-luq ikidövrəli ÖİN elektrik verilişi xətlərinin çəkilişi davam edir".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Ağdamda Qasım bəy Zakirin irsi anılmışdır



**Ağdam Muğam Mərkəzində "Qasım bəy Zakir və Qarabağ ədəbi-ictimai mühiti" mövzusunda elmi konfrans keçirilib.**

Ağdam Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, Milli Məclisin deputatı Bəxtiyar Əliyev, AMEA-nın Əlyazmalar İnstitutunun direktoru Teymur Kərimli, filologiya elmləri doktoru, professor, Qasım bəy Zakir irsinin tədqiqatçısı Raquf Kərimov, Xalq şairi Sabir Rüstəmxanlı, Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, idarə, müəssisə və təşkilatların rəhbərləri, Qasım bəy Zakir nəslinin və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Konfrans iştirakçıları öncə Ulu Öəndərin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək ruhuna ehtiramlarını ifadə etmişlər. Sonra görkəmli ədibin yaşadığı Xındırıstan kəndində iştirakçılar tərəfindən müxtəlif ağac və gül kolları əkilmişdir.

Konfransda çıxış edən natiqlər XIX əsr realist Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Qasım bəy Zakirin ədəbi irsinin xalqımızın mədəniyyət xəzinəsinə daxil olmasından, onun yaradıcılığında ana dilimizin imkanlarının dolğun əks etdirilməsindən, Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Qasım bəy Zakirin Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına salınmasından danışmışlar.

Tədbirin gedişində Qasım bəy Zakirin Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aynurə Haşımova tərəfindən çəkilmiş portreti və tədbirdə iştirak edən alimlərin müxtəlif mövzulara aid kitabları rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənova təqdim edilmişdir.

Bədii hissədə Ağdam Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının müşayiəti ilə Əməkdar artist Fehruz Səxavətin, kollecin müəllim və tələbələrinin ifasında müxtəlif musiqi nömrələri səslənmişdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Sumqayıt-Saray körpüsünün istifadəyə verilməsinə çox qalmayıb

**Sumqayıt şəhərini Abşeron rayonunun Saray qəsəbəsi ilə birləşdirən yeni körpünün tikintisi son mərhələyə çatıb. Azərbaycan Prezidentinin sərəncamına əsasən salınan körpünün yaxın zamanda tam istifadəyə verilməsi planlaşdırılır.**



3 aşırımdan ibarət olan yeni körpünün uzunluğu 104, ümumi eni isə 21,6 metrdir. 4 hərəkət zolaqlı olmaqla inşa edilən körpünün hər iki tərəfində piyadaların rahat hərəkəti üçün 2 metr enində səkilər də salınır.

Körpü istifadəyə verildikdən sonra yolda genişləndirmə işləri aparılacaq, piyadaların və nəqliyyatın hərəkətinin rahatlığını təmin etmək üçün əvvəlki yol infrastrukturu yeni körpüyə uyğunlaşdırılacaq. Bununla bağlı qərara alınıb ki, yaxın günlərdə Məhəmməd Əsədov küçəsinin genişləndirilməsi ilə bağlı layihə hazırlansın və icrasına başlanılsın.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Gəncədə akademik Siddiqə Məmmədovanın 100 illiyi qeyd edilmişdir

**Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunda Əməkdar elm xadimi, biologiya elmləri doktoru, akademik Siddiqə Məmmədovanın anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilmişdir.**



Tədbir iştirakçıları əvvəlcə akademikin məzarını ziyarət etmiş, tədbirin keçirildiyi akt salonunun önündə görkəmli alimin həyatı, onun Azərbaycan və dünya elminə göstərdiyi xidmətlərdən bəhs edən sərgi ilə tanış olmuşlar.

AMEA-nın vitse-prezidenti, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru akademik İradə Hüseynova çıxış edərək Siddiqə Məmmədovanın elmi və ictimai fəaliyyətindən söz açmış, alimin gələcək nəsillər üçün örnək olduğunu diqqətə çatdırmışdır.

Sonra Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov akademikin keçdiyi həyat yolundan, elmi fəaliyyətindən bəhs edən məruzə ilə çıxış etmişdir. Bildirmişdir ki, ömrünün 60 ildən çoxunu Azərbaycan elminin inkişafına həsr edən alimin rəhbərliyi ilə institutda 5 elmlər doktoru, 70-dən çox elmlər namizədi hazırlanmışdır.

AMEA-nın Gəncə bölməsinin sədri akademik Fuad Əliyev isə Siddiqə xanımın zəngin irsinin, apardığı tədqiqatların Azərbaycan aqrar elminin inkişafındakı müstəsna rolundan danışmış, görkəmli alimin bütün uğur və nailiyyətlərinin bünövrəsində daim gərgin zəhmətin, aqrar elmin inkişafı yolundakı səmərəli fəaliyyətin və möhtəşəm xidmətlərin durduğunu vurğulamışdır.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru dosent Zəfər Qurbanov çıxışında qeyd etmişdir ki, görkəmli ictimai xadim, yaradıcı və fədakar alim, bitki mühafizəsi sahəsi üzrə keçmiş SSRİ məkanında tanınmış entomoloq, kamil pedaqoq Siddiqə Məmmədova Azərbaycanın böyük elm xadimlərindən biri olmuşdur.

Milli Məclisin deputatı Naqif Həmzəyev, Kənd Təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Birliyinin sədri Fuad Məmmədov, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Genetik Ehtiyatlar İnstitutunun direktoru Zeynal Əkbərov, Gəncə Dövlət Universitetinin kafedra müdiri Vaqif Novruzov, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru Əlövsət Quliyev, Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Faiq Xudayev, Şərur rayon Veteranlar Şurasının sədri Vidadi Süleymanov, Şərur rayon Şəhriyar kənd tam orta məktəbinin tədris hissə müdiri Sevda Seyidova, eləcə də akademikin tələbələri çıxış edərək Siddiqə Məmmədovanın entomoloq alim kimi fəaliyyətindən danışmış, onun yüksək insani keyfiyyətlərə malik olduğunu diqqətə çatdırmışlar.

Sonda akademik Siddiqə Məmmədovanın ailə üzvləri adından oğlu, Dövlət İmtahan Mərkəzinin İdarə Heyəti sədrinin müavini Bəhram Xəlilov çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Naxçıvanda aktiv vergi ödəyicilərinin sayı artıb

### Muxtar respublikada işsizlikdən sığorta haqları üzrə daxilolmalarda da artım qeydə alınıb

**Naxçıvan Muxtar Respublikasında 1 mart 2025-ci il tarixə aktiv vergi ödəyicilərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 15,4 faiz artaraq 20 min 175 təşkil edib.**

Muxtar respublikanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, bu dövrdə aktiv ƏDV ödəyicilərinin sayı isə 12,9 faiz artaraq 561 olub. Aktiv obyektlərin (təsərrüfat subyektlərinin) sayı 4 faiz artıb və 5 min 944 təşkil edib.

Naxçıvan MR ilə bağlı yayılan başqa bir məlumatda bildirilir ki, cari ilin yanvar-fevral aylarında Naxçıvan Muxtar Respublikasında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 7,8 faiz artaraq 652,9 min manat olub.

Həmin dövrdə icbari tibbi sığorta haqları üzrə daxilolmalar 4,4 milyon manat təşkil edib və proqnoz 105,5 faiz icra olunub.

## Yanvarda Araz SES-də 5 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal olunub

**Bu ilin yanvar ayında Araz Su-Elektrik Stansiyasında istehsal edilən enerjinin həcmi açıqlanıb.**

Bu barədə "Trend"in sorğusuna cavab olaraq Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətindən məlumat verilib. Bildirilib ki, bu ilin ilk ayında SES-də 5 milyon 44 min kVt/s elektrik enerjisi istehsal edilib. Xatırladaq ki, ötən il stansiyada istehsal edilən enerjinin həcmi 65 milyon 705 min KVt/saat olmuşdu.

## Lənkəranda 100 şam ağacı əkilib

**Lənkəranda "Konstitusiya və Suverenlik İli" çərçivəsində ağacəkmə aksiyası keçirilib.**

Aksiya Ələt-Astara avtomobil yolunun Şiləvar kəndindən keçən hissəsində təşkil olunub. AZƏRTAC xəbər verir ki, tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin rəsmiləri, müxtəlif idarə və müəssisələrin nümayəndələri, şəhid valideynləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Aksiya iştirakçıları əvvəlcə Şiləvar qəbiristanlığında dəfn olunmuş şəhidlərin məzarlarını ziyarət edib, onların xatirəsini anaraq məzarları önünə gül dəstələri düzüb və ruhlarına dualar oxuyublar.

Tədbir çərçivəsində 100 ədəd şam ağacı əkilib, yeni əkilən ağaclar suvarılaraq dayaqlarla möhkəmləndirilib.

Yaşıllaşdırma tədbirlərinin ilboyu davam etdirilməsi nəzərdə tutulur.





# Vətən deyəndə...





Tarix yazan oğullar

# Yaddaşlarda cəsur döyüşçü kimi qaldı

**Tarixdə həmişə belə olub. Düşmən yurda hücum edəndə Vətən, torpaq qeyrəti çəkən oğullar qısa vaxt ərzində silaha sarılaraq onun müdafiəsinə atılıblar. Ölkəsinin azadlığı uğrunda ölümün gözünə dik baxaraq qorxmadan, cəsarətlə, hünərlə vuruşublar. Sonda düşmənə qalib gəliblər, zəfər çalıblar.**



27 sentyabr 2020-ci ildə erməni işğalçıları təxribat törədərək ölkəmizin yeni ərazilərini qəsb etmək üçün qəflətən ordumuzun ön mövqelərinə hücum etdilər. Bu hücum nəticəsində İkinci Qarabağ müharibəsi başladı. İllərdən bəri susmuş silahlar bir günün içində dilə gəldi. Yurda düşmən hücumu xəbərini eşidən Vətən qeyrəti çəkən oğullar könüllü olaraq torpaqlarımızın müdafiəsinə yollandılar. Uzun illər erməni işğalında qalmış ərazilərimizin azadlığı uğrunda müharibə gedən günlərdə könüllü olaraq döyüşə gedənlərdən biri də Cavid Mikayıl oğlu Həsənov oldu.

## Anası oğlu ilə fəxr edir

Düşmən üzərində zəfər çalmaq, uzun illərdən bəri erməni işğalında inləyən torpaqlarımızı azad etmək arzusu ilə yaşayan əsgər Cavid Həsənovun ilk döyüşü Füzuli rayonu uğrunda oldu. Düşmən uzun illərdən bəri bu istiqamətdə xeyli möhkəmləndiyinə, keçilməz istehkamlar qurduğuna görə çox gərgin döyüşlər getdi. Amma qəsbkarlar bu istiqamətdə nə qədər möhkəmlənsələr də, ciddi müqavimət göstərsələr də, qüdrətli Azərbaycan Ordusunun qarşısında uzun müddət dayana bilmədilər. Bir neçə gün davam edən qanlı döyüşlərdən sonra yağıların ön xətt istehkamları yarıldı, müqavimətləri qırıldı. Zəfərə, qələbəyə gedən yollar açıldı. Azərbaycan əsgəri düşmənə sarsıdıcı zərbələr vura-vura irəliləməyə başladı.

Bir müddətdən sonra Cavidgili Xocavənd rayonuna apardılar. Həmin günlər bu istiqamətdə də gərgin döyüşlər gedirdi. Təəssüflər ki, Cavidin döyüş yolu qısa oldu, Qarabağ uğrunda başlanan döyüşlərdə sonadək vuruşa bilmədi. Oktyabr ayının 20-də Xocavənd rayonu uğrunda gedən döyüşlərdə şəhid oldu.

Vətən müharibəsində göstərdiyi igidliyə və cəsarətə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Cavid Mikayıl oğlu Həsənov "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medallarına layiq görüldü.

Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə Vətənin azadlığı naminə canından keçmiş Cavid Həsənov 6 mart 1993-cü ildə Bakı şəhərində dünyaya göz açmışdı. 1999-cu ildən 2006-cı ilə qədər Bakının Nizami rayonundakı V.Sadıqov adına 214 nömrəli tam orta məktəbdə oxumuşdu. Dərslərindən də həmişə yüksək qiymət almışdı. Nizam-intizamı, tərbiyəsi ilə həm şagird yoldaşlarının, həm də müəllimlərinin hörmət və rəğbətini qazanmışdı. Daha çox oxumaq, biliklərə dərindən yiyələnmək üçün 2006-cı ildən 2010-cu ilə qədər təhsilini Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Liseydə davam etdirmişdi. Hazırlığı yüksək olan Cavid imtahanlarda yüksək nəticə göstərərək 2010-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasına qəbul olmuşdu. 2014-cü ildə ali təhsilini uğurla başa vurmuşdu. Azərbaycan Dövlət Neft Akademiyasını bitirdikdən sonra 2014-cü ildə ordu sıralarına çağrılmışdı. Vətən qarşısındakı övladlıq borcunu cəbhə bölgəsində yerləşən hərbi hissədə uğurla yerinə yetirərək alnıaçıq, başıuca doğmalarının yanına qayıtmışdı.

Cavidin ürəyi arzu və istəklərlə dolu idi. Bu arzuların qanadında o, 2016-cı ildən SOCAR AQŞ LLC-də köməkçi işçi vəzifəsində işləməyə başladı. Gözlənildiyi kimi, ilk addımları uğurlu oldu. Cavid Həsənov 2018-ci ilə qədər bu işdə çalışdı. Onun ömür yolu həmişə üzü yüksəlişə doğru gedirdi. Aldığı təhsil, qazandığı təcrübə hər addımda onun əlindən tuturdu. İngilis və rus dillərini sərbəst bilən Cavid 2018-2019-cu illərdə "EasyDrill" LLC-də qazma mühəndisi, 2019-2020-ci illərdə isə National Oilwell Varco LLC-də qazma həlləri üçün mühəndis vəzifələrində işləmişdi. Erməni təxribatı nəticəsində torpaqlarımızın azadlığı uğrunda müharibə başlayanda isə döyüşlərə, yurdumuzun müdafiəsinə yollanmışdı.

## Həm təhsildə, həm işində fərqlənən Cavid döyüşlərdə də uğur qazandı

Anası Mirvari Həsənova söhbət zamanı oğlunun ömür və döyüş yollarından ətraflı söz açdı. Bildirdi ki, Qarabağ müharibəsi başlayanda Cavid dedi ki, "ana, çoxdan gözlədiyimiz gün gəlib çatdı. Ermənilər ölkəmizin yeni ərazilərini işğal etmək məqsədilə hücuma keçiblər, müharibə başlayıb. Bu gün qisas günüdür. Torpaqlarımızı erməni işğalçılarından azad etməli, şəhidlərimzin qisasını almalıyıq". Cavid döyüşlərə bu amalla, bu məqsədlə yollandı. "Müharibəyə gedən ilk günlərdən oğlum tez-tez zəng edir, iştirakçısı olduğu döyüşlərdən danışırdı. Bizi nigarançılıq içində qoymazdı. Səsini eşidəndə sevinirdik ki, Cavid sağ-salamatdır, ermənilərə qarşı döyüşür, vuruşur. Oğlum zəng edəndə düşmənlərə vurduqları sarsıdıcı zərbələrdən də, qazandıqları zəfərlərdən də həvəslə söz açırdı. Deyirdi ki, "ana, yağıları geri sıxışdıra-sıxışdıra işğalda saxladıqları torpaqlardan geri qovuruq. Bütün döyüşlərdə uğur qazanırıq. Belə uğurlu döyüşlərlə qısa müddət ərzində Qarabağı ermənilərdən azad edəcəyik". Oğlumun sözləri bizi çox sevindirirdi. Tezliklə döyüşlərin başa çatacağını, Qarabağın ermənilərdən azad olunacağını gözləyirdik. Cavid də əsgər dostları kimi döyüşlərdə böyük hünər və qəhrəmanlıq göstərərək Zəfəri addım-addım yaxınlaşdırırdı. Belə gözəl arzu və diləklərə kökləndiyimiz bir vaxtda, oktyabrın 20-də qapımızı şəhid xəbəri döydü. Təəssüflər ki, oğlumun döyüş yolu qısa oldu. Cavid həmin gün Xocavənd rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmişdi. Oğlumu göz yaşları içində İkinci Şəhidlər xiyabanında torpağa tapşırdıq..."



Mirvari xanımın gözləri yaşarır, səsi titrəyir. Az keçmiş özünə gələn şəhid anası sözünə davam edərək deyir: "Ana kimi Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıq göstərmiş oğlumla fəxr edirəm, qürur duyuram. O, cəsur, qəhrəman bir əsgər kimi torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid oldu".

## Düşməndən şəhidlərin qisasını aldı

Söhbət zamanı öyrəndik ki, şəhidin atası Mikayıl Həsənov Birinci Qarabağ müharibəsində iştirak edib. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə ön sıralarda vuruşub. Döyüşlər zamanı yaralanıb. Yaraları ağır olduğuna görə bir daha cəbhəyə qayıda bilməyib. İkinci qrup Qarabağ müharibəsi əlilidir. Oğlunu xatırlayan Mikayıl Həsənov dedi: "Cavid çox vətənpərvər uşaq idi. Demək olar ki, məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edirdi. Qəhrəmanlığı tərənnüm edən şeirlər söyləyirdi. Mənə tez-tez Qarabağ müharibəsi ilə bağlı suallar verirdi. Harada, necə döyüşdüyümlə yaxından maraqlanırdı. Mən də bütün təfsilatı ilə keçdiyim döyüş yollarından ona danışırdım. Cavid söhbətlərə böyük maraq və həvəslə qulaq asırdı. Maraqla dinlədiyi bu söhbətlər onun vətənpərvər ruhda böyüməsinə müsbət təsir göstərirdi. Müharibədən, döyüşlərdən bəhs edən filmlərə baxmaqdan doymazdı. Oğlum vətənpərvər olması ilə yanaşı, dərslərini də yaxşı oxuyur, yüksək qiymətlər alırdı. Bu, bizi sevindirir, ürəyimizi açırdı. Arzusuna çatıb ali məktəbə qəbul olanda sevinci yerəgöyə sığmırdı. Ali təhsilini uğurla başa vurandan sonra böyük həvəslə ordu sıralarına, əsgəri xidmətə yollandı. Cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət edirdi. Hərbi andı qəbul etdiyi gün həyat yoldaşımla birgə onun yanına getmişdik. Andiçmə mərasimi başa çatandan sonra onu qucaqlayıb bağrımıza basdıq. Vətənin əsgəri kimi hərbi andı qəbul etdiyinə görə elə fərəhlənirdi ki! Bu sevinc, bu fərəh onun gözlərindən aydın oxunurdu. Deyirdi ki, "ata, bir neçə gün əvvəl bizi təlim mərkəzinə aparmışdılar. Avtomat silahından hədəfə atəş açırdıq. Bu silahdan ilk dəfə atəş açmağıma baxmayaraq, hədəfi dəqiq vururdum. Komandirlərimiz deyirlər ki, andiçmədən sonra bizə təlim keçib, silahların sirlərini daha da dərindən öyrədəcəklər. Çalışacağam ki, döyüş vərdişlərini, silahların dilini daha da dərindən mənimsəyim, seçilən əsgərlərdən olum". Cavid verdiyi sözə kişi kimi əməl etdi. Xidməti ərzində silahların sirlərini, döyüş vərdişlərini mükəmməl öyrəndi. Torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayandı. Vətən qarşısındakı övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirdi. Təəssüflər olsun ki, oğlumun döyüş yolu elə də uzun olmadı. Amma istəyinə çatdı, arzusuna yetdi. Torpaqlarımızın azadlığı naminə qəhrəmancasına döyüşdü. Özü şəhid olsa da, düşmənlərdən şəhidlərimizin intiqamını aldı. Oğul itirmək ağır dərddir, böyük itkidir. Yeganə təsəllimiz Cavidin torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmasıdır. Çünki şəhidlər ölmürlər, əbədiyyətə, ölməzliyə qovuşurlar. Cavid də əbədiyyətə qovuşanların sırasındadır".

## Cavid daim xatirələrdə və yaddaşlarda yaşayacaq

Tələbə yoldaşı Həmid Əhmədli dostunu xoş sözlərlə xatırlayaraq dedi ki, Cavid çox gülərüz, mehriban, xeyirxah və qayğıkeş bir oğlan idi: "Dörd il bir yerdə oxumuşduq, dost olmuşduq. Cavid təkcə mənə deyil, bütün tələbə yoldaşlarına xoş münasibət göstərir, ağıllı məsləhət və tövsiyələr verirdi. Dərslərini də çox yaxşı oxuyurdu. Hazırlığı, bacarığı yüksək olduğuna görə həmişə yaxşı qiymətlər alırdı. Döyüşlərə yollandığını bilirdik. Onu da bilirdik ki, dərslərində olduğu kimi, Cavid döyüşlərdə də mütləq fərqlənəcək. Azərbaycan əsgəri adına böyük şərəf gətirəcək. Şəhid olduğunu eşidəndə çox kədərləndik, gözümüz yaşla doldu. Cavidin ölümü bizim üçün ağır və gözlənilməz oldu. Bu itkinin yerini heç nə doldura bilməz. Amma nə edəsən ki, tale yazısını dəyişmək mümkün deyil. Müharibədə hər şey gözləniləndir, ölüm-itim qaçılmazdır. Unutmayaq ki, Zəfər həmişə qeyrətli, cəsur oğulların qəhrəmanlığı ilə qazanılır. Cavid də xalqımızın igid oğullarından biri idi. Biz, tələbə yoldaşları, dostları onu heç vaxt unutmayacağıq. Cavidi həmişə mehriban, gülərüz bir insan, cəsur, qorxmaz bir döyüşçü kimi xatırlayacağıq. Tez-tez Şəhidlər xiyabanına gedir, onun məzarını ziyarət edirik".

Cavid kimi qorxmaz, igid, qəhrəman oğullar daim ürəklərdə yaşayacaqlar. Şəhidlər daim hörmətlə xatırlanacaq, ehtiramla anılacaq. Onların məzarlarının üstündən qərənfillər, tər çiçəklər heç vaxt əskik olmayacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Dövlət siyasəti

# Həssas təbəqəyə xüsusi münasibət

## Goranboyda da şəhid ailələri və qazilərə diqqət və qayğı ilə yanaşılır



**Goranboy hələ Birinci Qarabağ müharibəsi dövründən qəhrəman rayon kimi tanınmışdı. Vahid komandanlığın olmadığı zamanlarda Goranboy əhalisi əliyalın, ən yaxşı halda ov silahları ilə düşmən qarşısına çıxmış, qəhrəmanlıq və şücaət göstərərək düşmənə nəinki torpaq verməmiş, hətta Aşağı Ağcakənd qəsəbəsini (keçmiş Şaumyankənd rayonu ərazisini) düşməndən azad etmişdir.**

Həmin döyüşlərdə Goranboyun 9 sakini Milli Qəhrəman, İkinci Qarabağ savaşında isə bir goranboylu Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdür. Təkcə Birinci Qarabağ müharibəsində rayon 289 şəhid vermişdir. Sonrakı illər də itkisiz ötüşməmişdir. Aprel döyüşlərində bir, 44 günlük Vətən müharibəsində 56, 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarında düşmən təxribatının qarşısının alınması zamanı 3 və 2023-cü ilin antiterror əməliyyatı zamanı 2 şəhid verən Goranboyun ümumilikdə 353 şəhidi və 231 qazisi var.



İstər rayon icra hakimiyyəti, istərsə də rayon sakinləri adları Vətən tarixinə yazılmış bu qəhrəmanları böyük hörmətlə anır, onlara xüsusi diqqətlə yanaşırlar. Şəhid ailələri və müharibə əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə rayon icra hakimiyyəti tərəfindən xüsusi komissiya yaradılmışdır. Ayrı-ayrı günlərdə hər bir şəhid ailəsi və şəhidlərin məzarları ziyarət olunur, şəhid ailələrinin və qazilərin sosial qayğıları öyrənilir, yerli icra orqanları tərəfindən həlli mümkün problemlər operativ həll edilir, həlli mümkün olmayan məsələlər isə aidiyyəti üzrə mərkəzi icra orqanlarına göndərilir. İndiyəcən şəhid ailələri və müharibə iştirakçılarına onların müraciətləri əsasinda və bayram tədbirlərində ümumilikdə 800 min manatlıqdan çox maddi kömək göstərilmişdir. Bundan əlavə, şəhidlərimizin il mərasimləri və doğum günlərində onların məzarları ziyarət olunur. Rayonda yerləşən hərbi hissədə də Goranboy Rayon İcra Hakimiyyəti tərəfindən şəhid ailələri və hərbçilərimizlə birlikdə silsilə tədbirlər təşkil edilir.

Şəhidlərin adlarının əbədiləşdirilməsinə gəldikdə indiyəcən 79 yaşayış məntəqəsində 305 küçəyə, rayon ərazisində yerləşən 42 orta məktəbə, 11 körpələr evi-uşaq bağçasına, 5 mədəniyyət evinə, Dəliməmmədli şəhərində yerləşən Pambıqtəmizləmə zavoduna, Qızılhacılı qəsəbə və Xanqərvənd kənd xəstəxanalarına, 2 musiqi məktəbinə, tibb məntəqəsinə və kitabxanaya şəhidlərin adları verilmişdir. Eyni zamanda Goranboy şəhərindəki "Şəhidlər xatirə kompleksi", Xanqərvənd kənd "Şəhidlər abidəsi", Dəliməmmədli şəhər "Şəhidlər xatirə və bulaq komleksi" əsaslı şəkildə yenidən qurulmuşdur. Ümumilikdə rayonun 46 yaşayış məntəqəsində 102 Şəhidlər xatirə kompleksi inşa edilmişdir.

Goranboy rayonu ərazisində yaşayan imtiyazlı şəxslərin müraciətləri əsasında ümumilikdə 610 nəfər mənzil növbəsinə alınmışdır ki, onlardan da 315 nəfəri şəhid ailəsi və müharibə əlilidir. 61 şəhid ailəsi və 85 müharibə əlili olmaqla, ümumilikdə 146 nəfər fərdi yaşayış evi və ya mənzillə təmin olunmuşdur. Amma bunlar da hələ hamısı deyil. Şəhid ailələrinin müraciətləri əsasında onlara uyğun olan yerlərdən 300 hektar örüş, 4,69 hektar sahibkarlıq fəaliyyəti və 19,59 hektar həyətyanı təyinatlı torpaq sahələrinin verilməsi təmin olunmuşdur. Digər bir fakt dövlət başçısının sərəncamı ilə əkin sahələrinin suvarılması məqsədi ilə Goranboy rayonu üçün 31 subartezian quyusunun, onlardan 17-nin şəhid ailələrinin əkin torpaq sahələrinin yaxınlığında qazılmasına qərar verilməsidir. Artıq həmin artezianlardan bir neçəsi istifadə olunur.

Şəhid ailələrinin, eləcə də müharibə əlillərinin işlə təminatı da daim diqqət mərkəzindədir. Son bir neçə ildə 150-dən çox şəhid ailə üzvü və qazi müxtəlif sahələrdə işlə təmin edilmiş, 100 nəfərdən artıq şəhid ailəsi üzvü və müharibə əlili özünüməşğulluq proqramı çərçivəsində qaramal və davarla, eləcə də müxtəlif sahələr üzrə avadanlıqlarla təmin olunmuşlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Azad həmişə xatırlanacaq

**Bu gün Birinci Qarabağ müharibəsinin iştirakçısı, şəhid Azad Zeynalovun doğum günüdür. O, Vətənin düşmənlərdən təmizlənməsini, onun işğaldan azad olunmasını çox arzu etsə də, bunu görmək ona nəsib olmadı.**



Onun ömür payına cəmi 27 il yaşamaq düşdü. Azad Vətəni, onun azad olunmasını çox istəyirdi. Elə bu məqsədlə də silaha sarılmışdı...

Azad Zeynalov 1967-ci il martın 11-də Neftçala rayonunun Dördlər kəndində anadan olub. Hazırkı Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirib, "Azərneft"də əmək fəaliyyətinə başlamışdı. Vətənin çağırışına könüllü olaraq getmişdi. Subay idi.

1994-cü il fevralın 2-də Ağdərənin Şəhriyar yüksəkliyində döyüş yoldaşlarını xilas edərkən şəhid olub.

İndi onun ruhu gec də olsa, yəqin ki, rahatlıq tapıb. Bu gün Qarabağ torpağı öz azadlığına qovuşub, onun sinəsindən erməni vandallarının izləri silinib. Azad da bu yolda canını fəda edən digər şəhidlər kimi ana torpağın qucağında əbədiyyət yuxusuna gedib. O, bu müqəddəs yolda şəhid olan döyüşçülər kimi heç vaxt unudulmayacaq, həmişə xatırlanacaq...

Həm də təkcə doğum günündə yox...

# Hərbi vəzifəlilərin təlim toplanışı davam edir

**Müdafiə Nazirliyinin cari ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə keçirilən tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağrılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı davam edir.**



Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, təsdiq olunan tədris proqramına və günün nizam qaydalarına müvafiq olaraq, toplanışa cəlb edilən heyətlə sıra və fiziki hazırlıq üzrə məşğələlər keçirilir.

Plana əsasən, ehtiyatdan çağrılmış hərbçilərlə milli mənəvi dəyərlərimizə bağlılığa və onların qorunmasına dair maarifləndirici söhbətlər aparılır, müxtəlif mövzularda dərslər keçirilir. Toplanış müddətində həmçinin hərbi vəzifəlilərə Azərbaycan Ordusunun arsenalında olan müasir silah və hərbi texnikaların taktiki-texniki xüsusiyyətləri, istismar qaydaları, həmçinin effektiv döyüş tətbiqi üsulları öyrədilir.

Toplanışın əsas məqsədi ehtiyatdan çağrılan hərbi vəzifəlilərin döyüş hazırlığının, bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi, praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də onlara yeni hərbi biliklərin aşılanmasıdır.

Jurnalist araşdırması

# Zəruri olmayan əməliyyata nə hacət?

## Dünyaya "rəngli baxmaq" istəyənlərin həyat riski bəzən çox ağır başa gəlir

**Bugün dünyada trendə çevrilən estetik əməliyyatlara müraciət edənlərin sayı artmaqdadır. "Gözəllik qurban tələb edir" prinsipi ilə lüzumsuz yerə bıçaq altına düşənlər heç də az deyil. Uğursuz nəticələr bəzən onların həyatları bahasına başa gəlir. Bununla belə, dünya işığından məhrumolma riski altına düşənlər sanki "şir ürəyi yeyib"lər.**

Söhbət son bir neçə ayda Azərbaycanda məşhurlaşan FLAAK (Femto Laser Aesthetic Annular Keratopigmentation) texnikası ilə göz rəngini dəyişdirmə əməliyyatından gedir. Bu texnikanın 2010-cu ildən estetik məqsədlər üçün tətbiqinə başlanılıb. FLAAK metodunda korneanın səthində mikrotunellər yaratmaq üçün "Femtosecond" lazer istifadə edilir və bu, tunellərə biouyğunluqlu piqmentlər yerləşdirməklə həyata keçirilir.

Azərbaycanda əməliyyatın icra olunacağı ilə bağlı elanın paylaşılmasından sonra bu prosedura müxtəlif yanaşmalar ortaya çıxdı. Bəziləri ölkəyə gətirilən bu yenilikdən sevindi, bəziləri isə birmənalı olaraq bunu qınadı. Bir də topa-tüfəngə tutmadan, həm də küyə getmədən tibbin yeniliyi baxımından sevinib, bununla yanaşı, təhlükələrindən də söz açıldı. Beləliklə, kimi ürəyi istəyəni, kimisi ağlından keçəni, kimisi də elə sözün həqiqi mənasında ağzına gələni yazdı.

Biz isə əməliyyat barədə danışılanları nəzərə alaraq onun doğurduğu suallara cavab tapmaq üçün Azərbaycanda bu əməliyyatı ilk icra edən oftalmoloq Cahid Şahbazova müraciət etdik. Lakin bizə heç bir səbəb göstərilmədən həkimin razılıq vermədiyini bildirdilər. Ona görə də ilk olaraq həkimin əməliyyata ilk başladığı vaxtlarda paylaşdığı fikirlərə diqqət çəkməyə qərar verdik. Həkim qeyd edib ki, FLAAK əməliyyatı korneanın boyanmasıdır ki, bu da bir növ estetik tatuaj əməliyyatıdır: "Korneal tatuajın ən az 13 illik tarixi var. FLAAK texnikası gözün içinə hər hansı bir müdaxilə etmədən yalnız korneanın səthində işləyir. Bu, gözdaxili fəsadların - qanama, infeksiya, retina qopması və qlaukomanın qarşısını alır. Əməliyyat təxminən 30-45 dəqiqə çəkir və damcı keyitməsi ilə aparılır, buna görə ağrısız keçir. Təklif olunan rəng çeşidi istəyə uyğun mavi, yaşıl, qəhvəyi, boz rəng və çalarlarından ibarətdir".

### Rəngli göz sevdalıları

Cahid Şahbazov həmçinin "gözün kor olacaq", "mirvari və ya qara su yaranacaq" iddiası ilə çıxış edən həkim həmkarlarına da cavab verib. O bildirib ki, FLAAK əməliyyatından sonra mirvari suyu və ya qara su yaranma ehtimalı yoxdur. Gözün içinə daxil olunmadığından gözün qüzehli qişasına və yaxud bülluruna, yəni mirvari suyuna heç bir zədə dəymir, əməliyyat təsirsiz keçir. Bu müasir, son nəsil boyalar göz üçün təhlükəsizdir. Aparılan araşdırmalar göstərib ki, boya içərisində virus bakteriyalarının inkişafı mümkün deyil. "Dolayısı ilə bu əməliyyat zamanı gözə mikrob düşmə ehtimalı digər əməliyyatlarda olduğundan yüksək deyil. Amma bütün göz əməliyyatlarında müəyyən fəsadların ortaya çıxması təhlükəsi olduğu kimi bu əməliyyatda da ola bilər. Amma FLAAK texnikası ilə icra olunan bu əməliyyatda ehtimal daha azdır, çünki gözə daxil olmuruq".

Həkim əməliyyatdan sonra korlaşma ehtimalının da olmadığını vurğulayır. Onun sözlərinə görə, eynəkdən qurtulma əməliyyat növündə olduğu kimi, ilk 3 gündə işıqdan qorxma, sulanma, göz şişməsi və bulanıq görmə şikayətləri ola bilir. "Bu şikayətlər şiddətli formada 2-3 gün davam etsə də, əməliyyatın üçüncü günündən sonra 90 faiz azalır. Lakin əməliyyat öncəsi görmənin bərpası bəzi pasiyentlərdə 2-3 həftə və ya 1 aya qədər çəkə bilər. Bu da əməliyyatın texniki icrasına bağlıdır. Zaman içində bu, tamamilə bərpa olur".

Rəngin qalıcılığı ilə bağlı isə C.Şahbazov qeyd edib ki, qəhvəyi rəngli gözləri mavi və ya yaşıl rənglə boyadıqda onların bir də qəhvəyi olma ehtimalı yoxdur. Yəni ümumilikdə pasiyentin seçdiyi göz rəngi qalıcıdır. Amma bəzi rəng seçimləri, məsələn, su mavisi zamanla boz rəngə doğru yerini dəyişə bilər. Amma bu, rəng deyil, çalar fərqidir. Bu da Günəş işığından, digər faktorlardan asılı olaraq bədəndəki kollagenin tərkib strukturuna bağlı olaraq dəyişikliyə uğramasıdır.

FLAAK keratopiqmentasiyada ən son və təhlükəsiz üsul olmaqla hazırda dünyanın 10-a yaxın mərkəzində icra olunur. Elə bu məlumat da həkimin özünə aiddir.

Amma təhlükəsiz hesab olunan bu əməliyyatın belə az mərkəzdə icrası da istər-istəməz müəyyən şübhələr yaradır. Nəzərə alsaq ki, hətta göz rəngini dəyişdirmə əməliyyatının inkişaf etmiş ölkələrdə qanunla qadağan edilməsi ilə bağlı fikirlər də səsləndirilir.

Bəzi xarici mənbələrdə keratopiqmentasiya kifayət qədər elmi dəlil olmadan ortaya çıxan qeyri-ənənəvi cərrahiyyə üsulu hesab edilir. İndiyədək bu prosedur gözlərin görünüşünə təsir edən patalogiyalar olduqda xəstələrin kosmetik görünüşünü yaxşılaşdırmaq üçün istifadə olunurdu. Bu baxımdan hər kəsə məsləhət görülən üsul deyil. Geridönməz cərrahi müdaxilə olduğu üçün riskləri də var. Buna görə də oftalmologiya mütəxəssislərinin əksəriyyəti sağlam gözlərdə rəngdəyişdirmə üsullarını tətbiq etməkdən çox çəkinirlər, çünki bu, uzun müddətdə piqmentlərin təsirini bilmək üçün kifayət qədər elmi dəlillərə malik olmayan bir texnika üsuludur. Qlobal səviyyədə oftalmologiya akademiyaları və cəmiyyətləri tərəfindən buna icazə verilmir və ya təsdiq edilmir. Əsas təhlükələrdən biri isə gözdə ağrı, şişkinlik, bulanıq görmə və hətta daimi görmə itkisinə səbəb ola bilən göz infeksiyasıdır. Bundan başqa, bir sıra göz xəstəliklərinin də yaranmasına rəvac verə bilər. Bu xəstəliklərə fotofobi və ya işığa həssaslıq, katarakta, qlaukoma, üveit, kornea şəffaflığının, görmə qabiliyyətinin itirilməsi və allergik reaksiyalar daxildir.

Sağlam gözlərdə keratopiqmentasiyanın tətbiqi gələcəkdə katarakta və ya torlu qişa əməliyyatlarına mane ola bilər. Çünki tətbiq olunan piqment trabekulanı tıxayaraq nəticədə piqmentar qlaukoma əmələ gəlir. Buna görə inkişaf etmiş ölkələrdə bu prosedur geniş yayılmayıb.

### 10 min manatlıq xərc tələb edir

Daxili İşlər Nazirliyinin məlumatına görə, biometrik şəxsiyyət vəsiqəsinin göstəricilərinə əsasən, şəxsin üz quruluşunu və ya göz rəngini dəyişdirməsi onun kimliyini müəyyən etməkdə maneə yaratmır.

C.Şahbazov da qeyd edib ki, FLAAK estetik əməliyyatdır, yəni zəruri əməliyyat deyil. Amma görünən odur ki, insanlar belə rahatlıqla cərrahiyyə proseduruna üz tuturlarsa, demək ki, bunu özləri üçün zəruri hesab edirlər. Doğrudur, insanların seçimlərinə, "zövq"lərinə hörmətlə yanaşmaq, dəbə uyğunlaşmaq lazımdır. Amma dəb də dəb ola...

Məsələyə dini aspektdən yanaşanların da sayı az deyil. C.Şahbazov bu tip rəy yazanlara belə cavab verib: "İnsanın göz rənginin, saçının və digər dəyişiklikləri tamamilə öz seçimidir. Digər şəxslərin fikrinin burada əhəmiyyəti yoxdur. Xüsusilə estetik proseslərdə ikinci insanın fikrini almağa ehtiyac yoxdur. Allahın işinə qarışmaq doğru deyil kimi fikirlər absurddur və heç kimin bu məsləhətə ehtiyacı yoxdur".

Araşdırma apardığımız zaman FLAAK əməliyyatı etdirən türkiyəli xanımın paylaşımı qarşımıza çıxdı. Xanım əməliyyat barədə məlumat verirdi, amma rəylərin, demək olar ki, böyük əksəriyyətində bu prosedurun əleyhinə fikir bildirilirdi. Eyni zamanda türkiyəli oftalmoloqlar da əməliyyatın riskli olduğunu, hətta pul verilsə belə bunu icra etməyəcəklərini, eyni zamanda heç kəsə tövsiyə etmədiklərini yazırlar.

Hazırda Azərbaycanda keratopiqmentasiya əməliyyatı icra edən yalnız Cahid Şahbazov deyil. Cərrah-oftalmoloq Mədinə Fərziyeva göz rənginin dəyişdirilməsi üzrə ən müasir texnologiyalar sahəsində xaricdə təlim keçərək beynəlxalq sertifikatlarla təltif olunub və artıq bu əməliyyatı ölkəmizdə icra edir. Onun çalışdığı klinikadan əməliyyatın qiyməti barədə bir müddət əvvəl aldığımız məlumatda qeyd olunur ki, əməliyyat tam ağrısız və təhlükəsiz şəkildə, bu prosedur üçün təsdiqlənmiş "VisuMax 500" cihazı ilə həyata keçirilir. Proses təxmini 40-50 dəqiqə davam edir. İlkin konsultasiyalar tam ödənişsizdir. Həkim qəbulu zamanı arzulanan göz rəngi xüsusi simulyasiya proqramı vasitəsilə təqdim olunur. "Düşünmək üçün bir həftə vaxt verilir. Qərar qəbul olunandan sonra əməliyyat üçün uyğun gün təyin edilir. Əməliyyatın qiyməti rəng seçimindən asılı olmayaraq, "VisuMax 500" aparatı ilə hər iki göz üçün 9900 manat təşkil edir", - deyə məlumatda bildirildi.



Qeyd olundu ki, FLAAK əməliyyatının endirimli qiyməti isə 7 min manatdır. Öyrəndik ki, Cahid Şahbazov da hazırda əməliyyatı endirimlə 8 min manata edir.

Əməliyyat qiymətinin də aşağı olmadığını nəzərə alsaq, göz rəngini dəyişənlərin hər mənada "risk"ə getdiyini deyə bilərik. Bu yerdə "demokratiyada çarə tükənməz" deyimi yada düşür. Tatuajdansa, daha təhlükəsiz üsul, cürbəcür rəngli kontakt linzalardan alıb istifadə etmək olar axı. Nəticədə həm o boyda prosedura ehtiyac qalmaz, həm də pul cibdə qalar. Özü də söhbət 1-2 min manatdan deyil, on min manatdan gedir.

### Estetik tələbat, yoxsa psixoloji faktorlar?

Son illərdə insanların tez-tez estetik əməliyyatlara üz tutmasının və üzərlərində müxtəlif dəyişikliklər etməsinin səbəblərini öyrənmək üçün Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmovun fikirlərini də aldıq.

Psixoloq qeyd edir ki, FLAAK göz rəngini dəyişdirmək üçün bir texnologiya kimi təqdim edilsə də, bu əməliyyata müraciət edən insanların əsas motivasiyaları təkcə estetik tələbatla məhdudlaşmır. Bu tendensiyanın arxasında müxtəlif psixoloji faktorların olduğunu da söyləmək mümkündür. "Qeyd edim ki, müasir dövrdə insanlar fərqliliklərini ifadə etmək üçün bədənləri üzərində dəyişikliklər etməyə daha çox meyillidirlər. Göz rəngini dəyişmək kimi prosedurlar fərdi xüsusiyyətləri vurğulamaq və özünü daha unikal hiss etmək üçün bir vasitə kimi qəbul edilə bilər. Eləcə də özünəinamı aşağı olan şəxslər bədənlərinin bir hissəsini dəyişdirməklə özlərini daha cəlbedici və diqqətəlayiq hiss edə biləcəklərinə inanırlar. Bu, xüsusilə gözlər kimi vizual olaraq ilk təəssürat yaradan sahələrdə daha çox görülür. Sosial media və məşhurların təsiri belə əməliyyatlara olan marağı artırır. İnsanlar başqalarının bu proseduru etdiyini görüb, onları təqlid etmək istəyirlər", - deyə o əlavə edir.

E.Rüstəmov vurğulayır ki, bəzi hallarda isə fərqli göz rəngləri ideal gözəllik standartları ilə əlaqələndirilir. Qərb mədəniyyətində daha açıq rəngli gözlərin üstünlük təşkil etməsi bəzi fərdləri bu rəngə nail olmaq üçün əməliyyatlara yönləndirir. Bəzi hallarda isə insanlar daxili narahatlıqlarını və kimlikləri ilə bağlı qeyri-müəyyənliklərini fiziki görünüşlərində dəyişiklik etməklə həll etməyə çalışırlar. Bu, daxili psixoloji tarazlığın itirildiyini göstərir. Əməliyyata olan tələbatın yalnız estetik səbəblərdən qaynaqlanmadığını nəzərə alaraq, belə prosedurlara qərar verənlərin peşəkar psixoloji məsləhət almaları tövsiyə olunsa, daha yaxşıdır. Bu, qərarın daha sağlam və düşünülmüş şəkildə verilməsinə kömək edə bilər.

İnstitutun rəhbəri bildirir ki, göz kimi həssas və həyati vacib bir orqana müdaxilə tələb edən əməliyyat risklərini nəzərə alan şəxslərin motivasiyalarını yalnız cəsarət kimi qiymətləndirmək kifayət etməz. Bu şəxslərin belə bir addımı atması arxasında daha dərin psixoloji faktorlar və komplekslər ola bilər, çünki hər hansı tibbi prosedurun, xüsusilə göz rəngini dəyişdirmək kimi estetik əməliyyatların ciddi risklər daşıdığını bilmək mütləqdir. Bu riskləri bilə-bilə belə bir əməliyyata qərar verənlər cəsarətli görünə bilsələr də, bu qərar daha çox risklərin əhəmiyyətini kiçiltmək və ya problemləri həll etmək üçün son çarə kimi qəbul edilə bilər.

### Cəsarət maskası ilə riskli addımlara qərar verənlər

E.Rüstəmov qeyd edir ki, psixoloji baxımdan bu davranış "impulsiv risk qəbul etmə" və ya "nəticələrə fokuslanmama" ilə əlaqədardır: "Eyni zamanda göz rəngini dəyişdirmək arzusu çox vaxt özünüdərkin və özünüqəbulun zəifliyindən qaynaqlana bilər. Öz bədəninin bir hissəsini "yetərsiz" və ya "qüsurlu" hesab edən insanlar bunu dəyişdirərək daxili komplekslərini aşa biləcəklərinə inanırlar. Əgər göz rəngi kimi nisbətən sadə bir məsələ kompleksə çevrilibsə, bu, daha dərindən həll edilməli emosional narahatlıqların mövcudluğuna işarə edir. Bəzi insanlar öz görünüşlərində "mükəmməllik" axtarışında olur və kiçik detalları belə dəyişmək istəyirlər. Bu, bəzən daxili harmoniya axtarışı kimi təzahür etsə də, çox vaxt qeyri-real gözləntilərdən irəli gəlir. Belə insanlar mükəmməl görünüşə nail olmaq üçün riskləri gözardı etməyə meyilli olurlar. Normal həyatda cəsarət adətən çətin qərarları ağılla və nəticələrini anlamaqla qəbul etməkdən irəli gəlir. Lakin bu proseduru seçən şəxslər arasında emosional kompleksləri aşa bilməyənlərin sayı daha çox ola bilər".

Cəsarət və kompleksin bir-birinə zidd anlayışlar olmadığını deyən E.Rüstəmov qeyd edir ki, çox vaxt komplekslərini aradan qaldırmaq istəyən insanlar cəsarət maskası ilə riskli addımlara qərar verirlər.

### Motivasiya yalnız göz rəngini dəyişməkdirmi?

Elmi Tədqiqat İnstitutunun sədri vurğulayır ki, göz rəngi kimi estetik dəyişikliklər istəyən şəxslərə əməliyyatdan əvvəl psixoloji məsləhət xidmətləri göstərilməsi çox vacibdir. Bu, onların motivasiyalarını daha yaxşı başa düşməyə və həqiqətən dəyişiklik istəyinin daxili harmoniya ilə bağlı olub-olmadığını müəyyən etməyə kömək göstərər. FLAAK əməliyyatına yüksək məbləğdə pul xərcləyən və riskə gedən insanların motivasiyaları yalnız göz rəngini dəyişmək kimi sadə məqsədlə məhdudlaşmır, onların görünməyən məqsədləri sosial, psixoloji və bəzən dərin emosional köklərə malik olur: "Məsələn, prestij göstəricisi: bu cür bahalı əməliyyatlara yalnız müəyyən maliyyə imkanlarına sahib insanlar müraciət edə bilirlər. Bu, bəzən status nümayiş etdirmək və "bunu etməyə gücüm çatır" mesajı vermək istəyi ilə bağlı olur. Məqsəd diqqət mərkəzində olmaqdır. Dəyişdirilmiş göz rəngi qeyri-adi və nadir olduğu üçün insanlar diqqət çəkmək və sosial çevrələrində unikal görünmək məqsədilə bu əməliyyata müraciət edə bilərlər. burada bir neçə amil var. Daxili boşluğun doldurulması: bəzi insanlar maddi imkanlarından psixoloji və emosional narahatlıqlarını aradan qaldırmaq üçün istifadə edirlər. Onlar inanırlar ki, fiziki görünüşdə dəyişiklik etmək daxili narahatlıqları yüngülləşdirə və özünəinamı artıra bilər. Bu yanaşma bəzən müvəqqəti təsir göstərsə də, əsas problem həll olunmadan qalır. Yenilənmə və yeni başlanğıc simvolu kimi: göz rəngini dəyişmək kimi əməliyyatlar bəzən insanların həyatında yeni mərhələ və ya yenilənmə simvolu kimi qəbul edilir. Özlərini yeni bir "mən" olaraq təqdim etmək istəyənlər belə addımlara daha meyilli olurlar. Bu, keçmişdə yaşanmış çətinliklərdən və ya travmalardan qurtulma istəyi ilə də bağlı ola bilər. Təsdiq və qəbulu görmək ehtiyacı kimi: əməliyyat edənlərin bəzisi başqalarının təsdiqini və qəbulunu qazanmaq məqsədilə bu addımı atır. Xüsusilə sosial mediada görünüşə böyük əhəmiyyət verildiyi dövrdə belə dəyişikliklər daha çox bəyənmə, diqqət və sosial təsdiq üçün vasitəyə çevrilə bilir. İdeal görünüş arxasınca qaçmaq cəhdi: müasir dövrdə gözəllik standartlarının təsiri altında insanlar daha "ideal" görünüş əldə etməyə çalışırlar. Göz rənginin dəyişməsi də bu axtarışın bir parçası ola bilər. Bu şəxslər idealizə edilmiş bir görünüşə sahib olmağın onları daha xoşbəxt edəcəyinə inanırlar. Pulun rolunun psixoloji görünüşü: maddi imkanı yüksək olan bəzi insanlar üçün yüksək xərcli əməliyyatlar daha çox dəyər ifadə edir. Onlar bu məbləği ödəməklə özlərinə "nadir bir şeyi əldə etmək" zövqünü yaşadırlar və bu, bəzən psixoloji olaraq özlərini daha üstün hiss etmələrinə kömək edir. Psixoloji özünütəsdiq: göz rəngi dəyişmək istəyən insanlar bu prosesi nəzarəti öz əllərində saxlamağın bir forması kimi görə bilərlər. Bu, bəzən "həyatım üzərində tam nəzarətim var" mesajını özlərinə və başqalarına vermək üçün edilir".

### Arxasında ciddi psixoloji faktorların dayandığı estetik əməliyyatlar

E.Rüstəmov deyir ki, estetik əməliyyatlara müraciət edən şəxslərin prosedurdan əvvəl psixoloji vəziyyətinin diqqətlə öyrənilməsi həm onların qərarlarının sağlam əsaslara söykəndiyinə əmin olmaq, həm də əməliyyat sonrası mənfi emosional nəticələrin qarşısını almaq üçün vacibdir. Xüsusən də bahalı və riskli prosedurlar zamanı psixoloji qiymətləndirmə böyük əhəmiyyət kəsb edir. Əməliyyata müraciət edən şəxsin psixoloji vəziyyəti ilə bağlı diqqət edilməli əsas məqamlara daxildir: "Onların motivasiyaları: şəxs niyə bu əməliyyatı istəyir? Məqsəd təkcə estetik görünüşdür, yoxsa daxili narahatlıq və ya sosial təsir də var? Özünüqəbul səviyyəsi: şəxs öz görünüşünü və kimliyini nə qədər qəbul edir? Görünüşdə dəyişiklik istəyi komplekslərin nəticəsidirmi? Reallıq hissi: şəxsin gözləntiləri realdırmı, yoxsa qeyri-real təsəvvürlərə əsaslanır? Keçmiş travmalar: şəxsin keçmişdə yaşadığı emosional və ya psixoloji travmalar bu qərara təsir edibmi? Emosional sabitlik: depressiya, həyəcan-təşviş və ya bədən dismorfiyası pozuntusu kimi psixoloji problemlər varmı?"

Psixoloq vurğulayır ki, psixologiyada tez-tez və təkrar-təkrar estetik əməliyyatlara üz tutmaq bir neçə ümumi diaqnoz və ya davranış nümunəsi ilə əlaqələndirilə bilər: "Bədən dismorfik pozuntusu (Body-Dysmorphic Disorder - BDD) - bu, şəxsin öz görünüşündə qeyri-real və həddindən artıq qüsurlar görməsi ilə xarakterizə olunan psixoloji bir pozuntudur. Həmin şəxslər cüzi və ya başqaları tərəfindən nəzərə çarpmayan bir detala görə özlərini narahat hiss edir və onu düzəltməyə çalışırlar. Mükəmməllikçi davranış (Perfectionism) - şəxsin görünüşünü tamamilə mükəmməl etmək arzusu onu dəfələrlə əməliyyata yönləndirə bilər. Təsdiq asılılığı (Approval-Seeking Behavior) - başqalarının təsdiqini qazanmaq və qəbul edilmək ehtiyacı bu şəxsləri davamlı olaraq öz görünüşlərini dəyişdirməyə məcbur edir. Özünə nəzarətetmə çətinliyi - maddi imkanları yüksək olan şəxslər arasında estetik əməliyyatlara asılılıq (behavioral addiction) halına gələnlər də ola bilər. Ona görə də əgər şəxs bədən dismorfiyası, depressiya və ya başqa bir psixoloji problem yaşayırsa, əməliyyata icazə verilmədən öncə psixoterapiya məsləhət görülür. Bu şəxslərlə terapevtik iş nəticəsində onların həqiqi ehtiyacları və məqsədləri müəyyənləşdirilə bilər".

E.Rüstəmov sonda qeyd edir ki, estetik əməliyyatların yalnız kosmetik prosedur olmadığını və arxasında ciddi psixoloji faktorların dayandığını unutmaq olmaz: "Psixoloqların bu prosesdə aktiv iştirakı şəxslərin sağlam qərarlar qəbul etməsinə və əməliyyatdan sonra psixoloji problemlərin yaranmasının qarşısını almağa kömək edir. Tez-tez bu əməliyyatlara müraciət edənlər üçün isə psixoterapevtik müdaxilə daha dərin problemləri həll etmək üçün effektiv ola bilər".

Bəzən yarızarafat da olsa, rəngli gözə sahib insanlara "siz hər şeyi rəngli görürsüz" sualını ünvanlayırlar. Əgər bu tendensiya dünyaya rəngli baxmaq istəyindən qaynaqlanırsa, təəssüflə qeyd edəcəyik ki, "araşdırma"lar bunun həqiqət olmadığını göstərir. Nəticələrə görə, həyata rəngli baxmaq gözlərimizdən deyil, düşüncə tərzimizdən asılı olaraq, komplekslərimizdən azad olmaqla başlayır.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Bahar sağlamlığı üçün C vitamini

**Təbiətin oyandığı, Günəş şüalarının daha gur saçdığı bahar nə qədər xoş ovqat yaratsa da, özü ilə mövsümi narahatlıqlar da gətirir. Bu xəstəliklər ilk növbədə fəsil dəyişməsi ilə bağlı orqanizmdə baş verən proseslər və bəzi xarici amillərlə izah olunur.**

Mart-aprel ayları ənənəvi olaraq avitaminoz, yəni vitamin çatışmazlığı dövrü hesab edilir. Bunun nəticəsində daimi yorğunluq, süstlük, stres, pis əhvali-ruhiyyə, dırnaqların və saçların kövrəkləşməsi müşahidə olunur. Avitaminozla mübarizədə ən effektiv vitamin C vitaminidir. Kəskin C vitamini çatışmazlığı hətta astma, ateroskleroz, xərçəng, kandida infeksiyaları, Crohn xəstəliyi, hipertoniya, infeksiyalar, osteoartrit, ekzema, hepatit, mədə xorası və katarakt kimi bir çox xəstəliyə də səbəb olur.

Əsasən qış meyvələrində olan yüksək antioksidant xüsusiyyətlərə malik bu vitaminə yaz məhsullarında da rast gəlmək mümkündür. Yazda havaların tədricən isinməsi ilə əlaqədar orqanizm bədənin istiliyini lazımi qaydada saxlamaq üçün o qədər də çox enerji sərf etmir. Ona görə də qışda istifadə edilən heyvani zülalların bir hissəsini bitki zülalları ilə əvəz etmək olar. İmmun sistemini gücləndirmək, dəri sağlamlığını yaxşılaşdırmaq və dəmirin mənimsənilməsini artırmaq kimi mühüm funksiyaları yerinə yetirən C vitaminini ən yüksək konsentrasiyada ehtiva edən məhsullar arasında çiyələk, gilas, alça, pomidor, kahı, kivi, turp, şüyüd, cəfəri, kəvər, brokoli, limon, qırmızı və yaşıl bibər yer alır.




C vitamini dedikdə ağlımıza ilk gələn meyvə portağal olsa da, bu vitaminin daha zəngin mənbələri var. Əgər ortaölçülü portağalda 60-83 mq C vitamini varsa, kividə bu miqdar 84 mq-dir. Bundan əlavə, kivi fol turşusu, K və E vitaminləri ilə də zəngindir. Doğru kivi seçərkən, meyvənin mümkün qədər təzə olduğuna, yeni yığıldığına diqqət etmək vacibdir. Mütəxəssislərin fikrincə, meyvə yığılan kimi qida dəyərini itirməyə başlayır. Yol nə qədər uzun olarsa, kivi də bir o qədər öz xüsusiyyətlərini itirir.

Qırmızı və yaşıl bibər də sözügedən vitaminlə zəngindir. Yarım stəkan doğranmış bibərdə təxminən 144 mq C vitamini var ki, bu da insanın gündəlik ehtiyacını ödəmək üçün kifayətdir. Bolqar bibərinin tərkibində betakarotin kimi antioksidantlar da var.

Çiyələk yalnız şirin və dadlı deyil, həm də C vitamini ilə zəngindir. 8 çiyələkdə 1 portağaldan daha çox - təxminən 85 mq C vitamini var. Çiyələk beyin sağlamlığını dəstəkləyən və xərçəng riskini azalda bilən güclü antioksidantları ehtiva edir. Onun əsas antioksidantı meyvəyə qırmızı rəngi verən antosianindir. Çiyələyin tərkibindəki antosianinin miqdarı meyvə yetişdikcə artır. Beləliklə, çiyələk nə qədər qırmızıdırsa, deməli, bir o qədər xeyirlidir.

Sevimli meyvələrdən olan alça da güclü antioksidantdır. O, arterial təzyiqi tənzimləməyə, orqanizmdən toksinləri xaric etməyə kömək edir, damarları daha möhkəm və elastik edir. Meyvənin tərkibində B3 vitamini də var. Bu vitamin orqanizmi hüceyrə səviyyəsində müxtəlif mutasiyalardan qoruyur. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, çiyələyin tərkibindəki antioksidantlar beyindəki iltihabı aradan qaldırmağa, yaşla bağlı yaddaş itkisini gecikdirməyə və yaşlılarda Altsheymer xəstəliyi riskini azaltmağa kömək edir.

Mütəxəssislər bildirirlər ki, orqanizm düzgün, balanslı qidalanma, fiziki hərəkət və sağlam həyat tərzi ilə fəsil dəyişkənliklərinə hazırlıqlı olar.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Sənaye zonalarında 84 müəssisə fəaliyyət göstərir

## Həmin müəssisələrdə 11 minə yaxın iş yeri açılıb

Qlobal iqtisadiyyatın inkişaf tarixinə nəzər yetirdikdə görürük ki, sənayesi inkişaf etmiş ölkələr iqtisadi kataklizmlər zamanı daha dayanıqlı olur. Bir neçə il öncə yaşadığımız koronavirus pandemiyası bunu bir daha təsdiqlədi. Həmin dövrün ağır nəticələri araşdırılarkən məlum oldu ki, zəif inkişaf edən ölkələr belə hallarda daha böyük ziyana uğrayır.



O illərin acı nəticələrini araşdıran mütəxəssislərin qənaəti belə oldu ki, sənayesi inkişaf edən və iqtisadiyyatı bütün sahələr üzrə şaxələnən ölkələr forsmajor hallara dözümlüdürlər. Bu baxımdan Prezident İlham Əliyev tərəfindən koronavirus pandemiyasından əvvəl ölkəmizdə aparılan sənayenin şaxələndirilməsi siyasəti özünü növbəti dəfə doğrultdu. Dünyanın nüfuzlu beynəlxalq maliyyə və bank təşkilatları da etiraf etdilər ki, Azərbaycan iqtisadiyyatı pandemiyanın ağır sınaqlarından az ziyan çəkmiş, üstəlik tez bir zamanda yenidən iqtisadi artıma nail ola bilmişdir. Sözsüz ki, bunlar düşünülmüş məqsədyönlü iqtisadi islahatların məntiqi nəticəsi idi.

Ötən illərin təcrübəsi göstərir ki, həmin islahatların yetirməsi olan sənaye parkları və məhəllələri, aqroparklar ixracyönümlü məhsulların istehsalının genişləndirilməsində, yeni iş yerlərinin yaradılmasında önəmli rol oynayırlar. Ölkəmizdə sənayenin yeni modellərinin tətbiqi, iqtisadi artım və inkişafın dayanıqlığı da böyük əhəmiyyət kəsb edir. Azərbaycan reallığında iqtisadi şaxələndirmədə istiqamətlərdən biri də qeyri-neft sənayesinin inkişafıdır. Burada görülən işlər yeni istehsal müəssisələrinin və iş yerlərinin yaradılmasına, sənayenin müasir texnologiyalarla inkişafına, əhalinin məşğulluq səviyyəsinin və rifahının yüksəldilməsinə əhəmiyyətli töhfələr verir.

Dövlət başçısının təşəbbüsü ilə yaradılmış sənaye zonaları ölkədə sənayenin inkişafında əsas istiqamətə çevrilib. Sənaye zonalarına daxil olan sənaye parkları və məhəllələri, eləcə də aqroparklar kimi səmərəli mexanizmlər ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, innovativ və rəqabətqabiliyyətli sənayenin inkişafına, istehsal sahəsində iş yerlərinin artırılmasına geniş imkanlar açır.

Ölkəmizdə indiyədək 9 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Qaradağ, Pirallahı, Hacıqabul, Mingəçevir, Naxçıvan, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları, 4 sənaye məhəlləsi - Neftçala, Masallı, Sabirabad və Şərur sənaye məhəllələri, həmçinin qeydiyyata alınmış 24 aqropark mövcuddur. Sənaye parklarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı mexanizmlər tətbiq olunur. Sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla - qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər indiyədək 505 milyon manatdan çox, keçən il isə 44 milyon manatdan artıq vəsaitə qənaət ediblər. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki sənaye parklarında əlavə - kommunal xidmətlər, məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması, kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması, həmçinin müəyyən edilmiş bir sıra iqtisadi fəaliyyət sahələri üzrə xammal və materialların idxalının əlavə dəyər vergisi və gömrük rüsumundan azad olunması ilə bağlı güzəştlər tətbiq edilir.

Sənaye zonalarına indiyədək yatırılan ümumi investisiyanın həcmi 6,9 milyard manat təşkil edib. Hazırda bu zonalarda 84 müəssisə fəaliyyətə başlayıb və 11000-ə yaxın yeni iş yeri yaradılıb. Belə əlverişli imkandan yararlanmaq üçün yerli və xarici sahibkarların dövlət qurumlarına müraciətləri davam edir.

Ölkəmizdə qeyri-neft-qaz sənayesinin inkişafı istiqamətində verilən dövlət dəstəyi öz bəhrəsini verir. Belə ki, 2015-ci ildən 1 yanvar 2025-ci il tarixinə kimi sənaye zonalarında istehsal olunan 15,4 milyard manatlıq məhsul satışı həyata keçirilib, həmin məhsulların 4,9 milyard manatlığı ixrac edilib. Təkcə 2024-cü ildə sənaye zonaları tərəfindən 3,3 milyard manatlıq məhsul satılıb ki, bunun da 1,07 milyard manatlıq hissəsi ixracın payına düşür. Satılan məhsulların coğrafiyası da genişlənir. Demək olar ki, məhsullar bütün qitələrə, o cümlədən 70-dən çox ölkəyə ixrac edilir.

Sənaye zonalarında istehsal olunan məhsulların xüsusi çəkisi ölkə üzrə istehsal edilən ümumi məhsulların payında da ardıcıl artır. Məsələn, 2024-cü ildə sənaye zonalarının qeyri-neft sənaye məhsulları istehsalında xüsusi çəkisi 17,6, qeyri-neft sənayesi məhsullarının ixracında isə 26 faiz təşkil edib ki, bu da sənaye zonalarının iqtisadi artıma töhfələrindən xəbər verir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### Baş ofisə və struktur idarələrə tələb olunan yuyucu vasitələrin satın alınması məqsədilə açıq *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 01 aprel 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1219**

***Tender komissiyası***


# "Əmək və Məşğulluq" altsistemi növbəti beynəlxalq müsabiqədə qalib seçilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi Böyük Britaniyanın "Global Banking & Finance Review" beynəlxalq qurumu tərəfindən mükafata layiq görülüb.**

Agentliyin "Əmək və məşğulluq" altsistemi (ƏMAS) qurum tərəfindən təşkil edilən Global Banking & Finance Awards" müsabiqəsində "İnnovasiyada Mükəmməllik" kateqoriyası üzrə qalib seçilib. (https://www.globalbankingandfinance.com/global-banking-finance-awards-2025-award-winners)

Bu mükafat altsistemin funksionallığı, aydın və izahlı istifadə metodları, innovativ tələblərə sürətli uyğunlaşması kimi meyarlara əsasən verilib.

Müsabiqədə Azərbaycanla yanaşı, ABŞ, Böyük Britaniya, İtaliya, Xorvatiya, Portuqaliya, Türkiyə və s. daxil olmaqla 100-ə yaxın ölkədən qurumlar, regional və beynəlxalq maliyyə korporasiyaları iştirak edib.




# Türkiyədə dahi Azərbaycan şairi Nizami Gəncəviyə dair layihələr reallaşdırılacaq




Türkiyədə dahi Azərbaycan şairi, Türk dünyası ədəbiyyatının zirvəsi Nizami Gəncəviyə həsr olunmuş layihələr reallaşdırılır.

Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi Ankara şəhər Mədəniyyət və Turizm İdarəsi ilə birgə, il ərzində Türkiyədə "Nizami Gəncəvi əsərləri miniatürlərdə" adlı rəsm müsabiqəsi və sözügedən əsərlərin sərgisini açacaq. Layihəyə Türkiyə Mədəniyyət və Turizm Nazirliyi də müvafiq dəstək göstərəcək. Bu barədə Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovla Ankara şəhər Mədəniyyət və Turizm müdiri Erhan Karakaya arasında keçirilən görüşdə razılıq əldə olunub.

Qeyd edək ki, müsabiqə məqsədilə Azərbaycan Mədəniyyət Mərkəzi, Ankara Etnoqrafiya Muzeyi və Rəsm, heykəllər Muzeyinin mütəxəssislərindən ibarət Təşkilat Komitəsi yaradılacaq. Bu ilin mart ayında Nizami Gəncəvinin anım günlərindən başlayacaq müsabiqəyə dahi şairin doğum günlərində - sentyabr ayında yekun vurulacaq.

Türkiyəli rəssamlar arasında elan olunan müsabiqəyə əsasən Nizami Gəncəvinin "Xəmsə" personajlarının motivləri əsasında işlənən miniatürlər - rəsm əsərləri təqdim olunacaq və əsərlər hazırlanarkən Azərbaycan-Türk təsviri sənət ənənələri əsas götürüləcək.

Bundan başqa, Azərbaycan Mədəniyyət Mərkəzi Türkiyə Simfonik Orkestrinin iştirakı ilə dahi Nizami Gəncəvinin əsərlərindən ibarət "Şan-şöhrəti cahana sığmaz Türklərin" adlı Azərbaycan və Türkiyə vokalçılarının ifasında Ankarada möhtəşəm konsert proqramının keçirilməsi nəzərdə tutulur.

# "Ermənistanın müasir ərazilərində niyə azərbaycanlı yoxdur?" adlı kitabça alban dilinə tərcümə olunub




Beynəlxalq münasibətlərin təhlili mərkəzi (AIRCenter) və Avrasiya tədqiqatları Mərkəzinin (AVİM) birgə müəllifliyi ilə hazırlanmış "Ermənistanın müasir ərazilərində niyə azərbaycanlı yoxdur?" adlı kitabça alban dilinə tərcümə edilərək nəşr olunub.

Nəşrdə mövzu ilə bağlı vəziyyətin tarixi icmalı, azərbaycanlılara qarşı hücum və təhdidlər, onların mədəni irsinin silinməsi, qaçqın düşmüş azərbaycanlıların öz vətənlərinə qayıtmaq cəhdləri və bunun hüquqi əsasları öz əksini tapıb.

Kitabçanın Albaniyanın rəsmi və ictimai dairələr arasında yayılması, ayrıca təqdimatın keçirilməsi və aparıcı ali təhsil ocaqları, beyin mərkəzləri və kitabxanalara yerləşdirilməsi nəzərdə tutulur.

# ABŞ-də soydaşımızın solo konserti və ustad dərsi olub

ABŞ-nin Arlinqton şəhərindəki Texas Universitetində azərbaycanlı pianoçu Fidan Ağayeva-Edlerin solo konserti və ustad dərsi olub.



Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Komitənin və Azərbaycan-Amerika Musiqi Fondunun dəstəyi ilə keçirilən konsertdə Türkər Qasımzadə, Rəhilə Həsənova, Ayaz Qəmbərli, Firəngiz Əlizadə, Arnold Şönberq, Corc Kramb və Çaya Çernovinin əsərləri ifa edilib. Bununla yanaşı, universitetin tələbələri üçün ustad dərsləri də keçirilib. Fidan Ağayeva-Edler öz zəngin təcrübəsi, bilik və bacarıqlarını tələbələrlə bölüşüb. Bu dərslər gənclərin müasir fortepiano ifaçılığına dair dərin biliklər qazanmasına imkan yaradıb.

Qeyd edək ki, Almaniyada yaşayan Fidan Ağayeva-Edler dünya pianoçuları arasında öz müasir ifaları və peşəkarlığı ilə seçilir, musiqisevərlərin rəğbəti ilə qarşılanır. O, Berlinin müasir musiqi həyatında aktiv fəaliyyət göstərməklə yanaşı, bəstəkarlarla da sıx əməkdaşlıq edir.

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC tərəfindən 2024-cü il tarixdə Aydan Azər qızı Əliyevanın adına "Tv Səhər Musiqi İnformasiya Proqramları" redaksiyasına daxil olmaq üçün verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin rəhbərliyi və kollektivi Masallı Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Akif Dəyyam oğlu Həmidova qardaşı

**HƏBİB DƏYYAM OĞLU HƏMİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumi iqtisad fakültəsinin 1984-cü il buraxılış 932-ci qrupun məzunları qrup yoldaşları Rasim Əliyevə əzizi

**BƏHRAM TEYMUR OĞLU ZÜLFÜQAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3510
Sifariş 530

Qiyməti 60 qəpik